Xalqın qəzeti!

# Xalq qəzeti

№ 160 (30276) 1 avqust 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir. Biz uzun illər bu yanaşmaya məruz qalmışıq. Bu gün həmin o tendensiya davam edir.**

# İrəvan sülh prosesinə əngəl törədir





**İyulun 29-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesi üzrə danışıqlar və bölgədə son vəziyyət müzakirə olunub.

Ermənistan tərəfinin atdığı təxribatçı addımların sülh prosesinə maneçilik törətdiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam etməsi bölgədə hərbi gərginlik mənbəyidir.

Dövlətimizin başçısı Ermənistan tərəfinin Laçın dövlət sərhədindən keçid məntəqəsində hərbi təxribat törətməsini, sərhədçilərimizi atəşə tutmasını, qaçaqmalçılığa cəhd edilməsini, icazəsiz yük avtomobillərinin Azərbaycana göndərməsini qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam–Xankəndi yolundan istifadə etməklə bağlı təklif irəli sürməsinə və bunun Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan bütün təkliflərə qarşı çıxıb. Erməni tərəfinin "humanitar vəziyyət" və "blokada" ilə bağlı iddiaları siyasi manipulyasiyadır.

Prezident İlham Əliyev bildirib ki, Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərərək, sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törətməyə çalışması qəbuledilməzdir. Dövlətimizin başçısı Azərbaycan tərəfinin erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlı olduğunu, bu məqsədlə Xocalıda birinci görüşün keçirildiyini, ikinci görüş üçün isə Azərbaycanın təklifinin təqdim edildiyini xatırladıb.

Antoni Blinken ABŞ-ın Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Erməni təəssübkeşliyi: "Laçın dəhlizi" məntiqi və beynəlxalq hüquqa etinasızlıq




**Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel haqlı idi. Azərbaycan hakimiyyətinin Ağdam vasitəsilə Qarabağa humanitar yüklərin çatdırılmasına hazır olduğunu diqqətə çatdırmışı Borrel düz deyirdi ki, Ağdam yoluna Laçın dəhlizinin alternativi kimi baxmaq olmaz.**

Əlbəttə, avropalı ali nümayəndənin məsələyə hansı prizmadan baxdığını mübahisələndirmək niyyətindən uzağıq. Yəni, demək istəmirik ki, Aİ-nin rəsmi nümayəndəsi belə fikir bildirməklə, Azərbaycanın təklif etdiyi variantın məqbulluğuna dair subliminal mesaj vermişdi. Nə də cənab Borrelin xam xəyala düşdüyündən, Laçın yolunun açılmasının qaçılmazlığını nəzərdə tutduğundan söz açmaq fikrindəyik.

*(ardı 3-cü səhifədə)*

# BQXK-nın Xankəndi ofisi bu qurumun adına üzqaralığı gətirdi



Səhifə ⇨ 3

# Hayların Xaçatryan isterikası

## Meşəli qatilini "millətin fədaisi" obrazında təqdim etmək üçün dəridən-qabıqdan çıxırlar




**Qanunsuz erməni silahlı birləşmələrinin üzvlərinin 1991-ci ilin dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində törətdikləri qətliamda iştirak etməkdə ittiham olunan Vaqif Xaçatryanın iyulun 29-da Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən saxlanılması Ermənistanda və Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər arasında yeni isterika dalğasının yaranmasına səbəb olub.**

*(ardı 6-cı səhifədə)*

# Daşınmaz əmlak sahəsində tariflər azaldıldı



Səhifə ⇨ 8

# Deyəsən, sarsıdıcı zərbənin məqamı yetişib

**Hayastan hökumətinin və zombiləşdirilmiş erməni kütləsinin düşdüyü vəziyyət miskin mənzərədən başqa bir şey deyil. Qismətimizə qonşuluq düşmüş bu məmləkətin halı daha çox mücərrədləşmiş başıpozuq kütləni, saxta qeyri-hökumət təşkilatını xatırladır. İnqilabi və tarixi dəyişikliklər dalğasında Ermənistanda hakimiyyətə yiyələnmiş Qərbyönümlü məhz "qeyri-hökumət qüvvələrin" atdığı ilk addımları azı üç onillik ərzində çətiri altında gizləndiyi Rusiyanın vassallığından qurtulmaq, forpostluqdan qopmaq cəhdləri erməni dövlətçiliyi ideyasının özünü təhlükə girdabına sürükləyib. Əzəldən mifləşdirilmiş tarixə malik bu toplum yarımvəhşi qəsbkarlıq xislətindən XXI əsrdə xilas olmağın ağrısını yaşayır.**

### Qozbeli heç qəbir də düzəltmir

Fikrimizcə, hayların ən böyük problemi çağdaş dövrün tələbləri ilə ayaqlaşa bilməmələri, yeni ictimai-siyasi düzənin özəyini təşkil edən effektiv metodologiyadan məhrum olmalarıdır. Doğrudur, ayrı-ayrı təşəbbüslər var, amma bu, istənilən nəticəni vermir, cəmiyyətdə sağlam sabitliyin əldə edilməsi üçün kifayət deyil. Ermənistanın dövlət siyasəti dəyişməz problemlərlə, bunun nəticəsində aldığı ağır zərbələr və acı dərslərlə, sistemli qüsurlarla, sosial-psixoloji dağıntılarla 31 ildir böhranlı durumdadır. Ələbaxımlılıq hay cəmiyyətinin, az qala, milli-etnik xarakterinə çevrilib.

Əllərini hara uzatsalar da, kimlərə dil-ağız etsələr də, heç bir faydası olmayacaq. Otuz illik işğalçı-cinayətkat fəaliyyətiniz məntiqi sonluğa yaxınlaşıb. Əgər İrəvan və Xankəndidəki separatçı-daşnak rejim sonunun çatdığına hələ də inanmırsa, onda günah bizdə deyil... Onları bu aqibətdən hər cür təzyiq və təsir vasitələri ilə separatizmi alovlandırmağa çalışan şərqli-qərbli dəstəkçiləri də qoruya bilməcəklərinə əmin olsunlar. Bu əminlik üçün qarşılarında tarixin onlara "bəxş elədiyi" nümunələr mövcuddur. Baxın, düşünün və ibrət götürün. Yoxsa, reallıqla barışmayan, yel dəyirmanının üzərinə qılıncla hücum çəkən idealist Don Kixot kimi rişxənd və gülüş obyektinə çevrilməyi hədəfləyiblərsə, özləri bilsin...

*(ardı 6-cı səhifədə)*

# Ana dili milli varlığımızdır

**Ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanına əsasən hər il avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Ulu öndər həmin tarixi sənədi latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.**




Dahi şəxsiyyət bütün fəaliyyəti dövründə mənəvi varlığımızın əsası sayılan dilimizin inkişafına böyük qayğı ilə yanaşıb. Ulu öndər sovet dönəmində müəyyən çətinliklərə baxmayaraq, Azərbaycan dilinin təhlükələrdən qorunması və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirib. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilən zaman ora dövlət dili haqqında maddənin salınmaması ilə heç cür barışmayan Ümummilli lider bu məsələdə prinsipial münasibəti ilə diqqət çəkib. Beləliklə, 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunan yeddinci sessiyasında məruzə ilə çıxış edən dahi şəxsiyyətin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınıb. Bu dəyişikliklə Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğu təsdiqini tapıb.

*(ardı 9-cu səhifədə)*

# Pakistan ölkəmizə düyü ixracını 10 dəfə artırmağı planlaşdırır

**Son günlər beynəlxalq mediada Hindistanda hökm sürən quraqlıq nəticəsində düyü istehsalının azalmasının, bununla bağlı məhsulun bahalaşmasının qarşısını almaq, daxildə qiymətlərin sabit saxlanılmasına nail olmaq üçün hökumətin "basmatı" növü istisna olmaqla, təmizlənən düyü ixracına qadağa qoyması barədə məlumat yayılıb.**



Hindistanın düyü ixracına qadağa qoyması dünyanın bir neçə ölkəsinin də analoji addım atması ilə nəticələnib. Məsələn, Birləşmiş Ərəb Əmirlikləri və Rusiya cari ilin sonunadək ölkədən düyü ixracı və reixracını dayandırıb. Ekspertlər bildirirlər ki, qlobal düyü ixracının 40 faizi Hindistan tərəfindən reallaşdırılır və bu, adıçəkilən ölkənin ümumi ixracının 25 faizini təşkil edir.

*(ardı 7-ci səhifədə)*

# İqlim dəyişmələri bəşəriyyəti təhdid edir

Səhifə ⇨ 10



# Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə **qərara alıram:**

**1.** Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

26 avqust – Laçın şəhəri günü
4 oktyabr – Cəbrayıl şəhəri günü
17 oktyabr – Füzuli şəhəri günü
20 oktyabr – Zəngilan şəhəri günü
25 oktyabr – Qubadlı şəhəri günü
8 noyabr – Şuşa şəhəri günü
20 noyabr – Ağdam şəhəri günü
25 noyabr – Kəlbəcər şəhəri günü.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 iyul 2023-cü il**

# Səudiyyə Ərəbistanı ilə əlaqələrin perspektivləri müzakirə edilib

**Ər-Riyadda Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Səudiyyə Ərəbistanı Krallığının xarici işlər nazirinin müavini Valid bin Əbdül Kərim Əl-Xereyci ilə görüşü olub.**



Görüş əsnasında iki dost ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev iştirak edib.

# XİN-in Meşəli canisinin həbsi ilə bağlı açıqlaması

**Azərbaycan Xarici İşlər Nazirliyi iyulun 29-da Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitəsində Ermənistana getmək istəyən Vaqif Xaçaturyan adlı şəxsin Laçın sərhəd-buraxılış məntəqəsində Dövlət Sərhəd Xidməti tərəfindən həbs edilməsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyininhəqiqətə uyğun olmayan bəyanatını şərh edib. Bununla bağlı XİN-nin mətbuat idarəsinin yaydığı açıqlamada deyilir:**

"Ermənistan Xarici İşlər Ermənistan tərəfinin məsələ ilə bağlı ölkəmizə qarşı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur. Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən verilmiş məlumatda da qeyd edildiyi kimi, Vaqif Xaçatryan Çerkezoviçin bir qrup erməni hərbi birləşmələrinin tərkibində 1991-ci ilin 22 dekabr tarixində Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı kütləvi qırğın törədib. Aparılan cinayət işi üzrə Xaçatryan Vaqif Çerkezoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunması barədə qərar qəbul edilib ona məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. O, məhz bu cinayət işi çərçivəsində iyulun 29-da Ermənistana gedərkən sərhəd-buraxılış məntəqəsində həbs edilib".

Açıqlamada daha sonra bildirilir ki,- Vaqif Xaçatryanın Ermənistana tibbi məqsədlərlə getdiyini nəzərə alaraq, onun Bakı şəhərində tibb müəssisəsinə yerləşdirilməsi, ona zəruri tibbi yardımın göstərilməsi təmin edilib: "BQXK-nın nümayəndələrinin ona baş çəkməsinə müvafiq şərait yaradılıb. Azərbaycan tərəfindən atılan bütün bu addımlar beynəlxalq hüquq və Azərbaycan qanunvericiliyi çərçivəsində həyata keçirilib. Beynəlxalq humanitar hüquqda müharibə cinayətkarlarına qarşı müvafiq tədbirlər görülməsinə mane olan heç bir məhdudiyyət yoxdur".

**"Xalq qəzeti"**

# Vaqif Xaçatryanın qrup şəklində Meşəliyə hücum etməsi faktı təsdiqlənib



**İstintaqın gedişində yeni faktlar ortaya çıxarsa, Meşəlidə soyqırımı törətməkdə təqsirləndirilən Vaqif Xaçatryana əlavə ittihamlar irəli sürülə bilər. Bunu Hərbi prokurorun müavini Fuad Məmmədov bildirib.**

Onun sözlərinə görə, aparılan araşdırma zamanı Vaqif Xaçatryanın erməni millətindən olan digər şəxslərlə qrup şəklində Meşəli kəndinə hücum etdikləri barədə məlumatlar var.

"Zirehli maşınlarla, transportyorlarla hücuma keçilməsi göstərir ki, bu, əvvəlcədən təşkil edilib. Burada məqsəd insanları kütləvi şəkildə Meşəli kəndindən çıxarmaq, həmçinin onların fiziki məhvinə nail olmaq olub. Ona görə də həmin cinayət işi soyqırımı, eyni zamanda əhalini deportasiya və məcburi köçürmə maddələri ilə Hərbi Prokurorluğun İstintaq şöbəsində araşdırılır", - deyə Hərbi prokurorun müavini bildirib.

F.Məmmədov vurğulayıb ki, istintaqın gedişində Meşəli epizodu üzrə 9 nəfərin cinayət törətməsi sübut olunub. Digər şəxslərin aşkarlanaraq barələrində həbs qətimkan tədbiri seçilməsinə dair məhkəmədən qərarlar alınıb.

**Q.QASIMOV,**
**"Xalq qəzeti"**

# Laçınlılar doğma yurdlarına qayıdırlar

**Dünən Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Laçına daha 12 ailə (53 nəfər) köçürülüb.**



Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Laçın şəhərində 180 ailənin (700 nəfər) daimi məskunlaşması təmin edilib.

**"Xalq qəzeti"**

# Türkiyə Prezidenti Azərbaycanın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlər, regionda və dünyada baş verən hadisələr ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Türkiyənin xarici işlər nazirləri görüşüblər



**İyulun 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Hakan Fidanla görüşüb.**

Ceyhun Bayramov və Hakan Fidan arasında təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniş tərkibli görüşdə Azərbaycan və Türkiyə arasında çoxşaxəli ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən bölgədə mövcud vəziyyət müzakirə olunub.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"-nin ölkələrimiz arasında münasibətlərin inkişaf tarixində yeni mərhələnin əsasını qoyduğunu bildirən nazir Ceyhun Bayramov bundan sonra da əlaqələrimizin genişləndirilməsi istiqamətində əməli addımların atılacağını əminliklə vurğulayıb. Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə Ermənistanın mövcud sülh gündəliyinin irəlilədilməsinə hədə törədən təxribatları barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Ermənistanın destruktiv mövqeyi və addımlarına baxmayaraq, Azərbaycanın sülh gündəliyini irəli aparmaq əzmində və niyyətində olduğu diqqətə çatdırılıb. Bu xüsusda bölgədə bütün kommunikasiyaların açılması istiqamətində görülən işlərin əhəmiyyətindən bəhs edən nazir Ceyhun Bayramov bağlantıların bərpasının Azərbaycan və Türkiyə arasında əməkdaşlığı daha da gücləndirəcəyinə dair inam ifadə edib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan iki ölkənin ən çətin günlərdə daim bir-birini dəstəkləməsinin qardaşlığımızın yalnız sözdə deyil, əməldə də öz təsdiqini tapmasının göstəricisi olduğu bildirilib.

Azərbaycan tərəfindən bölgədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin, o cümlədən sülh gündəliyinin irəlilədilməsi istiqamətində görülən işlərin bölgədə davamlı sülhün bərqərar edilməsində mühüm rol oynadığı vurğulanıb.

Görüş zamanı, həmçinin, beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Orta Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin, eləcə də digər çoxtərəfli təşəbbüslərin daha da genişləndirilməsinin əhəmiyyəti nazirlər tərəfindən vurğulanıb.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər, jurnalistlərin suallarını cavablandırıblar.

*

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə səfəri çərçivəsində Türkiyə Prezidentinin baş müşaviri Akif Çağatay Kılıçla görüşüb.**

Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşdə Azərbaycanla Türkiyə arasında ikitərəfli, regional formatlar, BMT, İƏT, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

**"Xalq qəzeti"**

# Mərakeşin milli bayramı qeyd olunub

**Mərakeşin milli bayramı – Taxt-Tac Günü münasibətilə iyulun 31-də Bakıda rəsmi qəbul təşkil edilib.**



Azərbaycanla Mərakeş arasındakı möhkəm dostluq əlaqələrindən danışan Mərakeşin səfiri Məhəmməd Adil Embarş deyib: "Ölkələrimiz arasında diplomatik münasibətlərin əsasının qoyulmasında Ulu öndər Heydər Əliyevin böyük rolu var. Ümummilli liderdən sonra bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmməd-quliyev bayram münasibətilə Mərakeş xalqını Azərbaycan hökuməti adından təbrik edib.

"İki ölkə arasında siyasi müstəvidə də əlaqələrimiz yüksək səviyyədədir, siyasi məsləhətləşmələr aparılır. Mədəni, sosial sahələrdə də yaxşı əlaqələrimiz var. Hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir. Beynəlxalq səviyyədə də əməkdaşlığımız uğurla davam etdirilir", - deyə o vurğulayıb.

Tədbir ziyafətlə davam edib.

**Qəzənfər QASIMOV,**
**"Xalq qəzeti"**

# Erməni təəssübkeşliyi: “Laçın dəhlizi” məntiqi və beynəlxalq hüquqa etinasızlıq

## Qarabağ ermənilərinin nicatı Ağdam–Əsgəran yolundadır

(əvvəli 1-ci səhifədə)

Əsas məsələ, ümumən, artan ermənipərəstlik dalğası fonunda Azərbaycanın mövqeyinin hansısa formada gündəmə gətirilməsidir. Hesab edirik ki, dünya həmin dalğadan xilas olduqca tərdricən Bakının baxışlarına köklənəcək. Bunun bir qədər zamana ehtiyacı var. Zamana və dirənişə. Qətiyyətlə demək olar ki, ötən həftə həmin zamanı udmaq üçün göstərdiyimiz dirəniş baxımından əlamətdar oldu.

Bəli, Azərbaycan dirənir. Ölkəmiz prinsiplərində qətiyyətli və ardıcıldır. Prinsip isə budur ki, qanuni ərazilərimizə yiyələnməliyik. Əzmimiz qarşısında dayanacaq güc yoxdur. Bu isə o deməkdir ki, erməni təbliğat maşınının təsiri ilə anti-Azərbaycan mövqe tutan tərəflər tədricən arxa plana keçəcəklər. Zamanla hay-küy, mənasız pafos öz yerini soyuq reallıqlara və faktlara verəcəkdir. Hələlik isə böyük şairimiz Xəlil Rza Ulutürkün təbirincə desək, “davam edir 37.”

Əslində, şairin fikirlərini əbəs yerə xatırlamadıq. Ermənistan hakimiyyəti, onun havadarları, ermənipərəst dairələr 30-cu illərin repressiyası havasına kökləniblər. Azərbaycanı dünyaya Qarabağ ermənilərinə qarşı repressiya aləti qismində təqdim edirlər. Etnik təmizləmə, soyqırımı və sair iddialar da öz yerində. Erməni təbliğat maşını hazırda bütün hüquq normalarına tüpürməklə məşğuldur. Beynəlxalq ictimaiyyətin bəzi qütbləri isə bunu ana südü kimi qəbul edirlər.

Məsələn, Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç. Bu xanım bəyanat yayaraq Laçın dəhlizi boyunca sərbəst hərəkətin bərpasına çağırıb. Niyə? Nə üçün? Avropa Şurası Azərbaycanı quruma hansı ərazilərdə qəbul edib? Yenə həmin ərazidir də. Bu ərazinin Ermənistanla sərhədi olmamalı idi? Azərbaycan öz sərhədinə nəzarəti həyata keçirib, qanunlarını tətbiq etməli deyildi? O zaman biz nə üçün Avropaya şengen vizası ilə gedirik?..

Digər yandan, Azərbaycan başqa qonşuları ilə də quru sərhədlərini açmayıb. Oktyabradək ölkəmizdə xüsusi karantin rejimi qüvvədədir. Nə üçün Ermənistan istisna olmalıdır? Amma ölkəmiz bu istisnanı etdi. Bir çox şeyləri nəzərə aldı. Sərhəddə normal-gediş gəliş oldu. Erməni təbliğat maşını isə həmin müddətdə də blokada məntiqini sürdürdü. Mariya Peyçinoviç-Buriçin dostları isə ermənilərə züy tutmaqla məşğul oldular. Nəticədə, Azərbaycanın adı yenə pis çıxdı. Madam ki, hər bir halda ölkəmizə qarşı qarayaxma davam edəcək, o zaman nə üçün sərhədi açaq? Onsuz da ermənipərəstlər öz oyunlarından çəkinmirlər.

Başqa bir yandan, Avropa Şurasının baş katibi nə üçün təmsil olunduğu qurumun erməni işğalını pisləyən bəyanatlarını yada salmır? İşğal ölkəmizin 86,6 min kvadratkilometrlik ərazisinə qarşı həyata keçirilmişdi. O əraziyə ki, onunla Azərbaycan quruma daxil olmuşdu. Laçın dəhlizi də həmin ərazidədir. Görəsən, xanım Peyçinoviç-Buriç bunu bilmirmi? Bilməmiş olmaz. Elə isə nə üçün obyektiv ola bilmir? Məsələn, o, deyə bilər ki, Azərbaycan vətəndaşları olan Qarabağ ermənilərini özü təmin etməlidir. Ancaq bölgədəki separatçı rejim Ağdam-Əsgəran yolunu kəsərək buna maneçilik törətməkdədir. Yox, deməz axı. Bəs, ermənipərəstlik damarını kim işə salsın? Kim erməni mənafeləri üçün çalışsın?

Xanım Buriç bildirir ki, Qarabağdakı ağır humanitar və insan haqları vəziyyətindən son dərəcə narahatdır. O zaman vaxtilə Xankəndidə, Ağdərədə yaşamış, indi ora gedə bilməyən azərbaycanlıların da insan hüquqlarından məhrum olduğundan narahatlığını ifadə etməlidir. Edirmi? Xeyr! Demək ki, gedib işi ilə məşğul olmalıdır. Yox bir, narahat imiş!

Avropa Şurasının baş katibi öz aləmində, guya, balans yaratmağı da yaddan çıxarmır. O deyir ki, hər iki tərəfi Laçın dəhlizindən azad və təhlükəsiz keçidi sürətlə təmin etmək məqsədilə həqiqi dialoqa çağırır. Bəli, yaxşı çağırışdır. O anlamda ki, həmin keçiddən azərbaycanlılar da keçsinlər. Keçsinlər və gedib vaxtilə qovulduqları dədə-baba torpaqlarında məskunlaşsınlar. Doğulub boya-başa çatdıqları Qərbi Zəngəzuru, İrəvanı, Göyçəni və sair yerləri görsünlər. Belə olduqda, xanım Buriçin də üzərində əsdiyi insan hüquqları özünün təntənə anını yaşayar. Ancaq



təəssüf ki, dünya bu təntənəni görmək istəmir, erməni avantürizminin yenidən təcəllisi üçün çalışır. İnsan haqlarını tapdama da məhz mövcud kontekstdə baş verir.

Ötən həftə insan haqlarına saymazdan gələn, ermənipərəst mövqe tutan daha bir beynəlxalq kəsim Almaniya Bundestaqının deputatları oldu. Onların bir qrupu bəyanat yayaraq Azərbaycandan Laçın dəhlizinin açılmasını tələb edib. Bu “nemeslərin” fikirlərini ifadə edən isə Bundestaqın İnsan Haqları Komissiyasının sədri Renata Alt idi. O, Almaniya hökumətinin Cənubi Qafqaz, Moldova və Mərkəzi Asiya ilə cəmiyyətlərarası əməkdaşlıq üzrə koordinatoru, Bundestaqın deputatı, Bundestaqın ATƏT-in Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Robin Vaqener, Bundestaqın deputatı, Xarici Əlaqələr Komitəsinin üzvü Merle Şpelerberq və başqaları daş atıb başlarını tutdular ki, bəs insan həyatı geosiyasi faktor ola bilməz. Əslində, bu fikir son dərəcə yerindədir. Bəli, insan həyatının geosiyasi amilə çevrilməsi yolverilməzdir. Ancaq indiki durumda bunu edən Ermənistan hakimiyyətidir.

İnsanların həyatları üzərində oyun quranlar, eyni zamanda, Ermənistanın havadarları, ölkəyə dəstək olan qütblər, həmçinin bu vaqnerlər, renata altlar, robin vaqnerlərdir. Onlar rəsmi İrəvanla birləşib Qarabağın erməni əhalisinin durumunu ağırlaşdırmaq yolu tutublar. Bu qəddarlar hazırda dünya erməniliyinin, ekstremist erməni millətçiliyinin “Azərbaycanın hakimiyyəti altında olmayan Qarabağ”, bu alınmadıqda isə “ermənilərsiz Qarabağ” formulunu gerçəkləşdirməyə çalışırlar.

Birinci halda Qarabağda separatçılıq saxlanılır, ikinci halda isə erməni avantürizmi niskilə çevrilir. Bu gün baş verənlər, o cümlədən Ermənistanın Azərbaycanla şərti sərhəddə, Həkəri körpüsü üzərindəki buraxılış məntəqəsi zonasında düzənlənmiş “tır şousu” birinci planın tərkib hissəsidir, bu istiqamətdəki müqavimətin son akkordlarıdır. Amma diqqət edək ki, ikinci “plan” da anonsu indidən verilməkdədir. Söhbət Azərbaycanı Qarabağda etnik təmizləmə aparmaqda, soyqırımı törətməkdə günahlandırmaqdan gedir.

Dediyimiz kimi, birinci “plan” alınmasa, ikinciyə keçiləcək. Erməni millətçiliyi bu işdə “peşəkardır”. Vaxtilə xalqlar arasında ədavəti qızışdırmaq üçün Sumqayıt ermənilərini qətlə yetirənlərin nəsillərinin indi eyni əməlləri Qarabağda reallaşdırmaq istəyəcəklərinə şübhə yoxdur. Bu azğınlar belə qəddarlıq edib Azərbaycanı ittiham edəcək təbiətdədirlər. 44 günlük müharibənin sonlarına yaxın da oxşar qeyri-insani davranışı gerçəkləşdirmək fikrinə düşmüşdülər. Xankəndidə və digər ərazilərdəki sıravi erməniləri qırmaq, Azərbaycanı soyqırımında günahlandırmaq istəmişdilər. Bu mənfur ssenarini reallaşdırmaq üçün bölgəyə xaricdən jurnalist ordusu da gətirmişdilər. Media təmsilçiləri “soyqırımı barədə” dünyaya məlumat ötürməli, hadisə yerindən canlı yayımlar etməli idi.

İndi də Azərbaycana ittiham üzərində irəli sürülən soyqırımı, etnik təmizləmə kimi fikirlər, əslində, Bakının şantaj etməkdən başqa bir şey deyil. Demək istəyirlər ki, sadə erməni əhalini məhv edib günahı Azərbaycanın üstünə atmaq “potensialındadırlar”. Qarabağdakı erməni silahlıları ona görə ərazini tərk etməyiblər. Aydındır ki, onlar Azərbaycanla döyüşəcək gücdə deyillər. Gücləri yalnız əliyalın insanlara çatar.

Bəli, belə görünür, buriçlər, vaqenerlər, renata altlar, robin vaqnerlər və digərləri məhz buna görə çalışırlar. Ermənistan hakimiyyəti belələrinin sırasını geniş tutmağa can atır. Mövcud istiqamətdə müəyyən şəxslərin dilindən saxta bəyanatlar səsləndirilir, interpretasiyalara yol verilir. Birincisi, heç bir halda Laçın yolu açılmayacaqdır. Həm də ona görə ki, dəhliz məntiqi qəbuledilməzdir. Ermənistan bununla bağlı Beynəlxalq Ədalət Məhkəməsinin qərarına istinad edirsə, nəzərə almalıyıq ki, həmin məhkəmə bir müddət əvvəl Ermənistanın Həkəri körpüsündə sərhəd nəzarət-buraxılış məntəqəsinin ləğvi ilə bağlı iddiasını rədd edib. Belə olan halda dəhliz məntiqinin heç bir əhəmiyyəti qalmır. Rəsmi İrəvan, eləcə də digər ermənipərəstlər hay-küy qaldırarkən, mövcud məqamı da nəzərə almalıdırlar.

İkincisi, Azərbaycan çeşidli təzyiqlər qarşısında özünün haqlı mövqeyindən geri çəkilən deyil. Əgər Qarabağda humanitar böhran və ya humanitar fəlakət yaşanırsa, ölkəmiz bu durumun aradan qaldırılmasına kömək göstərməyə hazırdır. Yəni Qarabağ ermənilərinin nicatı “Laçın dəhlizi”ndə yox, Ağdam-Əsgəran yolundadır.

*Ə.CAHANGİROĞLU,*
*“Xalq qəzeti”*

# BQXK-nın Xankəndi ofisi bu qurumun adına üzqaralığı gətirdi

## Onlar öz prinsipləri ilə deyil, “İrəvanın diktəsi” ilə fəaliyyət göstərdilər

**Fikrimizcə, söhbətin nədən, hansı üzqaralığından getdiyini hamı bilir və ona görə də hansısa girişə ehtiyac duymadan, birbaşa bu beynəlxalq təşkilatın Cənubi Qafqazdakı fəaliyyətinin tarixçəsinə müraciət etmək istədik. BQXK-nın Bakı Nümayəndəliyi 1992-ci il martın 3-dən fəaliyyət göstərir. Həmin tarixdən iki həftə sonra Ağdam və Bərdə rayonlarında da komitənin ofisləri açılmışdır. Bu beynəlxalq qurumun əsas məqsədi münaqişə qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsidir. Dünyanın əksər yerlərində bu funksiyanı məhz komitənin təməl prinsipləri çərçivəsində yerinə yetiriblər. Elə Azərbaycanda da həmçinin. Ancaq...**

Onu da əlavə edək ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi öz humanitar fəaliyyətinə görə üç dəfə Nobel sülh mükafatına layiq görülmüşdür. Eləcə də, 1949-cu il Cenevrə konvensiyalarını, onun 1977-ci il və 2005-ci il Əlavə protokollarının iştirakçısı olan, yəni bu sənədləri imzalayan dövlətlər BQXK-ya beynəlxalq və daxili silahlı münaqişələrin qurbanlarını qorumaq üçün mandat vermişlər. Belə qurbanlar arasında müharibə yaralıları, əsirlər, qaçqınlar, mülki şəxslər və digər qeyri-döyüşçülər var.

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşündə də bu beynəlxalq qurumun həm dünyada, həm də Cənubi Qafqazdakı fəaliyyətinə qiymət verilmişdir. Deməli, onlar bizdən, biz də onlardan heç bir məsələdə narazı deyildik. Ancaq Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəsindən sonra vəziyyət xeyli dəyişdi. Daha doğrusu, müharibədən sonra Xankəndi şəhərində ofis yaradılması zamanı BQXK rəhbərliyi öz təməl prinsiplərinə deyil, beynəlxalq aləmdəki ikili standartlara istinad eləmişdi. Yəni, Xankəndi ofisi Bakıdakı nümayəndəliyin deyil, İrəvandakı nümayəndəliyin tabeliyində yaradıldı... və bununla da BQXK-nın “tərcümeyi-halı”na qara səhifələr yazılmağa başladı.

Bu qurumun Xankəndi ofisi gah korrupsiya və rüşvətxorluqda ittiham edildi, gah qaçaqmalçılıqda. Biz bu ittihamlar barədə mətbuatda çox oxumuşuq. Ancaq Xankəndi ofisi azərbaycanlılara qarşı soyqırımı törətmiş şəxsin (bəlkə də,



şəxslərin) istintaqdan yayınmasını təşkil etməklə məhz “oğruluq üstündə yaxalandı” və mötəbər beynəlxalq təşkilatın adına, sözün həqiqi mənasında, üzqaralığı gətirdi.

BQXK-nin Cenevrə Baş İdarəsinə üzqaralığı gətirən fakt – Meşəli faciəsini törədənlərdən birinin – Vaqif Xaçaturyanın həbsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatına münasibət bildirən Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında oxuyuruq: “Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən verilmiş məlumatda da qeyd edildiyi kimi, Vaqif Xaçatryan bir qrup erməni hərbi birləşmələrinin tərkibində 1991-ci ilin 22 dekabr tarixində Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı kütləvi qırğın törədib. Qırğın zamanı, 25 nəfər azərbaycanlı öldürülüb, 14 nəfər yaralanıb, 358 nəfər azərbaycanlı isə didərgin salınıb”.

Yəni bu adam hərbi cinayətkardır və onun ölkədən qaçmasını, istintaqdan yayınmasını da hərbi cinayətin ortaqlığı kimi qəbul etmək lazımdır. Mən hüquqşünas olmadığıma görə bu faktın detallarını incələmək istəmirəm. Ancaq onu bilirəm ki, bugünkü Avropa ölkələrinin heç birində hərbi cinayətlər törədilməsində iştirak etmiş canilərin tribunaldan gizlədilməsinə imkan verilmir. Bəli, Avropada belə fakt olmur, ancaq ermənilər bunu təşkil etdilər və beynəlxalq təşkilatı rəzil duruma saldılar.

Bundan başqa, ermənilərin səs-küyü bütün dünyanı başına götürüb ki, İrəvan – Xankəndi yolu bağlanıb və ermənilər orada acından əziyyət çəkirlər. Əvvəla, Azərbaycan Xarici İşlər Nazirliyinin adı çəkilən məlumatında qeyd edildiyi kimi, Ermənistan rəhbərliyi həm Vaqif Xaçaturyanın saxlanılmasını şərh edərkən, həm də yolun bağlanması iddiasını dilə gətirərkən ağ yalandan başqa heç nə deyə bilmir. Bildirilir ki, hərbi cinayətlər törətmiş adamın saxlanılması üçün Azərbaycan tərəfindən atılan bütün addımlar beynəlxalq hüquq və Azərbaycan qanunvericiliyi çərçivəsində həyata keçirilib.

O ki qaldı, yolun bağlanmasına, “BQXK tərəfindən də təsdiq edildiyi kimi, ötən ilin dekabr ayından etibarən BQXK vasitəçiliyi ilə 700-ə yaxın erməni əsilli şəxsin müalicə məqsədi ilə Azərbaycan ərazisindən Ermənistana aparılmasına və geri gətirilməsinə şərait yaradılıb və onlara qarşı heç bir qanunsuz hərəkət tətbiq edilməyib. Bununla əlaqədar, sərhəd-buraxılış məntəqəsindən keçən şəxslərə təhdid olduğu barədə Ermənistan XİN-in iddiası tamamilə yalandır və bu yalnız erməni sakinlər arasında təşviş yaratmaq məqsədi daşıyır”. Qoy hansı səviyyədə olursa-olsun, təki təşviş yaratsınlar. Ancaq unutmasınlar ki, Xaçaturyanın həbsi xalqımıza qarşı cinayət törətmiş bütün qatillərin ədalətli cəza alacağı proseslərin üverturasıdır. Canilərin hamısı Azərbaycan məhkəməsinin qarşısına çıxarılacaqlar.

Yeri gəlmişkən, BQXK-nin Xankəndi ofisi Avropa İttifaqını da Azərbaycanın yanında diliqısa elədi. Belə ki, Avropa İttifaqı bu il iyulun 14-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə dəstəyini ifadə etmiş və Azərbaycanı Laçın yolu boyunca sərbəst hərəkəti təmin etməyə çağırmışdı. Aİ-nin məlumatında deyilirdi ki, Avropa İttifaqı Cənubi Qafqazda mövcud olan yeganə böyük humanitar təşkilat kimi Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyətini güclü şəkildə dəstəkləyir. Xatırladaq ki, iyulun 11-də Azərbaycan məhz BQXK-nın Ermənistan nümayəndəliyini qaçaqmalçılıqda ittiham edərək İrəvanla Xankəndini birləşdirən yolu müvəqqəti olaraq bağlayıb. Aİ-nin açıqlamasında bildirilirdi ki, BQXK neytrallıq, müstəqillik və qərəzsizlik kimi humanitar prinsiplərə uyğun olaraq Cənubi Qafqazda ehtiyacı olanlara mühüm humanitar yardımı və müdafiəni təmin edir. Bə nooldu axırı, Avropa İttifaqı? Sizin dəstəklədiyiniz qurum hərbi cinayətkarı istintaqdan gizlədir. Budurmu humanitar prinsiplər? Vaqif Xaçaturyanın qətlə yetirdiyi insanların yaşamaq hüququ yox idimi?

Avropa İttifaqı bəyan edirdi ki, Qırmızı Xaçın Laçın dəhlizində fəaliyyəti sırf Qarabağın erməni əhalisinin təcili ehtiyaclarının ödənilməsinə və çox ehtiyac duyulan humanitar yardımın göstərilməsinə yönəlib. BQXK-nın fəaliyyətini davam etdirə bilməsini və potensial humanitar böhranın qarşısını almaq üçün məsuliyyət Azərbaycan hökumətinin üzərinə düşür.” Bəs bir milyon insanı qaçqın-köçkün həyatı yaşamağa məcbur etmiş, hər iki tərəfdən on minlərlə insanın ölümünə səbəb olmuş, onlarca şəhəri, yüzlərlə kəndi viranəyə çevirmiş vəhşiliklərin qarşısını almağın və ya almamağın məsuliyyəti kimin üstünə düşür?

Bir daha qayıdaq BQXK-nın Xankəndi ofisinin yaradılmasına. Ekspertlər yazırlar ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakının icazəsi olmadan Xankəndidə ofis açması Azərbaycanın ərazi bütövlüyünə aşkar hörmətsizlikdir. Başlanğıcdan BQXK belə bir hüquqa malik deyil. Bu, beynəlxalq hüquqla, beynəlxalq təşkilatın fəaliyyət prinsipləri ilə ziddiyyət təşkil edir”.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşir mətbuata müsahibəsində deyib ki, birmənalı olaraq, Xankəndidə – Azərbaycanın ərazisində fəaliyyət göstərən istənilən ofislər, rəsmi Bakıya, yaxud BQXK-nın Bakıdakı nümayəndəliyinə tabe etdirilməlidir. Bu, heç müzakirə predmeti belə deyil, bu haqda qərarı təxirə salmadan müvafiq instansiyaların özü, ən başlıcası isə Beynəlxalq Qırmızı Xaç Komitəsi verməlidir.

Milli Məclisin deputatı Asim Mollazadə isə Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrində müxtəlif növ qaçaq malın keçirilməsi cəhdlərini şərh edərkən deyib ki, bir sıra ölkələr tərəfindən beynəlxalq təşkilatların korrupsiya, qaçaqmalçılıq əməlləri dəfələrlə açılıb: “Bu kimi hallar təəssüf doğurur. Bu, Beynəlxalq Qırmızı Xaç Komitəsinə ləkədir. Qaçaqmal kimi silah-sursat keçirilməsi istisna edilmir. Təşkilatın mərkəzi ofisində ciddi araşdırma aparılmalıdır. O cümlədən beynəlxalq ictimaiyyətə bu hadisə ilə bağlı məlumat verilməlidir, Azərbaycandan üzr istənilməlidir”.

Bax belə. Erməni şərəfsizliyi, hay fitnəkarlığı dünyanın ən məşhur beynəlxalq təşkilatlarından birini aləmin gözü qarşısında rəzil elədi.

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*

**Köşə yazısı**

# İki qəhər

*Rafael HÜSEYNOV,*
*Milli Məclisin deputatı, akademik*

**Günləri adilikdən çıxaran, məzmunla dolduran hadisələrdir. İyulun 29-u təqvimdə sıradan olan bir gün idi. Ancaq 2023-cü ilin 29 iyulunun xəbərlərindən ikisi qəhərləndirdi, yaddaşa ən əvvəl iki təsirli hadisəsi ilə köçdü.**

Biri itki acısının gətirdiyi qəhər idi, digəri haqqın öz yerini tapmasının, hər zaman umulan həmin haqqa yol açan Zəfərin bəxş etdiyi qürurdan doğan qəhər.



Xəbərlər ayrı-ayrı adamlar haqqında idi, hadisələr bir-birindən çox aralı məkanlarda baş vermişdi. Ancaq mahiyyəti ilə tam fərqli olan bu iki hadisənin hər halda bir kəsişmə nöqtəsi də vardı.

İllər öncə mən Respublika Hərbi Prokurorluğunda Soyqırımı muzeyini yaradarkən onların arxivində saxlanan neçə-neçə cinayət işini araşdırası oldum. Bunlar Qarabağda erməni cəlladlarının xalqımıza qarşı törətdiyi sıra-sıra qanlı cinayətlər haqda tükürpədən ifadələrlə dolu qəmli sənədlər idi. Şahid ifadələri, səs və lent yazıları, müxtəlif sübutedici əşyayi-dəlillər...

Həmin müddətsiz cinayətlərə görə məsuliyyət daşıyanlar, o insanlığazidd əzazil əməlləri törədənlərin əksəri haradasa azadlıqda gəzirdilər, amma istintaqlar aparılmışdı, sübutlar-dəlillər toplanmışdı, baislər dəqiqləşdirilmişdi. Bir çoxunun qiyabi məhkəməsi də keçirilərək cəzası da müəyyənləşdirilmişdi, canilər də beynəlxalq axtarışa verilmişdi.

Mən həmin sənədləri qəlb ağrısı ilə vərəqlədiyim günlərdə hələ BÖYÜK ZƏFƏRimiz çox uzaqdaydı. Hərdən düşünürdüm, İlahi, o günü görmək qismətimizdə varmı ki, bu faciələrin müəlliflərinin haqq divanına çəkilməsinə şahid olaq?

Bu gün Laçında sərhəd-keçid məntəqəsində (bu dördcə kəlmə – LAÇIN SƏRHƏD-KEÇİD MƏNTƏQƏSİ ifadəsi mənimçün dünyanın indiyədək yazılmış şeirlərinin ən gözəl misrasıdır! Və bu MİSRA da BÖYÜK ZƏFƏRimizin daha bir bəhrəsidir) Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə (burası da gözəldir ki, hadisə beynəlxalq müşahidənin iştirakı ilə baş verir) müalicə almaq pərdəsi altında Ermənistana ötürülən, əllərindəki meşəli, Xocalı qanı heç vaxt getməyəcək cəllad V.Xaçatryanın məhz sərhədi keçmək istəyərkən axtarışda olan cinayətkar kimi saxlanılması, nəzarətə götürülməsi xəbəri məni riqqətə gətirdi. Ürəyimdə "Böyüklüyünə şükür, Xudaya!" dedim.

Vaxtilə Respublika Hərbi Prokurorluğunda qovluqları vərəqləyəndə, videolara baxanda, səs yazılmış kasetləri ard-arda dinləyəndə, ermənilərin Qarabağda, o sıradan elə Xocalıda, həmin Meşəlidə ki, indi tutulan idbar da orada amansız qətllər törədib, istər-istəməz kövrəldiyim anlar az olmamışdı.

Çünki o danışılanlara, sənədlərin nəzərdə canlandırdığı müsibət mənzərələrinə insan olan kəsin dözməsi çətin idi. Məsum insanlarımıza, körpəcə uşaqlara indi Laçında saxlanılan cani kimi qanaheris quldurlar cəhənnəmi bu dünyada yaşatmışdılar.

O vaxt Hərbi Prokurorluğun arxivində boğazımı yandıran qəhər bütün bunları bilə-bilə heç nə edə bilməmək zəifliyinin ucbatından idi.

Bu gün bir qatilin cinayəti törətməsinin üstündən 30 ildən də çox ötəndən sonra saxlanması artıq Haqqın təntənəsinin, Zəfərimizin səngiməz dalğasının yaratdığı iftixarın, bütün ruhumu saran məmnunluğun Qəhəridir!

Bu gün Allahın "Mən Varam!" deyərək Böyük Ədalətini və Əbədi Varlığını sübut etdiyi daha bir qutsal gündür. Və belə əziz günlər Millət Təqvimimizdə hələ çox olacaq!

Söz yox, ermənilər və ermənicilik əsillərinə-köklərinə xas qaraçılıqla haray-həşir də salacaqlar, "məsum" V.Xaçatryana azadlıq da istəyəcəklər. Buna səbəb həmin saxlanmanın yaratdığı vahimə olacaq. Xocalı qatillərindən olan bu ünsürün həbsi ilə Qarabağ müharibəsinin hələ gəbərməmiş bir çox canilərinin canına həmin aqibətin onları da haqlayacağının vicvicəsi daraşıb.

...Bu gün məni yandıran, istər-istəməz qəhərləndirən isə bir əziz insanın itkisidir. Azərbaycanı da, azərbaycanlıları da sevmiş, qələmi və təmiz vicdanı ilə həqiqətə, düzlüyə, ədalətə, insafa-mürvətə xidmət etmiş, tarixin çətin dönəmlərində ən mötəbər söz dayaqlarımızdan birinə çevrilmiş amerikalı yazar Tomas Qoltsu (Thomas Goltz) itirdik. O, ayrı bir dinə tapınan insan idi. Ancaq haqqitirməz millətiksə, gərək bu gün Azərbaycan məscidlərində onun da ruhuna dualar oxuna!

Dar ayaqda təmiz vicdanının hökmü ilə okeanın o tayından bizə qahmar çıxan, yüz cür tənə və təzyiqlərə baxmayaraq inadlı ardıcıllıqla illərcə haqqı müdafiə etməklə Azərbaycanın şərəfini qoruyan bir insan elə bu millətin yavrularından biri deyilmi?!

Azərbaycanlı olmaq üçün dünyaya azərbaycanlı kimi gəlmək azdır, bu adı daşımağın yüksək şərəfinə layiq olmaq üçün gərək bu yurd və xalq üçün fədakar əməklərin də ola.

Azərbaycanlı Tomas Qolts belə minnətdarlıqla anılmalı saleh əməllərin sahibi idi.

Dünya susanda, Amerikada, Avropada gerçəkləri bildikləri halda bir para siyasət, dövlət və qələm adamları qırmızı-qırmızı ağa "qara" deməkdən həya etməyəndə Tomas Qolts Xocalı soyqırımının digər qətliamların sədasını dünyaya çatdırırdı, mərd-mərdanə o çağlarda bizim edə bilmədiyimizi edirdi. Avropa Şurası tribunasından illərcə Xocalı həqiqətlərini səsləndirəndə, bu haqda sənədlər hazırlayanda Tomas Qoltsun məşhur kitabı və yazıları sözümüzə söykək olan, fikirlərimizin etibarlılıq və keçərliliyini artıran istinad nöqtələrindən idi.

Onunla tanışlığım 1990-cı illərdən, mənim də "Amerikanın səsi" radiosunun müxbiri olduğum, burada – Bakıda, Prezident sarayında və iqamətgahında keçirilən mətbuat konfranslarından başlanmışdı. İndi, əbədi ayrılıq anlarında yaddaşda neçə görüşün unudulmaz xatirələri sayrışır... Və onun əziz adı millətimin, yurdumun ən sadiq dostlarından biri kimi həmişə qəlbimdə yaşayacaq.

Biz dünya boyunca sayı çox olmayan (durmadan artmaq o sayı!) bu cür qiymətli dostlarımızın qədrini bilməliyik. Sağ ikən də, dünyadan gedəndən sonra da!

Bunca yeridolmaz itkiyə necə yanmayasan, necə qəhərlənməyəsən?!

...Ömrün bu günü yaddaşımda həm də bu iki qəhərlə qalacaq.

Vətənimizin və millətimizin etibarlı dostlarının itkisinin gətirdiyi qəhər bizdən həmişə uzaq olsun!

Haqqın, ədalətin, İlahi İradənin təntənəsinin bağışladığı ən böyük sevinclərə bərabər olan qəhərisə hər bir vətəndaşımıza arzulayıram!

Azərbaycan yaşasın!

# "UZAZ-2023" təlimi başlayıb

**"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış 2023-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən "UZAZ-2023" kompüter dəstəkli taktiki komanda-qərargah təlimi başlayıb.**



Daşkənd vilayətinin Çirçik poliqonunda keçirilən birgə təlimin birinci mərhələsində Azərbaycan və Özbəkistan hərbi qulluqçuları xüsusi döyüş fəaliyyətlərinin təşkili və planlaşdırılması üzrə tapşırıqları kompüter və xəritə üzərində icra ediblər.

Təlimin əsas məqsədi qarşılıqlı təcrübə mübadiləsinin aparılması, hər iki dövlətin hərbi qulluqçularının qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, həmçinin qərargah zabitlərinin xəritə üzərində qərar qəbuletmə bacarıqlarının artırılması, onların peşəkarlıq və hazırlıq səviyyəsinin daha da yüksəldilməsidir.

## Ermənistan Azərbaycana qarşı nifrət və dözümsüzlük siyasətini davam etdirir

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistanın ölkəmizə qarşı nifrət və dözümsüzlük siyasətinə münasibət bildirib.**

Ombudsmanın məsələ ilə bağlı açıqlamasında deyilir: "Son günlər sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən azərbaycanlılara qarşı nifrət dolu təhqirləri əks etdirən mesajlar bir daha onu göstərir ki, Ermənistanın siyasi rəhbərliyi Azərbaycana qarşı nifrət və dözümsüzlük siyasətini davam etdirməkdədir.

Əvvəlki bəyanatlarımızda da qeyd etdiyimiz kimi, Qarabağda yaşayan erməni əsilli vətəndaşların hüquqlarının təmin edilməsi məsələsi Azərbaycan dövlətinin yurisdiksiyasındadır.

Ermənistan ombudsmanının bu məsələ ilə bağlı əsassız iddiaları tamamilə yersizdir və başqa ölkənin suverenliyinə müdaxilədir.

Bütün bunlara baxmayaraq, Ermənistan siyasi rəhbərliyinin dəstəyi ilə mətbuatda hadisələrin qərəzli şəkildə şişirdilməsi, insanlar arasında nifaq salınması regionda dayanıqlı sülh prosesinə mane olur və eyni zamanda, mövcud vəziyyətin daha da gərginləşməsinə xidmət edir".

*"Xalq qəzeti"*

## Serbiya ölkəmizin enerji resurslarına ümidlə baxır

**Serbiyanın "RTS" radio-televiziya kanalında Azərbaycanın enerji resurslarının bu ölkəyə mümkün idxalının əhəmiyyətindən bəhs edən reportaj yayımlanıb.**



Reportajda zəngin enerji ehtiyatlarına malik Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlığın mövcud olduğu bildirilir. Qeyd olunur ki, iki ölkə arasında bu vaxtadək 40-dan çox beynəlxalq müqavilə imzalanıb. 2021-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 56 milyon ABŞ dolları təşkil edib. Serbiya ilə Azərbaycan yol infrastrukturu sahəsində intensiv əməkdaşlıq həyata keçirir.

Videosüjetdə azərbaycanlı ekspertlərin fikirlərinə də yer verilib. Vurğulanıb ki, Azərbaycanın zəngin potensiala malik olduğu sahələrdən biri də "yaşıl enerji"dir. Artıq Macarıstan, Rumıniya kimi bir çox Avropa ölkəsi Azərbaycan ilə "yaşıl enerji"nin istehsalı və nəqlinə dair əməkdaşlıq edir. Serbiya Azərbaycanın təbii qaz və elektrik enerjisi ilə bağlı böyük potensiala malik olduğunu görür və gələcəkdə bu resurslara ümid bəsləyir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev kanalın jurnalisti ilə söhbətində bildirib ki, ölkələrimiz artıq keçid dövrünü geridə qoyub. Serbiya keçmiş Yuqoslaviyanın tərkibində özəl sektorda daha çoxşaxəli iqtisadi infrastruktura malik ölkə olub.

Reportajda, həmçinin Serbiya ilə Azərbaycan arasında turizm sahəsində əməkdaşlığın perspektivləri də qeyd olunub.

*"Xalq qəzeti"*

# Baş qatildən baş prokurora təxribatçı sorğu

## *Qətliam müəllifi Azərbaycanı indi də soyqırımında suçlayır...*

**Qarabağ separatçılarının lideri Arayik Arutyunyan Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokuroru Luis Moreno Ocampoya açıq məktub ünvanlayıb. Yalan və riyakarlıq üzərində qurulan məktubda Qarabağ ermənilərinin blokadada qalması ilə bağlı cəfəng fikirlər səsləndirilir, mövcud olmayan "humanitar fəlakət"dən bəhs olunur. İşin ən gülməli tərəfi isə Arayikin "mövcud blokadanı" "soyqırımı" kimi qiymətləndirməyin mümkün olub-olmaması ilə bağlı ünvanladığı sualdır. Baş separatçı Luis Moreno Ocampodan soruşur: "2022-ci il dekabrın 12-dən xalqımızın Azərbaycan tərəfindən blokadaya alınması, xüsusən də 2023-cü il iyunun 15-dən Dağlıq Qarabağa bütün növ humanitar yardımların çatdırılmasının qarşısının alınması soyqırımı cinayəti sayıla bilərmi?" Növbəti sətirlərdə Arayik Azərbaycan rəhbərliyini bilavasitə hədəfə çevirmək məqsədilə daha bir dəqiqləşdirməyə ehtiyac duyur: "Bu cinayətə görə şəxsən kim məsuliyyət daşıya bilər?" Göründüyü kimi, Arayik sabiq baş prokurordan sadəcə nəsə soruşmur, daha çox sual şəklində ifadə etdiyi "əminliyi" təsdiq etdirməyə çalışır.**




### Hərbi cinayətkar avam kəndli rolunda

Qeyd etdiyimiz kimi, Arayikin məlum məktubunda ikrah və təbəssüm doğuran ən mühüm məqamlardan biri siyasi oyunbaz və hərbi cinayətkar olan baş qatilin avam kəndli obrazına girərək keçmiş baş prokurora istiqamətverici suallar ünvanlamasıdır. Məktubda özünü hüquqi baxımdan məlumatsız, siyasi baxımdan səbatsız kimi təqdim edən Arayik küt bir sadəlövhlüklə blokadanı soyqırımı kimi təqdim etməyin mümkünlüyünü soruşur, daha doğrusu, yanlış məlumat və təqdimatla onu bu sualı təsdiq etməyə sövq edir. Maraqlıdır ki, Azərbaycan xalqına qarşı ağır hərbi cinayətlər, soyqırımları törədən, bu səbəbdən də İnterpol xətti ilə axtarışda olan Arayik heç bir fakt və sübut təqdim etmədən Azərbaycanın özünü soyqırımında ittiham edir. Bunun üçün isə beynəlxalq aləmdə nüfuz sahibi olan sanballı bir şəxsin sözünə istinad etməyə ehtiyac duyur. Baş separatçı beynəlxalq birliyi Azərbaycana qarşı qaldırmaq, onu siyasi şantaj və hədə-qorxuya məruz qoymağa cəhd edir. Təbii ki, Arayikin məqsədi bu yolla erməni separatizmini Qarabağdakı cinayətlərini pərdələmək, eləcə də Azərbaycanı beynəlxalq miqyaslı hücuma məruz qoymaqla özünümüdafiəyə keçməyə məcbur etməkdir. Görünür, Arayik və əlaltıları həsab edirlər ki, separatçıların düşdüyü indiki ümidsiz vəziyyətdə yalan və şantaj onların yeganə xilası ola bilər. Məhz buna görə də Arayik ermənilərin ənənəvi silahı olan yalandan bu dəfə də faydalanmağa, öz məkirli niyyətlərinə yalan vasitəsilə nail olmağa cəhd edir.

### Arayik imdad dilədiyi şəxsi də aldadır

Arayikin məktubunda diqqətçəkən məqamlardan biri də baş separatçının imdad dilədiyi Luis Moreno Ocamponu da aldatması, ona yalan informasiya verməsidir. Belə ki, Arayik elə ilk sətirdən Ocamponu, onun timsalında bütün beynəlxalq ictimaiyyəti aldadır, onları blokada yalanına inandırmağa çalışır. Arayik Luis Morenonu inandırmağa çalışır ki, guya, bu il iyulun 15-dən Xankəndi və ətraf ərazilərdəki ermənilər kənar aləmdən tam təcrid olunub, ölümə məhkum edilib.

Halbuki, Qarabağ ermənilərinin heç vaxt hər hansı blokadaya məruz qalmadığı, Azərbaycanın Qarabağ ermənilərinin Ermənistana sərbəst gediş-gəlişini təşkil etdiyi kimsəyə sirr deyil. Xankəndi ermənilərinin sosial mediada paylaşdığı foto və videolardan da Qarabağ ermənilərinin firavan dolu həyatı özünü aydın şəkildə əks etdirir. Belə olan halda Arayikin ermənilərə məxsus həyasızlıqla inkarçı mövqedə dayanması və dünyanı "blokada" yalanına inandırmağa çalışması baş separatçının hədsiz riyakarlığından xəbər verir.

### Beynəlxalq qanun və konvensiyalar nə deyir?

"Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" 9 dekabr 1948-ci il tarixdə BMT tərəfindən qəbul edilən Konvensiya bu gün də beynəlxalq münasibətlər sistemində əsas meyar hesab edilir. Konvensiyaya əsasən, aşağıdakı cinayətlər "soyqırımı" əməli hesab edilir.

a) bu cür qrup üzvlərinin öldürülməsi; b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi; c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması; d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi; e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

Azərbaycanın istər Ermənistan, istərsə də Qarabağ ermənilərinə münasibətdə bu beş halın heç biri müşahidə edilməyib. Əksinə, Azərbaycan dövləti Qarabağ ermənilərinin sosial rifahının yaxşılaşması, onların separatçılardan müdafiəsi, zəruri ərzaq məhsulları, tibbi təchizat və s. ilə etibarlı şəkildə təmin edilməsi üçün bütün imkan və vasitələrdən istifadə edib. 1948-ci il Konvensiyasında "soyqırımı" hesab edilən cinayətlərin hamısı həm Birinci Qarabağ müharibəsi, həm də Vətən müharibəsi dönəmində Azərbaycan xalqına qarşı törədilib ki, bu cinayətin müəlliflərindən biri də Arayik Arutyunyandır. Bundan başqa, ermənilər Ağdam-Xankəndi yolundan istifadəni qəti rədd edir ki, bu da həm rəsmi İrəvanın, həm də Qarabağdakı separatçıların "blokada" görüntüsü yaratmaqda maraqlı olduğunu göstərir. Brüsseldə əldə edilən razılaşmaya əsasən ermənilərin Ağdam-Xankəndi yolundan istifadə etmək istəməməsi onu deməyə əsas verir ki, Xankəndi və İrəvan "blokada" yalanını davam etdirməkdə israrlıdırlar. Onların bu yalandan umacaqları yaşadıqları həqiqətdən daha çoxdur. Ancaq erməni separatizmi bilməlidir ki, bu cür siyasi şantajlarla Azərbaycan dövlətinin iradəsinə təsir etmək mümkün deyil. Azərbaycan bölgədə separatizmin sonuncu müqavimət ocağını söndürməkdə qərarlıdır və bunun üçün bütün imkanlarından cəsarətlə istifadə edəcək.

*Seymur ƏLİYEV*

**P.S.** Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokuroru Luis Moreno Ocampo da Arutyunyana cavab məktubu göndərib. Prokuror bildirib ki, o, faktları və qanunları təhlil edərək geniş hesabat hazırlayacaq. Qiymətləndirmə qərəzsiz olacaq.

L.M.Ocampo əlavə edib ki, soyqırımının icrası ilə bağlı düzgün nəticə çıxarmaq üçün Azərbaycan tərəfinin də mövqeyini öyrənib təhlil etməlidir.

# Ulu öndərin ədəbiyyat sevgisi

**Azərbaycan ədəbiyyatının bəxti onda gətirib ki, Ulu Yaradan bir əsrdə iki dəfə həm ölkənin idarəetməsini, həm də milli mədəniyyətimizin inkişafını bu sahəyə ürəkdən bağlı olan Heydər Əliyevə həvalə edib. Bu gün ədəbiyyata dövlət qayğısından danışanda öncə gözlərimiz önündə məhz Ulu öndərin işıqlı obrazı canlanır. Təsadüfi deyil ki, Heydər Əliyev böyük siyasətçi, dövlət adamı olmaqla bərabər, xatirələrimizin ən əziz guşəsində qərar tutub, ədəbi əsərlərimizin baş qəhrəmanı olub.**




Heydər Əliyev obrazı mənim nəzərimdə ədəbiyyata qayğını ifadə edir. Onun ədəbiyyat qarşısındakı xidməti saymaqla bitən deyil. Yazıçılar, şairlər hər zaman Ulu öndərin diqqət mərkəzində, himayəsində idilər. Yubileylər, mükafatlar, qələm sahiblərini karyerist nadanların şərindən, böhtanından qorumaq halları, hər bir istedad sahibinin dəyərini vermək kimi cəhətlər Heydər Əliyevin xarakterində başlıca yer tuturdu. Yazıçı hiss edirdi ki, onun təəssübünü çəkən, arxasında duran var. Bir sıxıntısı, ehtiyacı olan şair və yazıçıların müşkülünü həll edir, onlara maddi, mənəvi dayaq olurdu. Özü də tək ədəbiyyatçılara deyil, bütün sahələrdə çalışan sənətkarlara qarşı diqqətli idi.

Fenomen şəxsiyyət olan Ümummilli lider çıxışlarının birində demişdi: "Ədəbiyyatı o qədər sevirəm ki, ədəbiyyatla, şeirlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur". Görkəmli siyasətçininki adi sevgi deyildi, o, eyni zamanda ədəbiyyatla nəfəs alırdı. Bizi yanına salıb görüşlərə aparırdı. Onunla bürolara gedirdik. Sanki bizimlə olanda özünü daha rahat hiss edirdi, ovqatı təzələnirdi. Unudulmaz dahi şəxsiyyətin yüksək natiqlik qabiliyyəti vardı. Şeiri, dram əsərini duymaq bacarığı onun geniş mütaliəsinin bəhrəsi idi.

Bir dəfə büroda oturmuşduq. Dedi ki, mənə elə gəlir, bizdə Puşkin mövzusunda Mirzə Fətəli Axundovun "Puşkinin ölümünə Şərq poeması" əsərindən başqa əsər yoxdu. Mən dedim ki, var, yoldaş Əliyev, mən Puşkinlə bağlı poema yazmışam o dövrlə bağlı. Gecə saat 1-də Yazıçılar İttifaqının birinci katibi İmran Qasımov mənə zəng eladi ki, bəs, Heydər Əliyev poemanı istəyib. "Zümrüd quşu" idi poemanın adı, səhəri hazırlayıb göndərdim.

Heydər Əliyev hər zaman vaxt tapıb teatr tamaşalarında, premyeralarda iştirak edirdi, sonda böyük həvəslə yaradıcı heyətlə görüşürdü. Tamaşanın bədii məziyyətlərini təqdir edir, hər kəsi yeni uğurlara həvəsləndirirdi. 1982-ci ilin martında Sumqayıt teatrının truppası mənim "Nəriman" poemam əsasında səhnələşdirilmiş "Bütün Şərq bilsin" tamaşasını Akademik Milli Teatrın səhnəsində uğurla oynadı. Baxışdan sonra Ulu öndər düz 40 dəqiqə səhnədə yaradıcı heyətlə söhbət elədi. Nərimanov obrazının bədii əsərlərdə, teatr tamaşalarında belə yüksək səviyyədə yaradılmasının vacibliyini əsaslandırdı. Eyni zamanda, Ulu öndər Sumqayıt aktyorlarının təklifini diqqətlə dinlədi və sonra gənclik şəhərində teatra ayrıca bina tikilməsinə göstəriş verdi.

Orasını da deyim ki, mən hələ Nərimanov haqqında poemanı yazan vaxt müəyyən arxiv materiallarını əldə etməyimə o zaman Dövlət Təhlükəsizlik Komitəsində işləyən Heydər Əliyev böyük köməklik göstərmişdi. Məsələ belə olmuşdu: 1957-ci ildə həmin materiallarla tanış olmaq üçün Azərbaycan DTX-nın sədri, rus generalı Semyon Semiçastnının adına ərizə yazmışdım. Oraya getdim. Məni Heydər Əliyev qarşıladı. Ucaboylu, şaxyerişli, möhkəm bədənli, təbəssümlü, eyni zamanda, da çox ciddi bir insan idi. Əyninə çox yaraşan qara kostyum geyinmişdi. Özü də Azərbaycan dilində danışdı, halbuki o vaxt idarələrdə hamını rus dilində qarşılayır, rusca da yola salırdılar. Narahatlığım ondan idi ki, Nəriman Nərimanova milli təəssübkeşliyinə görə "millətçi" adı qoymuşdular, bu isə sovet dövründə ağır ittiham idi. İllah da ki, bu ad biz türklərə, biz azərbaycanlılara deyiləydi. Bu səbəbdən də Nərimanova aid arxiv materialları gizlədilirdi. Respublikamızdakı dövlət arxivlərinin müdirləri, işçiləri də ki, ermənilər, ruslar, yəhudilər idi. Bir sözlə, nigaran idim ki, mənə icazə verməyəcəklər. Ancaq bəxtimdən qarşıma əsl milli ruhlu bir DTK əməkdaşı çıxmışdı.

İkinci görüşümüzdə Heydər Əliyevin üzündə daha çox nur, gözündə daha çox mehribanlıq gördüm. Məni xeyli istiqanlı qarşıladı, alaqaranlıq dəhlizdən öz işıqlı kabinetinə apardı, oturmağa yer təklif etdi. Nərimanovun arxiv materialları ilə tanış olmaq istəyimi alqışlayan Heydər Əliyev dəyərli tövsiyələrini də əsirgəmədi. Bəlkə də o zaman Müsavatın arxivinə ilk daxil olan şair mən oldum. Əlbəttə, ulu öndərin sayəsində.

Bugündən dünənə baxanda çox aydın görünür ki, Heydər Əliyev hansı çətin mühitdə cəsarət göstərirdi, bizi də cəsarətə səsləyirdi.

...Azərbaycan KP MK-ya, Büro iclasına Yazıçılar İttifaqından da nümayəndələr dəvət olunmuşdu. Mən arada söz alıb "Nəriman" poemasının senzura tərəfindən ixtisar edildiyini dedim. Gördüm ki, narahat oldu. Çıxışı zamanı göstəriş verdi ki, poema necə yazılıbsa, elə də çap edilsin. Mən yerdən razılığımı bildirdim. Ancaq ixtisarlar "qlavlit"də yox edilmişdi. Yadımda qalan misraların bəzilərini bərpa edə bildim.

Ulu öndər elə həssas şəxsiyyət idi ki, hətta bir yazıçını qələmdaşlarının nahaq hücumlarından da qoruyurdu. Onun prinsipi belə idi ki, müəllifin mövqeyi aydındırsa, əsərin dəyəri varsa, müdafiə edirdi. Yeri gəlmişkən, onu da deyim ki, mənim "Bütün Şərq bilsin" əsərim SSRİ üzrə keçirilən pyes müsabiqəsinə təqdim olunmuşdu və 600 pyesdən Moskvada tamaşaya qoyulmaq üçün seçilən 11 əsərin sırasında idi. Pyes 1983-cü ildə Moskvanın Mayakovski adına Akademik Dövlət Dram Teatrında oynanıldı və rus mətbuatı müsbət qiymətləndirdi. Onda fəxr etdim ki, DTK-dakı ilk görüşümüzdəcə ürəyimə girmiş Heydər Əliyevin şəxsində mən Nərimanovun prototipini görürdüm və ona həsr olunmuş əsər Moskva mətbuatında təqdir edilmişdir.

Səhnə təcəssümü tapmış başqa bir əsərim haqqında. Bu, "Atabəylər" mənzum pyesimdir. Ulu öndər Akademik Teatrda "Hamlet" tamaşasının fasiləsi zamanı çay süfrəsi arxasında səmimi söhbət əsnasında dedi ki, "Atabəylər" əsəri hər gün göstərilməlidir. Fərəhlə deyim ki, bu tamaşa dəfələrlə "Azdrama"da oynanılıb və Naxçıvan teatrının repertuarından bu gün də düşməyib. Naxçıvan Muxtar Respublikasının 80 illiyində "Atabəylər" tamaşası göstərildi, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tamaşaya baxdılar. Bu da mənim taleyim idi...

Ulu öndərin sayəsində klassik yazıçılarımız, böyük şəxsiyyətlərimiz bir-bir pyedestallara qalxır, heykəlləşirdilər. Onlar da təzədən minlərə, milyonlara qarışdılar, millətimizin sayı artdı. Hüquqşünas dostum İkram Kərimov danışırdı ki, Xalq rəssamı Cəlal Qaryağdı hönkür-hönkür ağlayırmış ki, Nəriman Nərimanovun abidəsi 10 ildir hazırdır, emalatxanada toz içində qalıb. Heydər Əliyev məsələni bilincə göstəriş verib ki, o heykəli həm Bakının ən görkəmli yerində, həm də Rusiyanın Ulyanovsk şəhərində ucaltsınlar. Elə də olub. Elə klassiklərimizin ilboyu keçirilən yubileyləri, onların əsərlərinin kütləvi nəşri də məhz Ulu öndərin istəyi ilə baş tuturdu.

Elə bir tanınmış yazıçı, şair olmadı ki, Heydər Əliyev onun üzərindən sükutla adlasın. İkinci dəfə hakimiyyətə gələn kimi, 1994-cü ildən başlayaraq M.Füzulinin, Mirzə Cəlilin yubileylərinin keçirilməsi haqqında fərmanlar verdi. 1999-cu ildə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin elmi ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə keçirilməsini təşkil etdi. Klassik abidələrə, sənətkarlarımızın irsinə ona görə xüsusi həssaslıqla yanaşırdı ki, xalqımızın çoxəsrlik, zəngin, tarixi mədəniyyətə malik olduğunu dünyaya çatdırmaq istəyirdi.

Ulu öndərin çox yayılan bir fikri var: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Bunu bizlərə demirdi, başqalarına eşitdirirdi. Amma biz də hər eşitdikcə böyük fəxarət duyuruq. Dövlət dili haqqında fərmanlar imzalamışdı müxtəlif vaxtlarda. Bunun da səbəbi vardı. Rəhbər kimi dərk edirdi ki, xalqın milli varlığını müəyyən edən başlıca amil onun dilidir.

Hüseyn Cavidin nəşini uzaq Sibirdən Vətənə gətirmişdi. Cavidi niyə Bakıda yox, Naxçıvanda dəfn etmək istədi? Mən yanında durmuşdum, kimlərləsə söhbət edəndə dedi: "Elə Naxçıvan yaxşıdı ki, Təbrizdən gələndə onu ziyarət eləyib gələcəklər". Bax, bu dərəcədə dərin düşünürdü Heydər Əliyev.

Ümummilli liderin haqqında xatirələrə dalanda ilk olaraq yadıma onun təyinatı ilə "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifəsinə getməyim düşür. Deməli, gecə saat 1 radələrində Yazıçılar İttifaqının birinci katibi İmran Qasımov evə zəng vurdu ki, Birinci şəxs, yəni, Heydər Əliyev sabah səni qəbul edəcək. Bir məsələdə rəyini bilmək istəyir. – Sənə etimad göstərəcək, - dedi. O vaxt Yazıçılar İttifaqında həm partiya təşkilatının katibi, həm "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri işləyirdim. Ədəbiyyat fondunun direktoru vəzifəsini də katiblik mənə tapşırmışdı.

Səhərisi Heydər Əliyevin qəbulunda oldum. Söhbətimiz çox səmimi keçdi. Heydər Əliyev təklif etdi ki, bəlkə Yazıçılar İttifaqının partiya katibliyində də qalıb işləyəsən? – Ürəyimdə düşünürdüm ki, iki vəzifədə işləmək ağır olar mənə. Yazıçılar İttifaqının mürəkkəb bir yaradıcılıq təşkilatı olduğunu rəhbər özü bilirdi. Odur ki, yalan vəd verə bilməzdim. "Hə" deməkdə çətinlik çəkirdim, "yox" da deyə bilməzdim. Elə bil ürəyimi eşitdi. "Yaxşı, onda get qəzetdə işlə", - dedi. Ardınca mənə qəzet barədə, ədəbi orqanı yaxşılaşdırmaqla bağlı qiymətli tapşırıqlar verdi. Həmin tövsiyələr uzunmüddətli yaradıcılıq proqramım oldu. Belə şeylər heç vaxt unudulmur və təbii ki, zaman-zaman yada düşür. Mənim üçün dəyərli tezislər olan 41 bəndlik həmin tövsiyələri olduğu kimi 10 il əvvəl çap etdirdiyim "Mənim ədəbi taleyim. Zamanla, tarixlə görüş" adlı kitabımda vermişəm. O kitabda içimdən gələn bir faktı da xüsusi vurğulamışam ki, biz əvvəllər Azərbaycanda millətə bu qədər yaxın olan nə siyasi rəhbər, nə də ziyalıları duya bilən, başa düşən, qoruyan "KQB" rəhbəri görmüşdük.

"Ədəbiyyat və incəsənət" qəzeti sürətlə yaxşılaşmağa, necə deyərlər, əl-əl gəzməyə başladı. Tiraji da xeyli artdı. Düz 16 il həmin qəzetə rəhbərlik edərək ulu öndərin etimadını doğrultmağa çalışdım.

Yadıma gəlir, Bərdəyə zona müşavirəsinə getmişdik. Pambıqçı, Sosialist Əməyi Qəhrəmanı Tərlan Musayeva ilə görüşdük. Mən o görüşdən sonra bir şeir yazıb qəzetdə çap etdirdim. Gecə saatlarında bir də gördüm Emin Sabitoğlu zəng eləyir. Dedi o şeiri göndər mənə, rəhbər tapşırıb ki, ona mahnı bəstələyim. Bir neçə gündən sonra Emin o şeirə elə gözəl musiqi bəstələdi ki, mahnı dillərə düşdü. Heydər Əliyev bütün sahələrə, bax, bu cür diqqətli idi. Ümumiyyətlə, Heydər Əliyev düz işin yanında idi, düz adamla dost idi. İşini yaxşı tutan hər adama böyük hörmət göstərirdi. Yazıçılarla, alimlərlə görüşlərində tariximizin elə məqamlarına toxunur, yazılmamış, lakin millət üçün çox vacib olan elə qatlarını qaldırırdı ki, onun genişmiqyaslı mütaliəsinə heyran qalmamaq mümkün olmurdu.

Onunla hər görüşüm indiki kimi yadımdadır. Amma bəzi xatirələrim daha unudulmazdır. 1985-ci ilin avqust ayında Heydər Əliyevlə Moskvada, "Novo-deviçye" qəbiristanlığını ziyarət zamanı görüşəndə ona Zərifə xanıma həsr etdiyim şeiri oxumuşdum. O da əlyazmamı alıb qoltuq cibinə qoymuşdu.

Bizim orada görüşümüz isə tamam təsadüfən olmuşdu. Mən axşamüstü saat 6 radələrində bir dəstə qızılgüllə məzarı ziyarətə getmişdim. Bir saat sonra Ulu öndər də oraya gəldi. Beləcə, biz gözlənilmədən görüşdük. Moskvaya gəlməyimin səbəbini soruşdu. Dedim, Sara (həyat yoldaşım) ağır xəstədir. Moskvada yatır. Xəstəxananın adını da dedim. Dinmədi. Qolundakı saata baxdı. Hiss etdim ki, getməlidir. Beləcə ayrıldıq.

Səhəri gün saat 12 radələrində xəstəxanaya, Saranın yanına gedəndə gördüm ki, məni axtarırlar. Dedilər ki, Heydər Əliyev dünən xəstəxananın baş həkimi, akademik Trapeznikova zəng vurub, xəstənin vəziyyətilə maraqlanıb. Bu kifayət idi... Sara deyirdi, qalxan kimi özüm gedib Heydər Əliyevə minnətdarlıq edəcəyəm. Ona dualar edirdi. O minvalla Sara həkimlərin dediyindən bir il artıq yaşadı...

Bu yaxınlarda Vaqif Poeziya Günləri keçiriləndə bir daha 1982-ci ilin qarlı günündə Şuşada mütəfəkkir şairin əzəmətli məqbərəsinin açılışında iştirakımızı xatırladım. Qışbaşı qar yağırdı. Möhtəşəm tədbir oldu. Heydər Əliyev yazarları yaxşı tanıdığından çıxış üçün söz verəndə heç bir siyahıya baxmırdı. Təbiətdə qış olsa da, Heydər Əliyev və onun ətrafındakı ziyalıların fonunda yaz idi. Hamı sevincək olmuşdu.

Növbəti dəfə cənab Prezident İlham Əliyevlə 30 illik işğaldan azad edilmiş Şuşaya gedəndə, həmin günün xatirələrini onunla bölüşdüm. Dedim ki, o tədbirdə gənc İlham Əliyev, haqq dünyasına qovuşmuş Zərifə xanım da iştirak edirlər. Həmin tarixi gün unudulmazdır. "Xarıbülbül" lirik poemasında belə bir parça var:

**Şeir-sənət axşamıydı,**
**Şeirə hörmət, sözə hörmət axşamıydı,**
**Heydər özü söz verirdi şairlərə,**
**"Sağ ol", "Əhsən", axşamıydı.**
**Şairlərə qoşulmuşdu, şairləşən axşamıydı.**
**Qarın belə yağdığını görməmişdik,**
**Qarda belə sel axını görməmişdik,**
**Qar tökürdü göy yer üstə,**
**Varaq üstə, dodaq üstə, şeir üstə.**
**Kirpik üstə, eynək üstə.**
**Çiçək, çiçək, çiçək üstə.**
**Hava qarala bilmirdi,**
**Qarabağda ağ gecəydi,**
**Allah-Allah, o necəydi?!**
**Şuşa canlı heykəl idi,**
**Qar altında hərəmiz bir qartopuyduq.**
**Qarlı alqışlar altında**
**Molla Pənah şairlərin yaşıdıydı**
**Şuşalılar onda hələ Şuşadaydı...**

Bu gün biz yenə də Şuşadayıq. Həmişəlik qayıtmışıq. Mədəniyyət paytaxtımızda bir-birindən maraqlı, yaddaqalan tədbirlər, görüşlər keçirilir.

Heydər Əliyevin əsrdaşı olan hər bir sənətkarın yaradıcılıq taleyində onun pak ruhu yaşayır. Bu gün fəxr edirik ki, Ulu öndərin şeirə, sənətə yüksək diqqət vermək ənənəsini müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev layiqincə davam etdirir.

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***



# Deyəsən, sarsıdıcı zərbənin məqamı yetişib

## Hayların reallığı qamçılamaq cəhdləri və yaxud Don Kixotun yel dəyirmanı ilə döyüşü

(əvvəli 1-ci səhifədə)

"Əgər həqiqəti deyən yoxdursa, heç kim öz ölkəsinin mövqeyi ilə bağlı baş verənlərə obyektiv yanaşma göstərmirsə, insanlar necə oyansınlar?". Türkiyədə yaşayan erməni bloger, ictimai fəal İşxan Verdiyan sosial şəbəkədə soydaşlarına bu sualı ünvanlayıb. Bu məntiqli sualın müəllifi Nikol Paşinyanı, onun siyasətini amansız tənqid atəşinə tutur, "Azərbaycan torpaqlarında bir dənə də olsun erməni silahlısı qalmamalıdır!"– yazır. Praqmatik erməni bloqerin fikirlərinə diqqət yetirin: "Onun (Paşinyanın – red.) Ermənistandakı siyasəti heç vaxt uğur qazanmayacaq. Azərbaycan isə yaşayacaq, çiçəklənəcək. Füzulidə yeni şəhər salınır. Ermənilərdən qalan xarabalıqlar üzərində o şəhəri sıfırdan ucaltdıqları kadrlar paylaşılıb. Bəzi axmaqlar isə deyirlər ki, bu, piardır. Şəhərləri dirçəltmək piar sayılırsa, həmin şəhərləri dağıtmaq da qara piar idi. Bəs biz hansı təbliğatı apardıq? Heç olmasa indi hamı bunu görəndə susun. Susmağa vicdanınız olsun!"

### "Pir" qələbələrdən başgicəllənmənin fəsadları

İndi "Paşinyanın komandası" ciddi strateji səhvlərə yol verdiyini etiraf edir. Buraxdıqları səhvlərdən ən böyüyü isə Qarabağ problemini "həll edilmiş" saymaqları oldu. Daha dəqiqi, Birinci Qarabağ döyüşlərindəki "pir"qələbələri ilə qürurlanan hay generalları kimi, "sorosçu gənc diplomatlar" da münaqişənin donunun açılacağını, Qərbə inteqrasiyada gündən-günə güclənən neft-qazlı Azərbaycan tərəfindən qətiyyətli zərbəyə məruz qalacaqlarını və müharibədə biabırcasına uduzacaqlarını təsəvvürlərinə belə gətirmirdilər. Bundan savayı, İrəvanın yeni iqtidarı Cənubi Qafqazda əsən fərqli geo-siyasi ruzgarı, neosovet revanşizmini və dünyanın xəritəsinin yenidən cızılmağa başlandığını hiss etmirdilər.

"Pir" qələbələrinin eyforiyasından on illərlə başları ayılmayan generalitet isə Qarabağla bağlı siyasi hakimiyyəti yetərincə arxayın salmışdı. Planetdə tarixi silkələnməni qulaqardına vuran bir ölkənin aqibəti məhz indiki kimi olmalıydı və oldu. Başlanğıcda cəmiyyətin alqışlarla taxta çıxardığı "demokratik hakimiyyət" 2020-ci ilin 10 noyabrından sonra siyasi parçalanma və sosial kollapsla üz-üzə qaldı. Haylar reallığın yaratdığı bu tarixi sınaqdan hələ də çıxıb qurtara bilməyiblər. Çünki Ermənistan deyilən bir dövlət "himayədarın qanadı" olmadan heç vaxt üzləşdiyi çətinliklərə təkbaşına duruş gətirə biməyib.



Ardınca koronavirus aqoniyası, Ukrayna müharibəsinin Avropa evinə sızdırdığı böyük yanğın Ermənistan kimi sınaqdan çıxa bilməmiş, sürüşkən müttəfiqi arxa plana itələdi. Bəs indi bu "atılmış uşağ"ın tərəfində kim vuruşmaq istəyər? Bəlkə sualın bu formada qoyuluşu daha düzgün olar: "Onlar kiminlə vuruşacaq?". Özlərinə strateji müttəfiq saydıqları Azərbaycanla? Yoxsa Şimali Atlantika Hərbi Alyansındakı tərəfdaşları Türkiyə ilə? Hər ikisi və üçüncü də ritorik sualdır: Cənubi Qafqazda ikinci cəbhə Qərbin nəyinə lazımdır?

### Bakı hər şeyi detallarına qədər hesablayıb

Xarici siyasətdə maraqların balanslaşdırılması konsepsiyasını özünə novator diplomat taktikası kimi seçən Azərbaycan Prezidenti İlham Əliyev nəyi nə vaxt edəcəyini hərtərəfli hesablayaraq addım atır. Qəfil və kəskin hərəkətlərə yol verməđən dünyanın bütün aparıcı aktor-oyunçuları ilə möhkəm və qarşılıqlı faydalı münasibətləri səliqə ilə ipə düzən dövlət başçımız Cənubi Qafqazda unikal geo-siyasi və geo-coğrafi situasiyanı yaratmağı bacardı. İndi sınıdırılmış və heydən düşmüş rəqib küncə sıxışdırılmış sıçanın vəziyyətindədir. Qalır ona sarsıdıcı və sonuncu zərbəni endirmək. Amma cənab Prezidentin dediyi kimi, biz məqsədimizə dinc yolla nail olmaq istəyirik.

İntəhası, indiki vəziyyətin ən qəribə tərəfi ondan ibarətdir ki, darmadağın edilmiş, azsaylı ordusu pərən-pərən düşmüş Ermənistan qalib tərəfə öz şərtlərini diktə etməyə özündə "cürət" tapıb. Başqa bir ölkənin vətəndaşları üçün xüsusi status, ayrıca imtiyazlar, xaricə "suveren dəhliz" iddialarını irəli sürür. Axı belə olmur, beynəlxalq hüquq və müharibələr tarixi buna bənzər presendent tanımır! Həm döyüş meydanında, həm də diplomatik cəbhədə sarsıdıcı məğlubiyyətə uğramış Ermənistan aşkar görünən həqiqətləri qəbul etməyə cığallıq edir.

Bəli, hayların qulaqlarına tıxamalı, gözlərinə təpməli reallıq odur ki, bu qarşıdurmada İrəvanın heç bir şansı yoxdur. Onlara indi kömək edəcək kim qaldı? Rusiya? İrəvanda bu sualı bir-birinə çox verirlər. Bəs Qərb necə davranacaq? Ermənistanda keçirilən növbəti etiraz aksiyasının bu suala cavab tapmayan iştirakçıları güman və ehtimalların cəngində başlarını itiriblər.

Tarixdən ibrət götürməyən haylar bu dəfə də səhvə yol verdilər. Erməni siyasətçiləri doğrudanmı özlərinin siyasi illüziyalarında bu qədər sadəlövhdürlər ki, hər cəhətdən iki baş üstün olan Azərbaycanın oyuncaq iqtidara malik İrəvana hansısa güzəştə gedəcəyini xəyal edirlər? Yenə hay xisləti yada düşür.

Hayastan sadəcə müharibəni deyil, çox şeyini uduzub. Məşhur filmimizdə deyildiyi kimi: "Sən hər şeyini uduzmusan, bəy! Keçmişini, bu gününü, gələcəyini, hər şeyini!". Sadəcə, bunu anlamaqdan ötrü tor örtmüş gözlərini açıb boş ovuclarına baxmaları kifayət edər...

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Ermənilərin vaxtilə bəyan etdikləri "miatsum" ideologiyası kökündən yanlış və uçuruma aparan bir hərəkət idi. Amma onlar bunu etdilər və nə oldu? Nəticədə, yüz minlərlə, milyonlarla azərbaycanlı, o cümlədən ermənilərin özləri böyük əzab-əziyyətlərə düçar oldular. Elə indiyə kimi bu əziyyətin içindədirlər. Bunların beyinlərini utopik ideyalarla zəhərləyən siyasətçiləri, ideoloqları durub səhvlərini etiraf etmək, üzr istəmək əvəzinə, öz millətlərini həmin yanlış və zərərli yola bədbəxtliyə sürükləməkdədirlər. Müstəqilliklərini elan etdikləri 1991-ci ildə üç milyon yarım əhalisi olan Ermənistanın əhalisi son otuz ildə azı dörd milyon yarıma çatmalı idi. Amma indi bu marionet dövlətin əhalisinin sayı heç iki miyon yarım eləmir. Onların əldə etdikləri "uğur" bax, budur. Qonşu ölkələrin bir çoxu ilə ya düşməndirlər, ya da küsülüdürlər. Əbədi fəryad qoparan, zarıyan, "əzabkeş" bir topluma çevriliblər. İndi onlar reallığı olduğu kimi qəbul və etiraf etməyi bacarmalıdırlar.

Düzdür, onların cəmiyyətində bu istiqamətdə müəyyən dəyişikliklər müşahidə olunur. Təəssüf ki, reallığı, düşdükləri durumu doğru qiymətləndirən insanlar azdır. Amma bəlləri yanlış yolun yarısından qayıtmaq üçün çağırışlar edirlər. Əgər onların da səsini eşitmirlərsə, deməli, bu ölkə, bu millət qəflət yuxusundadır, hələ ayılmayıb.

Azərbaycan, Türkiyə öz yolları ilə gedir və biz öz hüquqlarımızı, milli maraqlarımızı qorumaq iqtidarındayıq. Ermənilər yalnız özlərinə zərər gətirəcək bu yoldan dönmək istəmirlərsə, həyat gec-tez onları əlhəd daşı ilə rastlaşdıracaq.

---

(əvvəli 1-ci səhifədə)

# Hayların Xaçatryan isterikası

Ermənistanın dövlət qurumları, o cümlədən xarici işlər nazirliyi, fəaliyyətdə olan və keçmiş ombudsmanı, parlamentdəki fraksiyaların başçıları, deputatlar, siyasi partiya sədrləri və ictimaiyyət nümayəndələri olaya münasibət bildiriblər. Onlar ənənəvi iftira, böhtan atmaq yolunu tutaraq Azərbaycanı "adam oğurluğunda" (?) ittiham ediblər. Sosial şəbəkələrin erməni seqmenti Azərbaycana nifrəti körükləyən paylaşımlarla dolub-daşır. Onların bir ittihamı da Azərbaycanın, guya, beynəlxalq humanitar hüququ pozmasıdır.

Qarabağdakı haylar saxlanılma hadisəsinin baş verdiyi gün – iyulun 29-da günortadan sonra Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisinin qarşısında Xaçatryanın geri qaytarılması tələbi ilə aksiya keçiriblər. Özünü separatçıların "dövlət naziri" adlandıran Qurgen Nersisyan, "ombudsman" Qeqam Stepanyan, "daxili işlər naziri" Karen Sarkisyan BQXK-nın Qarabağdakı ofisinin rəhbəri Karlos Moratsani ilə görüşərək insidentlə bağlı müzakirələr aparıblar. Moratsani etirazçılara, Xaçatryanın qohumlarına vəziyyəti anladığını bildirib. Onun sözlərinə görə, həll yollarının tapılması istiqamətində işlər aparılır.

Aksiyada çıxış edən Qurgen Nersisyan maraqlı etiraf edib. Deyib ki, yaranmış vəziyyət heç bir beynəlxalq təşkilatın "Artsax xalqı"nın təhlükəsizliyini təmin etmək iqtidarında olmadığını bir daha sübut edir.

Aksiyada Xaçatryanın qızı və qardaşı da iştirak ediblər. Onlar BQXK-dan saxlanılan şəxsi geri qaytarmağı tələb ediblər. Bundan sonra iştirakçılar Rusiya sülhməramlı kontingentinin qərargahına doğru yola düşüblər.

Haylar dünən BQXK-nın İrəvandakı ofisi qarşısında da aksiya keçiriblər. Həmçinin günün sonuna yaxın Xankəndi ofisinin qarşısında yenidən toplaşıblar. Bundan əlavə, Los-Ancelesdəki erməni diasporunun nümayəndələri BQXK-nın ofisi qarşısında aksiya təşkil ediblər.

Vaqifə görə Ermənistanda haray-həşir salanların başında isə onun digər qızı dayanır. Dünən İrəvandakı aksiyadan sonra Vera Xaçatryan jurnalistlərə müsahibəsində bildirib ki, o, Laçın (ermənilər bu gözəl diyarımızı Kaşatağ yarlığı ilə tələffüz edirlər-S.H.) rayonundandır. Lakin üç ildir ki, məcburi köçkün kimi (?) Cermukda yaşayır: "Mən Həkəri körpüsünün bu tərəfində təkəm, bacım, qardaşlarım, anam, bütün qohumlarım "Artsax"da yaşayırlar. Bu gün mənim ümidim sizsiniz, sizlərin hər biridir. Xahiş edirəm məni tək qoymayın, mənə ana, ata, bacı, qardaş olun. Bu, təkcə mənim dərdim deyil, Vaqif Xaçatryan bütün erməni xalqını təcəssüm etdirir".

Vera iddia edib ki, guya, Azərbaycan tərəfi reallığa uyğun olmayan məlumatlar təqdim edir: "Atam iyulun 29-da İrəvana aparılmalı idi, çünki onun ürəyində təcili əməliyyat lazımdır. Onu bacım müşayiət edirdi. Həkəri körpüsündə azərbaycanlılar atamın pasportunu götürüb bir daha qaytarmayıblar. Atam, əslində, qaçırılıb. Qohumlarından heç biri onunla əlaqə yarada bilməyib". O, atasının işğalçı müharibənin fəal iştirakçısı, qondarma "dqr"in ilk "müdafiə naziri" Samvel Babayanın sürücüsü olması barədə məlumatları da təkzib edib: "Bu yaxınlarda dedilər ki, o, Samvel Babayanın sürücüsüdür. Hörmətli vətəndaşlar, bu məlumat yalandır".



Qeyd edək ki, iyulun 29-da BQXK əməkdaşları V.Xaçatryana baş çəkiblər. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda qeyd edilib ki, həmin şəxsin Ermənistana müalicə məqsədi ilə getdiyini nəzərə alaraq, onun Bakı şəhərində tibb müəssisəsinə yerləşdirilməsi, ona zəruri tibbi yardımın göstərilməsi təmin edilib. BQXK-nın nümayəndələrinin ona baş çəkməsinə müvafiq şərait yaradılıb. XİN bildirib ki, Azərbaycan tərəfindən atılan bütün bu addımlar beynəlxalq hüquq və ölkə qanunvericiliyi çərçivəsində həyata keçirilib. Bu açıqlama öz-özlüyündə Veranın yalan danışdığını sübut edir.

***

Ermənilərin Xaçatryan şousu üzərindən Azərbaycana nifrət niqti yağdırmalarına İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva da münasibət bildirib. Ombudsman sosial şəbəkə hesabında etdiyi paylaşımda Ermənistanın Azərbaycana qarşı nifrət siyasətini və dözümsüzlüyü davam etdiriyini vurğulayıb.

Onun sözlərinə görə, son günlər sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən azərbaycanlılara qarşı təhqirləri əks etdirən mesajlar bir daha göstərir ki, Ermənistanın siyasi rəhbərliyi Azərbaycana qarşı çoxdankı nifrət siyasətini davam etdirir: "Əvvəlki açıqlamalarımızda da qeyd etdiyimiz kimi, Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının hüquqlarının təmin edilməsi məsələsi Azərbaycan dövlətinin yurisdiksiyasındadır. Ermənistan ombudsmanının vətəndaşlarımızın hüquqlarının müdafiəsi ilə bağlı əsassız iddiaları tamamilə yersizdir və başqa ölkənin suverenliyinə müdaxilədir. Bütün bunlara baxmayaraq, Ermənistan siyasi rəhbərliyinin dəstəyi ilə mediada hadisələrin qərəzli şəkildə şişirdilməsi və insanlar arasında nifaq salması regionda davamlı sülh prosesinə mane olur və eyni zamanda mövcud vəziyyətin daha da gərginləşməsinə xidmət edir".

Qarabağ erməniləri dünən "blokada" şousundan növbəti etüdlər nümayiş etdirməyi də unutmayıblar. Bu şouda həssas təbəqə olan uşaqlardan gen-bol istifadə edən hayların lentə aldıqları videoda uşaqlar "blokada"nın nə olduğundan danışırlar. Onlardan biri qeyd edib ki, almanı çox sevir, amma yollar bağlı olduğundan (?) onlarda nə alma, nə də şəkər tozu var.

Bu mövzuda dünən Milli Məclisin deputatı Fazil Mustafanın "Facebook" hesabında etdiyi paylaşım diqqəti çəkib. O qeyd edib ki, Ermənistandan gələn TIR-lardakı ərzaq Qarabağda yaşayan ermənilərin kütləvi zəhərlənməsi üçün nəzərdə tutulub: "Bu fakt baş verdikdən sonra ermənilər növbəti təxribatı gerçəkləşdirib Ümumdünya Səhiyyə Təşkilatını bölgəyə çağıracaqlar. Böyük ehtimalla bu maşınlara yığılanların həmısı vaxtı keçmiş ərzaq məhsullarıdır.

Məsələ ilk növbədə suverenliyimizlə bağlıdır. Digər tərəfdən isə Azərbaycan dövləti heç vaxt razı ola bilməz ki, onun ərazisində məskunlaşan insanların, hətta erməni millətinə mənsub olsalar belə, sağlamlıqları təhlükəyə düşsün. O düşüncədəyəm ki, Zəngilandan Ermənistan sərhədinə bizim TIR-lar düzülməlidir. "Naxçıvana humanitar yardım üçün yol verin!" tələbini aktuallaşdırmalıyıq".

Fazil Mustafa qeyd edib ki, Naxçıvanda da blokadanın götürülməsi, Zəngəzur dəhlizinin açılması ilə bağlı mitinqlər keçirilməli və Azərbaycanda akkreditasiya olunmuş səfirlər, beynəlxalq təşkilatların nümayəndələri ora dəvət olunmalıdırlar. Millət vəkili qeyd edib ki, vaxtında atılmayan addımlar, diqqətsiz qalan faydalı təkliflər haqlı mövqelərimizi zəiflədə bilər.

***

Vaqif Xaçatryanın həbsi azərbaycanlılara qarşı deportasiya, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törədən heç kimin cəzasız qalmayacağı, etdiyi əməllərə görə hər kəsin bir gün cavab verəcəyi həqiqətini üzə çıxardı. Belə canilərdən biri də yuxarıda adını çəkdiyimiz Samvel Babayandır. O, erməni bloger Albert İsakovun "Youtube" kanalına müsahibəsində V.Xaçatryanın Azərbaycan sərhədçiləri tərəfindən saxlanmasına münasibət bildirib. S.Babayan deyib: "Açığını desəm, bütün bu hadisələr baş verməmişdən qabaq mən bu məsələni qaldırmışdım. Demişdim ki, Azərbaycan 300-dən çox adamı həbs olunması üçün axtarışa verib. Mən qarşılıqlı etimada nail olmaq üçün azərbaycanlılarla danışıq aparmaq, dialoqa başlamaq lazım olduğunu deyəndə bunu nəzərdə tuturdum. Ancaq bir sıra axmaqlar dərhal dedilər ki, mən özümü düşünürəm, özüm haqqında danışıram. Onlar məsələyə ciddi yanaşmadılar. İndi isə səhvə yol verdiklərini anlayırlar. Ona görə də biz hər dəfə oxşar sürprizlərlə üzləşəcəyik. Bizim partiyanın hazırlayıb Arayik Arutyunyana təqdim etdiyi 45 bənddən ibarət layihədə Azərbaycandan amnistiyanın alınması da var idi. Ancaq onlar (qondarma rejim rəhbərliyini nəzərdə tutur-S.H.) bunu ciddiyə almadılar və iyulun 29-da ilk hadisə baş tutdu".

Blogerin "Azərbaycanın axtarışa verdiyi şəxslərin siyahısında kimlər var?", – sualına cavab olaraq S.Babayan "mən o siyahıda varam, başqalarını bilmirəm" deyib.

Beləliklə, aydın olur ki, Qarabağda azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin necə deyərlər, kürkünə birə düşüb. Hayların Xaçatryan olayını siyasiləşdirərək Bakıya təzyiq göstərmək cəhdləri fayda vermir. Ancaq dünya bir daha üstündən 30, 40, 50 il keçsə belə, hərbi cinayətkarların ədalət mühakiməsindən qaça bilməyəcəklərinə şahidlik edir. Eyni zamanda, bu cür hallara haqq qazandırmaq, cinayət törətmiş şəxsi təmizə çıxarmaq cəhdləri də cinayət törətməyə bərabər hərəkətdir.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Fuad ABBASOV,**
**siyasi şərhçi**

– Altmış səkkiz yaşlı Vaqif Xaçatryanın saxlanılması çox ciddi hadisədir. Bu hadisə digər hərbi canilərlə bağlı bir presedent yaradacaq. Hazırda digər hərbi canilərin canına vəlvələ düşüb. İstər Xankəndidə, istər İrəvanda, istərsə də dünyanın digər yerlərində yaşayan qatillərin hesab vermək zamanı gəlib çatıb. Onlar Samvel Babayanın açıqlamasından sonra başa düşüblər ki, Azərbaycan 300-dən çox şəxsi beynəlxalq axtarışa verib. Bunlar dünyanın hansı ölkəsinin sərhədini keçməsindən asılı olmayaraq saxlanılaraq Azərbaycana təhvil veriləcəklər. Biz bilirik ki, Qarabağda hələ də bu canilər yaşamaqdadırlar.

Azərbaycan Prezidenti mayın 28-də Laçına qayıdan əhali ilə görüş zamanı bildirdi ki, "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı amnistiyadan söhbət gedə bilər. Onlar Azərbaycanın danışıq aparmaqla bağlı iki təklifini qəbul etməyiblər. Bundan sonra hərbi cinayət törətmiş şəxslər sərhədi keçərkən saxlanılıb hüquq-mühafizə orqanlarına təhvil veriləcəklər. Bu, gözəl presedentdir. İnşallah, Azərbaycanın cəzaçəkmə müəssisələrini bizə qarşı ağlasığmaz cinayətlər törətmiş canilərlə doldurmuş olarıq.

# Pakistan ölkəmizə düyü ixracını 10 dəfə artırmağı planlaşdırır

## Azərbaycan isə idxaldan asılılığı azaltmaq üçün zəruri tədbirlər həyata keçirir

**(əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, hələ ötən ilin sentyabrında Hindistanda eyni növ düyünün ixracına 20 faiz əlavə rüsum tətbiq olunmuşdu. Məqsəd qeyd etdiyimiz kimi, ixracın azalmasını gerçəkləşdirmək, qiymətlərin sürətli artımının qarşısını almaq idi. Lakin belə bir qadağa tədbiri–rüsum əlavəsi, həmçinin dünya bazarında düyünün qiymətində müşahidə olunan bahalaşma (son bir ildə bu məhsulun qlobal bazar qiymətinin 11,5 faiz artması) ixraca heç bir təsir göstərmədi: cari ilin aprel-iyun aylarında ölkədən təmizlənmiş düyü ixracı 2022-ci ilin eyni dövrü ilə müqayisədə 35 faiz çox qeydə alındı.

"Fitch Solutions" agentliyinin yaydığı məlumatda da ilin əvvəlindən düyünün orta qiymətinin 100 funt (45,4 kiloqram) üçün 17,3 dollar təşkil etdiyi bildirilib və gələn ilə qədər qiymətlərin indiki ən yüksək həddə yaxın olacağı proqnozlaşdırılıb. Məlumatda, eyni zamanda, 2024-cü il ərzində şəraitin yaxşılığa doğru dəyişəcəyi, dünya bazarında vəziyyətin düzələcəyi və məhsulun qiymətinin, təxminən, 10 faiz ucuzlaşacağı diqqətə çatdırılıb.

İndi hamını bir sual düşündürür: qlobal düyü bazarında baş verənlər Azərbaycana təsir edə bilərmi? Dünyanın bir parçası olan ölkəmizdə bu məhsulun istehsalının genişləndirilməsi istiqamətində hansı tədbirlər görülür? Bu suallara bağlı, ilk növbədə, onu deyək ki, düyü respublikamızda bir sıra dənli bitkilərlə müqayisədə az istehlak edilir. Lakin buna baxmayaraq, ölkənin ərzaq təhlükəsizliyində önəmli yer tutur. "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilməsinin, çəltiyin əkin sahəsinin (10 min hektara qədər) və məhsuldarlığın (hər hektardan 2,5 dəfədən çox – 40 sentnerə qədər) əhəmiyyətli dərəcədə artırılmasının düyü istehsalının diqqət mərkəzində saxlanılmasından irəli gəlir. Fermerlərin onun becərilməsinə marağını artırmaq üçün onlara hər hektar çəltik əkininə görə 360 manat subsidiya verilməsi də hökumətin əhalinin bu məhsula olan tələbatının yerli istehsal hesabına ödənilməsi zərurətini dəyərləndirməklə bağlıdır. Azərbaycanın düyüyə illik tələbatının 40 min tondan artıq olması da vəziyyətin nə qədər ciddi olmasından xəbər verir.



İndi isə son illərdə çəltik əkini ilə bağlı vəziyyəti statistik rəqəmlər əsasında nəzərdən keçirək. Xatırladaq ki, respublikada ötən ilə qədər çəltik əkini sahəsi 3 min hektar olub, 12 min tona yaxın düyü istehsal olunub. Keçən il isə respublikanın 9 rayonunda çəltik əkini aparılıb. Çəltik əkinlərinin ümumi sahəsi 3 min 194 hektar təşkil edib. Həmin vaxt ən çox Lənkəran (802,3 hektar), Ağdaş (681 hektar) və Ucar (678 hektar) rayonlarında çəltik əkilib. Orta məhsuldarlıq hektar üzrə 36,2 sentner təşkil edib. Bu, 2021-ci ilin orta məhsuldarlıq göstəricisindən hektar üzrə 1,4 sentner çox olub. Eyni zamanda, həmin dövrdə respublikada 2021-ci ilə nisbətən 858 ton daha çox məhsul istehsal olunub.

Məlumat üçün qeyd edək ki, cari il respublikada 3 min 171 hektarda çəltik əkilib. Ötən il isə həmin göstərici 3 min 129 hektar təşkil edib.

Göründüyü kimi, son illərdə çəltikçiliyin əkin sahələrinin genişləndirilməsi ilə yanaşı, Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı sortlarının yaradılması, introduksiyası, yerli şəraitə adaptasiyası və toxumçuluğunun təşkili istiqamətində tədqiqat işlərinə başlanılıb, həmçinin institutda "Çəltik bitkisinin seleksiyası və becərmə texnologiyası" şöbəsi yaradılıb. Eyni zamanda, çəltiyin seleksiyası və toxumçuluğuna dair tədqiqat işlərinin aparılması üçün Lənkəran rayonu ərazisində lazımi infrastruktur qurulub.

Bütün bunlarla bərabər, çəltikçiliyin geniş yayıldığı ölkələrdən Azərbaycana yüksək məhsuldar toxum sortlarının gətirilməsi də diqqətdə saxlanılıb. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Toxum Fondu tərəfindən Pakistan İslam Respublikasından respublikamıza gətirilən yeni çəltik sortları istixanalardan açıq sahələrə köçürülüb.

Xatırladaq ki, Pakistandan ölkəmizə gətirilən "KS-282", "KSK-133", "PK-383" və "Chenab Basmati" tezyetişən, məhsuldar olan çəltik sortlarının vegetasiya müddəti 100-110 gündür. Bitkinin məhsuldarlığı hektara 10 ton təşkil edir. Sortların xəstəliklərə qarşı davamlılığı da yüksəkdir.

Hazırda Əkinçilik Elmi–Tədqiqat İnstitutunda 2023-2024-cü illər üçün çəltiyin seleksiyasına dair tədqiqat olunmuş mövzu planına əsasən Lənkəran bölgəsində seleksiya tədqiqatları həyata keçirilir. Lənkəranda hər il 1–1,5 hektar sahədə toxumluq məqsədi ilə "Avanqard" sortunun superelit reproduksiyalı əkini aparılır və 2,5-3 ton elit toxumu istehsal edilərək bölgə fermerlərinə verilir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Dünyada düyü istehsalının azalması, onun qiymətinin bahalaşması daxili bazara da təbii ki, təsirsiz ötüşmür. Azərbaycanda istehlak edilən düyünün 70 faizdən çoxu başqa ölkələrdən gətirilir. Respublikamıza hər il təxminən 34 milyon dollar dəyərində düyü idxal olunur və bu, böyük məbləğdir.

Əgər əvvəllər düyü əsasən, Hindistandan idxal edilirdisə, hazırda Pakistandan tədarükə üstünlük verilir. Ötən ilin sonunda hökumət bu dost ölkədən gətirilən düyünü 2027-ci ilə qədər idxal rüsumundan azad edib. Şübhəsiz ki, belə bir hal vəziyyətin kəskinləşməsinin qarşısını alacaq və respublikamızda düyünün bahalaşmasını ləngidəcək.

Qeyd edək ki, Pakistan şirkətləri Azərbaycana düyü tədarükünü təxminən 10 dəfə artırmağı planlaşdırır. Amma təbii ki, idxaldan asılılığı azaltmaq üçün mümkün olan bütün tədbirlər həyata keçirilməlidir.

"Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda da yerli düyü istehsalının daxili bazarın tələbatının 90 faiz ödənilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Artıq bu istiqamətdə müsbət nəticələr müşahidə olunur. Belə ki, ölkədə bu məhsulun istehsalının artması sayəsində düyü idxalı 2021-ci ildə 18 faiz azalıb.

Düyü əkini sahələrinin artırılması məsələsinə gəlincə, Azərbaycanda bu məqsədlər üçün kifayət qədər ərazi var. Lakin çəltik rütubəti sevən bitkidir və hazırda ölkədə su ehtiyatları ilə bağlı çətin vəziyyət müşahidə olunur. Amma başqa ölkələrin, məsələn, İsrailin təcrübəsini mənimsəyərək yeni suvarma texnologiyaları tətbiq edilsə, çəltik istehsalında daha yüksək göstəricilərin əldə olunması mümkündür.

---

### "Azərişıq" Kəlbəcərdə yenidənqurma işlərini davam etdirir

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin məlumatına görə, Kəlbəcərin Zar kəndi istiqamətində 35 kV-luq izolyasiyalı xətlərin çəkilişi üzrə işlərə başlanılıb.**

Hazırda bu məqsədlə xətlərin daşınması üçün dayaqlar basdırılır, naqillər çəkilir. Paralel olaraq Mərcimək, Yellicə və Ağqaya kəndləri istiqamətində də yenidənqurma işləri aparılır.

İzolyasiyalı kabellərin açıq xətlərlə müqayisədə üstünlükləri çoxdur. Yüksək dağlıq ərazilərdə kəskin hava şəraitində açıq naqillərdə buzlaşma halları tez-tez baş verir. Əlavə olaraq meşə zolağından keçən hissədə ağacların budağının toxunması nəticəsində də açılmalar olur. Çətin relyefə malik belə yerlərdə baş verən qəzaların aradan qaldırılması da kifayət qədər vaxt tələb edir. İzolyasiyalı kabellərdə isə belə problemlər yaranmır. Nəticədə abonent dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmaqla yanaşı, itkilər də azalır.

Xatırladaq ki, Kəlbəcər şəhəri elektrik enerjisi ilə 18 iyul 2020-ci tarixində təmin edilib.

### Banklar ötən ay 283 milyon manat gəlir əldə edib

**2023-cü ilin iyun ayı ərzində Azərbaycanda fəaliyyət göstərən banklar 282,8 milyon manat faiz gəliri əldə edib.**



Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 26 faiz və ya 58,5 milyon manat çoxdur.

Qeyd edək ki, hesabat dövründə bankların əməliyyat mənfəəti 128,2 milyon manat, xalis mənfəəti isə 126,2 milyon manat təşkil edib.

### Pirallahı Sənaye Parkına 36 milyon manatdan çox investisiya yatırılıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun məlumatına görə, Pirallahı Sənaye Parkının fəaliyyəti əczaçılıq sənayesinin inkişafına, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsinə, yerli istehsalın və məşğulluğun təşviqinə töhfələr verir.**

Sənaye parkında investisiya kapitalı 66 milyon manatdan artıq olan 6 sahibkarlıq subyektinə rezident statusu verilib və bunlardan 2-si artıq istehsal fəaliyyətinə başlayıb.

Nazir bildirib ki, sənaye parkına 36 milyon manatdan çox investisiya yatırılıb, burada 130-dan çox daimi iş yeri yaradılıb, 37 milyon manatlıq məhsul istehsal olunub. Mövcud layihələr üzrə 30 milyon manata yaxın investisiyanın yatırılması, 250-dən artıq iş yerinin yaradılması da nəzərdə tutulur.

***"Xalq qəzeti"***

---

# Qanuni duracaqlar fəaliyyətə başlayır

## Parklanmanın sivil təşkili dövlətə də, vətəndaşa da fayda gətirəcək

**Paytaxt Bakıda nəqliyyatın parkinqi ilə bağlı problemlər uzun illər həm sürücüləri, həm də sakinləri ciddi narahat edən məsələlərdən olub. Üstəlik, avtomobillərin park edilməsi üçün müvafiq yerlərin olmaması ucbatından sürücülər idarə etdikləri nəqliyyat vasitələrini, kobud qayda pozuntusu hesabına olsa da, haradasa saxlamaq məcburiyyəti qarşısında qalıblar. Bu isə inzibati xəta olmaqla yanaşı, həm də tıxacların yaranmasına rəvac verib.**



Ölkə Prezidenti İlham Əliyev paytaxt əhalisini ən çox narahat edən məsələlərdən biri olan parkinq problemi ilə bağlı dəfələrlə narahatlığını ifadə edib. Dövlət başçısı bununla bağlı deyib: "Biz burada da hər şeyə ədalətli yanaşmalıyıq. Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək. Ona görə, bəzi hallarda sürücülər bu qaydaları kobudcasına pozurlar. Parkinq olan yerdə maşınları münasib olmayan yerlərdə saxlayıb, həm piyadalara maneə törədirlər, həm də nəqliyyata problem yaradırlar. Ancaq kifayət qədər böyük imkanlar, yəni, parkinq yerləri olmalıdır ki, biz sürücülərə bu tələbləri irəli sürək. Burada da heç bir qanun pozuntusu olmamalıdır. Qanun qarşısında hamı bərabərdir".

Eyni zamanda, ölkəmizdə bu sahə uzun illər nəzarətsiz qaldığından bəzi mərkəzi küçə və prospektlərdə ayrı-ayrı şəxslərin qazanc mənbəyi kimi açdıqları qeyri-qanuni parklanma yerləri də tıxacların yaranmasına və vətəndaşların haqlı narazılığına səbəb olurdu. Çox təəssüf ki, bəzi dövlət qurumlarının əməkdaşları belə özbaşınalıqların qarşısını almaq əvəzinə, bu qanunsuz əməllərlə məşğul olan şəxsləri himayə edib, hətta müəyyən sövdələşmələrə gedərək onlara şərait də yaradıblar.

Elə bu yaxınlarda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən "Bakı Nəqliyyat Agentliyi"nin vəzifəli şəxslərinin qanunsuz əməllərinin üstünün açılması da bunu təsdiqləyir. İstintaqla müəyyən olunub ki, agentliyin yol hərəkətinin təşkili şöbəsinin müdir müavini Vüqar Hüseynovun həmin vəzifədə işləyərkən qeyd olunan strukturun məsləhətçisi Hikmət Vəlizadə ilə əlbir olaraq 2023-cü ilin iyun-iyul ayları ərzində Bakı şəhəri ərazisində parklanma sahələrinin təşkil olunması üçün müvafiq prosedurların həyata keçirilməsi müqabilində müxtəlif şəxslərdən, ümumilikdə, 16 min 500 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib. Məhkəmənin qərarı ilə həmin şəxslər barəsində həbs qətimkan tədbiri seçilib.

Avtomobillərin parklanmasına görə vahid ödəniş sisteminin olmaması və yığılan vəsaitlərin büdcədən yayınması kimi problemlər də ciddi narahatlığa yaradırdı. Artıq Prezident İlham Əliyevin təsdiqlədiyi "Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası"nda respublikada dövlət parklanma yerlərindən daxil olan vəsaitləri toplayan qurumlar müəyyənləşdirilib. Yeni qaydaya əsasən, Bakı şəhərində parklanma vəsaitləri Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, regionlarda isə Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi tərəfindən yığılacaq.

Yeri gəlmişkən, iyul ayının 25-dən etibarən Nazirlər Kabinetinin "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" barədə qərarı qüvvəyə minib. Qərara əsasən, Bakı şəhəri üzrə 4 parklanma zonası müəyyən edilib və ödənişlər hər zonaya uyğun tətbiq edilir. Belə ki, parkinq qiymətləri Bakının mərkəzində 1 saata görə 1 manatdan başlayaraq mərkəzdən kənar zonalara keçdikcə, 70, 40 və 30 qəpik müəyyənləşdirilib. Gəncə və Sumqayıt şəhərlərinin mərkəzi hissələrində parklanmanın 1 saatı üçün 40 qəpik, digər ərazilər üçün isə 20 qəpik ödəniş edilməsi nəzərdə tutulub. Xatırladaq ki, yeni qərar yalnız dövlət avtomobil yollarında təşkil edilmiş parklanma yerlərinə şamil edilir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert**

Məlum olduğu kimi, parklanma özü-özlüyündə əhalinin şəhərdə mobilliyinin təmin edən əsas amillərdən biridir. Nəhayət, ölkəmizdə bu məsələ öz həllini tapır.

Artıq parklanma tarifləri də məlumdur. Düşünürəm ki, fərqli qiymətlərin müəyyən edilməsi olduqca liberal bir addımdır. Özü də qiymətlər çox əlçatandır. Məndə olan məlumata görə, bir neçə il əvvəl müvafiq qurumların parklanmanın tarifləri ilə bağlı dövlətə verdikləri təklifdə qiymətlər indikindən, təqribən, iki dəfə baha olub. Eyni zamanda, Nazirlər Kabinetinin təklif etdiyi güzəştlər isə, demək olar ki, mövcud deyildi. Amma göründüyü kimi, dövlət özünün sosial yönümlü siyasətini nəzərə alaraq parklanma qiymətlərini çox ucuz edib, hətta güzəştlər də müəyyənləşdirib. Belə ki, həftənin şənbə və bazar günlərində, eləcə də gecənin müəyyən saatlarında dövlətin balansında olan parklanma yerləri pulsuz olacaq. Eyni zamanda, hökumətin yeni qərarında o qeyd edilir ki, istər özəl, istərsə dövlətin balansında olan bütün parklanma yerlərində avtomobillərin saxlanmasının ilk 15 dəqiqəsi pulsuz olacaq.

Parklanma tariflərinin müəyyən edilməsi həm də sahibkarlara imkan yaradır ki, onlar paytaxtın, eləcə də Sumqayıt və Gəncə şəhərlərinin müxtəlif ərazilərində pulsuz parklanma yerləri yaradaraq qazanc əldə etsinlər. Bu isə ölkəmizdə dövlət-biznes dialoqunun daha bir bariz nümunəsidir.

Vətəndaşların rahatlığını və maliyyə şəffaflığını təmin etmək üçün parklanma ödənişləri nağdsız həyata keçiriləcək. Burda sistem elədir ki, vətəndaş mobil tətbiq vasitəsilə ödəniş edə biləcək. Bundan əlavə, ödəmə terminallarının yaradılması təklif olunur. Düşünürəm ki, bunlar parklanmanın xarakterindən asılı olaraq tətbiq edilə bilər.

Yeri gəlmişkən, vətəndaşlar maraqlanırlar ku, bəs, parklanma nəzarətçiləri necə olacaq. Düşünürəm ki, onlar müəyyən müddət öz işlərinə davam edəcəklər. Həm də əvvəlkindən fərqli olaraq onların fəaliyyəti leqallaşdırılacaq, sosial təminatları olacaq. Parklanma nəzarətçilərinin sayı azalsa da, bu fəaliyyət növü tam avtomatlaşdırılanadək onlara ehtiyac olacaq. Parklanma ilə bağlı mobil tətbiqinin müsbət cəhəti ondan ibarət olacaq ki, artıq vətəndaşlar dövlətin balansında olan parklanma yerlərinin ünvanlarını da biləcəklər.

Ölkə Prezidentinin bununla bağlı imzaladığı sərəncamda o da qeyd olunur ki, parklanmadan yığılan vəsaitlər infrastrukturun və bu sahədə çalışan insanların sosial rifahının yaxşılaşdırılmasına yönəldiləcək. Bu da əlavə bir resurs deməkdir. Yeri gəlmişkən, parkinq dövlət büdcəsi üçün çox yaxşı gəlir mənbəyidir. 2-3 il bundan əvvəl Bakı şəhəri üzrə parkinqlərlə bağlı araşdırma apardım. Həmin araşdırma nəticəsində hər il il avtomobil parkinqindən, təqribən, 50 milyon manatadək vəsaitin dövlət büdcəsindən yayındırıldığı aşkar olunmuşdu. Artıq dövlətin nəzarətində olan parklanma yerlərini zəbt edib orada müəyyən qazanc əldə etmək məsələsi keçmişdə qalacaq.

*Zamanın yaddaşı – yaddaşın zamanı*

# Meşəli canisi Haqqın divanında

**Tarixi sınaqlardan çıxmış həqiqətdir: cinayət izsiz, cani cəzasız qalmır. Bugünlərdə bir daha bu qızıl düsturun doğruluğuna hamılıqla şahid olduq. Bu gerçək ona görə zaman keçdikcə önəmini artırır ki, caninin cəzasız qalması ilə dünyanın nizamı pozular. 1991-ci il dekabrın 23-də səhərin alatoranında Xocalı rayonunun Meşəli kəndini oda qalamış, 28 nəfər qocanı, qadını, uşağı yataqda qətlə yetirmiş, qaçıb canını qurtarmaq istəyən 14 nəfəri ağır yaralamış, 358 nəfəri doğma ocağından didərgin salmış, sakinlərin 5,5 milyon manatlıq əmlakını talan etmiş, mənimsəmiş erməni qaniçənlərindən biri – Vaqif Xaçatryan 31 il 8 aydan sonra ələ keçib, haqqın divanına verildi. Xalqımızın Qarabağ Zəfərininn açdığı yolda Zamanın qurduğu mizan- tərəzi artıq Qarabağı insan qəssabları yuvasına çevirənlərin tarixi cinayətlərinin haqq-hesabını sormağa başlayıb. Deyildiyi kimi, Zamanın yaddaşı həmişə oyaqdır, indi isə yaddaşın zamanı gəlib.**

Müsahibimiz Meşəli qətliamında qoca anasını, yaxın qohumlarını itirmiş, 33 il bu faciənin ağrıları ilə yaşamış "Qarabağa aparan yol" qəzetinin baş redaktoru, şair-publisist Əli Mahmuddur.

**– Əli müəllim, separatçıların qulbeçəsi Vaqif Xaçatryanın Laçın sərhəd-buraxılış məntəqəsində Meşəli qırğınında iştirak etmiş cani kimi ələ keçməsini necə qarşıladınız və necə dəyərləndirirsiniz?**

– Mən bu xəbəri Prezident, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində verdiyi Qələbə müjdələrinin, "Əziz Şuşa, sən azadsan!" xitabının doğurduğu sevinc və təntənələrin davamı olan bir hadisə kimi qəbul etdim. İnsanlıq sifətini itirmiş, heç bir təqsiri olmayanları vəhşicəsinə qətlə yetirmiş birisinin, gec də olsa, tələyə düşməsi bəşər övladı üçün misilsiz bir xatırlatmadır: nahaq qan yerdə qalmır.

Söhbət, ilk növbədə, narahat bir kəndin dinc sakinlərinin yalnız azərbaycanlı olduqlarına və öz dədə-baba yurdlarında yaşadıqlarına görə kütləvi terrora, qırğına, qovulmaya məruz qalmasından gedir. Əgər o kənd mənim doğmalarımın yaşadığı bir obadırsa, yatdıqları yerdə öldürülənlərdən biri isə mənim ağsaçlı anamdırsa, onda həmin cinayəti törədənlərdən birinin zərərsizləşdirilməsi hamıdan artıq məni sevindirir. Bu hadisə 33 il gözlədiyim günün gəlişi oldu. Bu o deməkdir ki, erməni cinayətləri mütləq cəzasını alacaq. Əslində, Qarabağ qələbəmiz erməni millətçi-quldurlarına verilən ən böyük cəza oldu. Lakin ayrı-ayrı canilərin də öz cəzası var və onlar ya bunu Ulu yaradan tərəfindən, ya da yerdəki haqq divanında mütləq alır.

Bu hadisənin başqa ibrətləri də var. Qarabağda separatizmin yeni dalğasını başlatmaq istəyənlər bilməlidirlər ki, 35 ildir erməni xalqını cinayətkar, haramxor, ağlını itirmiş topluma, bütünlüklə qonşu düşməninə çevirmiş avantüra bundan sonra yerindəcə cəzalandırılacaq. Erməni qaçaq-quldurları üçün bundan sonra haqq-hesabın sorulacağı bir dövr başlanıb. Artıq 33 il gözləmək lazım gəlməyəcək. Ölkəmizə, xalqımıza qarşı hər hansı bir cinayətkar addımın qarşısı dərhal alınır və alınacaq.

Bu hadisədən dünya erməniliyini himayə edib Azərbaycanın üstünə qaldıran dairələrin götürəcəyi pay da yetərlidir. Əvvəla, millətçilik zəhəri ilə yolunu azmış, sabahını görə bilməyən erməni toplumu, az-çox, anlamalıdır ki, tarix boyu onun üçün həyat mənbəyi olmuş qonşu xalqla düşmənçiliyi davam etdirməsi onun fəlakətlərini daha da artırır. Ermənipərəst qüvvələr isə qəbul etməlidir ki, müstəqil Azərbaycan dövləti artıq çoxdan sovet rəhbərliyinin əl-qolunu bağlayıb ermənilərə hədəf etdiyi məmləkət deyil. Onlar başa düşməlidirlər ki, xalqımızın Qarabağ zəfəri təkcə ermənilər üzərində qələbə deyil, həm də onların çeşidli himayədarlarının niyyətlərinin alt-üst edilməsidir.

Nəhayət, "Xaçatryan hadisəsi" elə bir vaxtda baş verdi ki, Qarabağ ermənilərinə "nəzarətsiz dəhliz" tələb edənlərin riyakar humanizmi bir daha ifşa edildi. Məlum oldu ki, Ermənistan rəhbərliyi və onlara kənardan fitva verənlər, əslində, "humanitar dəhliz" deyil, Qarabağda gizlənmiş müharibə caniləri, soyqırımı törədənlər üçün "sərbəst keçid" tələb edirlər. Beynəlxalq Qırmızı Xaç Komitəsinin maşınında humanitar tələbatın ödənilməsi adı altında insan qatili, silah, qaçaqmal daşınmasına təxribat və qanunsuz fəaliyyətdən başqa, nə ad vermək olar? Qarabağ Azərbaycan ərazisidirsə, humanitar yüklər ora niyə Azərbaycan ərazisindən daxil olmamalıdır? Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndi nümayəndəliyi niyə İrəvana tabe olmalıdır?



**– Qayıdaq Meşəli faciəsinə, o zaman baş verənləri necə xatırlayırsınız?**

– Çox ağır zaman idi. Mən o vaxt "Şuşa" qəzetinin redaktor müavini işləyirdim. Şuşa Qarabağın dağlıq hissəsində erməni separatizminə müqavimət mərkəzi idi. Bakıdan nəinki bizə kömək yox idi, hətta əl-qolumuzu da bağlayırdılar. Ermənilər Qarabağda Azərbaycan adına hər şeyi yerləyeksan etdikləri halda, Şuşada Nelson Stepanyanın abidəsini, erməni məhəlləsini xüsusi qoruyurdular. Ermənilərin quldurluq hərəkətlərini himayə edən Arkadi Volskini canfəşanlıqla sovet parlamentinə deputat seçirdilər. Mən bunlar barədə danışıb-yazdığıma görə rəhbərlik tərəfindən arzuolunmaz adama çevrilmişdim.

Böyüdüyüm, qohum-əqrəbamın yaşadığı Meşəli kəndi də Xankəndinin erməni rəhbərliyinin düşmənçilik siyasəti nəticəsində dünyanın ən unudulmuş, atılmış bir məkanı idi. Lakin ermənilər başqa Azərbaycan məntəqələri kimi Meşəlini də hədəfə almışdılar. Tələb edirdilər ki, ev-eşiklərini atıb getsinlər. Təxminən, 4 yüz nəfərlik kənd öz qüvvəsi ilə 4 il müdafiə olundu. Nəhayət, 366-cı sovet alayının xəyanətkarlığı ilə burada yuva salmış 3 yüzədək erməni hərbçisi Xaçatryan kimi millətçi quldurlarla birlikdə kənddə qırğın törətdilər.

1991-ci ilin oktyabrında erməni quldurları Əsgəranda yolu bağlayıb soydaşlarımız yaşayan kəndləri işğal etməyə başladılar. Bakıda isə hakimiyyət davası gedirdi. Hər gün Xocalıya hücumlar edilirdi. Daşbulaqda azərbaycanlılar qovuldu, evləri yandırılıb, qarət edildi. Növbə Meşəliyə çatdı...

Xəbəri eşidib Şuşadan gizli yolla, atla kəndə yaxınlaşdım. Evlər hələ də yanırdı. Şuşadan gedən hərbi qüvvə isə meyitləri çıxarırdı, yaralıları təxliyə edirdi. Anamı elə yatdığı yerdəcə qətlə yetirmişdilər... Onlar bunu mənim erməniləri ifşa etdiyimə görə qəsdən eləmişdilər. Qonşu Badara kəndindən olan Xaçatryan məni də, ailəmizə də yaxşı tanıyırdı. Quldurlara bələdçilik edib kəndi qoruyanlara ilk atəşləri də o açmışdı...

Anamı Şuşada dəfn etdik. O zaman Meşəlidə bir jurnalistin anasının da öldürüldüyünü eşidənlər Şuşa poçtuna 5 min manatadək yas pulu göndərmişdilər. Mən o vəsaiti qəpiyinədək Şuşa şəhidləri üçün Nelson Stepanyanın abidəsinin yerində xatirə kompleksi yaratmaq üçün xüsusi fonda köçürdüm. Təəssüf ki, 5 ay sonra Şuşa da işğal olundu. Arzu edirəm ki, həmin yerdə bizim günlərdə Qarabağda törədilmiş soyqırımları qurbanlarının xatirəsinə abidə ucaldılsın.

**– Siz uzun illər Şuşada yaşayıb-fəaliyyət göstərmiş, erməniləri yaxşı tanıyan və onların da kimliyinə bələd olduqları bir ziyalı, söz adamı kimi Xankəndinin yenidən qızışdırılan millətçi-separatçılarına nə deyərdiniz?**

– Deyiləsi sözü biz ermənilərə münaqişədən əvvəl də çox söyləmişdik. Demişdik ki, dinc oturun, dava salsanız, bir bizə dəyəndə, iki də sizin başınıza enəcək. Belə də oldu. Nə qazandılar: hamılıqla düşmənçilik, ölüm, fəlakət... Əlləri günahsız qanlara batdı. Düşmənçilik edənlərin öz anaları da ağlar qaldı. Qonşuluqda əl-ələ verib müstəqil dövlətlər kimi inkişaf etmək əvəzinə, Qarabağı cəhənnəmə çevirib ortasında oturdular. Olan-qalanlarını mənasız müharibəyə sərf etdilər. Qarət malı yeməklə öyündülər.

Azərbaycan isə bu xəyanətin qarşılığında ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşdi, Prezident İlham Əliyevin rəhbərliyi altında güc topladı. Ordumuz dəmir yumruq kimi erməni quldur dəstələrinin başına endi, onları qovub Qarabağı azad etdi. Lakin düşdüyü vəziyyətdə onlara verilən nicatdan istifadə etməyən erməni başbilənləri düşmənçiliyi yeni rəzil formalarda davam etdirirlər. Bunun sonu yoxdur. Nə qədər Xankəndiyə çirkli mələfələrin altında gizlənib, Beynəlxalq Qırmızı Xaç Komitəsinin maşınına sığınıb gedib-gələcəklər.

Ermənilərin xilas yolu 35 illik səhv yoldan dönmələrindədir. Bunun üçün onların başbilənləri müharibə canilərini gizlətməkdən, müdafiə etməkdən əl çəkməlidirlər. Qarabağ erməniləri yaşadıqları ölkənin qanunlarına tabe olmalıdırlar. Caniləri onsuz da ölkəmizin hüquq-mühafizə qurumları aşkar edib cəzalandıracaq. Dinc, təqsirsiz ermənilərin isə konstitusiya hüququ necə lazımdırsa, qorunacaq. Bunu Azərbaycan rəhbərlyi, Prezident İlham Əliyev bütün dünyaya mötəbər şəkildə bəyan edib. Ağılsız baş isə toxmaq yeyər,– deyib babalarımız.

**Söhbəti hazırladı: Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**

## Azərbaycanlı alimin "Xalq TV"-yə müsahibəsi yapon mediasında




**AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyevin bu yaxınlarda "Xalq qəzeti" internet televiziyasına süni intellektlə bağlı verdiyi müsahibə beynəlxalq reaksiya doğurub. Həmin müsahibə tərcümə edilərək Yaponiyada fəaliyyət göstərən ajmedia.jp xəbər portalında dərc olunub.**

Qeyd edək ki, görkəmli alim müsahibədə süni intellektin yaranma tarixi, inkişaf mərhələləri və müasir vəziyyəti, Azərbaycanda bu istiqamətdə aparılan tədqiqatlar, həyata keçirilən dövlət siyasəti, eləcə də onun bəşəriyyətə verəcəyi faydalar, inkişaf perspektivləri ilə bağlı ətraflı söhbət açıb.

Müsahibənin mətni ilə bu link vasitəsilə tanış olmaq mümkündür: en.ajmedia.jp

***"Xalq qəzeti"***

## Diqqət! Diqqət!
## *Göstərir "Qərbi Azərbaycan televiziyası!"*

**Son 200 ildə ağrı–acı və məşəqqətlərlə üzləşən və ötən əsrdə dörd dəfə öz ata–baba yurdundan didərgin salınan Qərbi Azərbaycanlıların sonuncu deportasiyası (1987-1991) zamanı - 1989-cu ildə yaradılmış Azərbaycan Qaçqınlar Cəmiyyətinin 2022-ci il avqustun 3-də Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkilatlanması və indiki Ermənistan ərazisindən zorla çıxarılan soydaşlarımızın hüquqlarının müdafiəsi ilə aktiv məşğul olması, həm də Qərbi Azərbaycan həqiqətlərinin mümkün geniş təbliğ edilməsinin vacibliyini artırır. Bu məqsədlə İcmanın nəzdində yeni "Qərbi Azərbaycan TV" internet televiziyası fəaliyyətə başlayır.**

Bu gündən həftədə 4 dəfə saat 17:00-da iki saatlıq efirlə fəaliyyət göstərəcək kanalın Azərbaycan və rus dillərində buraxılışları nəzərdə tutulub. Gələcəkdə ingilis dilində də efirin olması planlaşdırılır.

"İlk efirlərimizdən etibarən peşəkar komandamız və tanınmış aparıcılarımızdan ibarət heyətimizin təqdim etdiyi "Müzakirə vaxtı", bir-birindən maraqlı süjetlərimiz, Qərbi Azərbaycan mədəniyyətinə dair verilişlərimiz, soydaşlarımızın ağrı–acısını əks etdirən insan hekayələrimiz, o cümlədən həmin verilişlərin rus versiyası və "Время дискуссии" proqramları ilə son 200 ildə soydaşlarımızın, tarixi-mədəni abidələrimizin, toponimlərimizin üzləşdiyi haqsızlıq, eləcə də qarşıda dayanan geri qayıdış məqsədi və məramına dair zəngin efir izləmək imkanınız olacaq.

Qərbi Azərbaycana qayıdış yolunda addımlarımıza dəstək olmaq üçün yaradılan "Qərbi Azərbaycan TV" internet televiziyasına sizlərin də dəstək olmasını xahiş edir, təqdim olunan çox maraqlı və baxımlı verilişləri aşağıdakı linklərdən izləməyə dəvət edirik:

https://youtube.com/@QerbiAzerbaycanTV

https://twitter.com/qerbiazetv?t=EeeLyGJusWT_OZygDiHfKA&s=08

https://www.facebook.com/profile.php?id=100095259673458

https://instagram.com/qerbi.aze.tv?igshid=OGQ5ZDc2ODk2ZA==

https://www.tiktok.com/@qerbi.aze.tv?_t=8eQZu0Kh0Zb&_r=1

– deyə məlumatda bildirilib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

## Daşınmaz əmlak sahəsində tariflər azaldıldı

**Tarif (qiymət) Şurasının iyulun 31-də keçirilən növbəti iclasında daşınmaz əmlakın qeydiyyatı, texniki inventarlaşdırılması və kadastrı xidmətləri üzrə tariflər, həmçinin dərman vasitələrinin qiymətləri təsdiq edilib.**



Tarif Şurasının katibliyindən aldığımız məlumata əsasən, yeni tariflərlə bir sıra güzəştlər nəzərdə tutulub. Bu güzəştlər çərçivəsində şəhid ailəsi üzvlərinin, hərbi əməliyyatlar nəticəsində əlil olmuş hərbi qulluqçu və mülki şəxslərin daşınmaz əmlaklarına, işğaldan azad olunan ərazilərdə yerləşən daşınmaz əmlak obyektlərinə münasibətdə xidmət haqqına 50 faiz güzəşt tətbiq olunub. Bununla yanaşı, kənd təsərrüfatı, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar üzrə, eləcə də çoxmənzilli yaşayış binalarının inventarlaşdırılması üzrə tariflər azaldılıb. Sahəsi min kvadratmetrə qədər olan əmlakların tariflərində də azalma tətbiq olunub. Yeni tariflərə uyğun olaraq, qeyri-yaşayış sahələri üzrə xidmətlərdə xərclər azaldılıb.

Şuranın qərarına əsasən, tariflərin sayı 79-dan 60-a endirilib, qanunvericiliyə dəyişikliklər nəticəsində yaranmış yeni 9 xidmət üzrə tariflər müəyyənləşdirilib, 21 tarif mövcud səviyyədə saxlanılıb, xidmət göstərilmədiyi üçün 29 tarif ləğv edilib, 5 tarif alt qruplara keçirilərək ümumiləşdirilib.

Xidmət sayının optimallaşdırılması bir sıra istiqamətlər üzrə xidmət haqqının aşağı salınmasına və ya tamamilə ləğv edilməsinə imkan yaradıb. Həmçinin yaşayış sahələrinin qeyri-yaşayış sahələri hesabına çarpaz maliyyələşdirilməsinin aradan qaldırılması məqsədilə müvafiq tariflərə dəyişikliklər edilib.

Tarif Şurasının iclasda, həmçinin yeni dövlət qeydiyyatına alınan 95 dərman vasitəsinin qiyməti təsdiqlənib və etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyindən müvafiq rəy alınan 47 dərman vasitəsinin qiymətində isə Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli qərarı ilə təsdiqlənən Qaydalara və Tarif Şurasının 2015-ci il 21 iyul tarixli Qərarı ilə təsdiqlənən Təlimata uyğun dəyişikliklər aparılıb. Ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiyməti təsdiqlənən dərman vasitələrinin tam siyahısı Tarif Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib.

***"Xalq qəzeti"***

## Uqandada da "ASAN xidmət" mərkəzi açılıb



**Uqandanın Hoima şəhərində "ASAN xidmət" modeli əsasında fəaliyyət göstərəcək Dövlət Xidmətləri Mərkəzi açılıb.**

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti, Uqandanın dövlət xidmətləri naziri Vilson Muruli Mukasa və digər qonaqlar iştirak ediblər.

Uqandalı nazir Azərbaycan Prezidentinə və Dövlət Agentliyinə ölkəsində xidmət mərkəzlərinin yaradılmasına verdiyi dəstəyə görə təşəkkür edib. Ülvi Mehdiyev bu Uqanda tərəfinə təbrikləri çatdırıb və bundan sonra da "ASAN xidmət"in dövlət xidmətlərinin təkmilləşdirilməsində dəstəyini ifadə edib.

Xatırladaq ki, 2018-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Uqanda Respublikasının Dövlət Xidmətləri Nazirliyi arasında anlaşma memorandumu imzalanıb. Memorandumun məqsədi Uqandada dövlət xidmətlərinin göstərilməsi sisteminin təkmilləşdirilməsi, bu sahədə idarəetmə bacarıqlarının artırılmasıdır.

Hazırda "ASAN xidmət" təcrübəsinin paylaşılması istiqamətində 20-dən çox ölkə ilə əməkdaşlıq davam edir.

***"Xalq qəzeti"***

1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Ana dili milli varlığımızdır

(əvvəli 1-ci səhifədə)

Müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi də Ulu öndərin adı ilə bağlıdır. Belə ki, 1993-cü ildə Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra ana dili öz inkişafında yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, Ümummilli liderin ana dilimizə dəyişməz münasibətinin daha bir parlaq nümunəsi oldu. Bundan sonra dövlət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi.

yerdə Azərbaycan dilində danışıram. Qoy tərcüməçilər mənim danışdıqlarımı öz dilimdən tərcümə etsinlər. Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!"

Ümummilli liderin siyasi xəttini inamla davam etdirən Prezident İlham Əliyev tərəfindən son 20 ildə ana dilimizi qorumaq istiqamətində önəmli tarixi addımlar atılıb. Dövlətimizin başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası




Prezident Heydər Əliyevin 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı ilə 2001-ci il avqustun 1-dən Azərbaycanda bütün media və kütləvi nəşrlərin latın qrafikalı əlifbaya keçməsi rəsmiləşdirildi. Beləliklə, latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırıldı. Həmin sənəddə deyilirdi: "Millətin milliliyini saxlayan onun dilidir. Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır, bunlarsız isə vətənpərvərlik formulu yoxdur".

Dahi şəxsiyyətin 2001-ci il avqustun 9-da imzaladığı "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" Fərman ilə dilimiz qorunması və inkişafı baxımından yeni mərhələyə daxil oldu. 2003-cü il yanvarın 2-də isə Ulu öndər Heydər Əliyevin müvafiq fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərildi.

Göründüyü kimi, Ulu öndərin ana dilinə sevgisi, onun qorunması və zənginləşməsi ilə bağlı gördüyü işlər tariximizdə ciddi bir istisnalıq təşkil edir və hər bir soydaşımız üçün əbədi bir örnəkdir. Böyük rəhbər iftixarla deyirdi: "Mən hər

ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamına əsasən, hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanıb. Bundan başqa, həmin il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib.

Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Prezident İlham Əliyev "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq etməsi isə milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisəyə çevrilib. Dövlət Proqramı ilə Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinin gerçəkləşdirilməsi kimi məsələlər qarşıya mühüm vəzifələr kimi qoyulub.

Prezident İlham Əliyevin "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli Sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı isə ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir. Dil quruculuğu ilə bağlı olan bu sənəd Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi statusunun möhkəmlənməsi istiqamətində atılmış mühüm addımlardan biridir.

Ümummilli liderin ideyalarını bütün sahələrdə rəhbər tutan və dövrün tələblərinə uyğun gerçəkləşdirən Prezident İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə rəhbərinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşdi. Prezidentin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi reallaşdı.

Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" sərəncam oldu. Bu sərəncamların nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynadı.

Qeyd olunan bu sənədlər doğma dilimizə göstərilən yüksək səviyyəli dövlət qayğısını göstərməklə bərabər, ölkəmizdə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini etibarlı şəkildə reallaşdırır.

*B.VAQİF,*
*"Xalq qəzeti"*

## Serbiyanın "RTS" kanalı Ağdamdan reportaj yayımlayıb

**Reportajda Ağdamın Qarabağ iqtisadi rayonunun minalarla ən çox çirklənmiş şəhəri olduğu, minaların onilliklər sonra da təhlükə yarada biləcəyi bildirilir.**




Vurğulanır ki, müharibə başa çatsa da, regionda minalarla bağlı təhlükə bitmir. Qarabağ iqtisadi rayonunun ən böyük şəhəri olan Ağdamda həyatın yenidən bərpası üçün minatəmizləmə işləri fasiləsiz həyata keçirilir. 2020-ci ilin noyabrından bu vaxtadək on minlərlə mina və partlayıcı sursat məhv edilib. Bununla belə minatəmizləmə prosesi hələ uzun müddət davam edəcək.

"Təxmini vaxt demək çətindir. Çünki ərazi tamamilə minalarla çirklənib. Bəzi bölgələrin təhlükəli olmadığını düşünürsən, lakin qazmağa başlayanda minalarla rastlaşırsan və onların sayı gözlənilməndən çoxdur. Biz minatəmizləmə əməliyyatlarına başlayanda cəmi 40-a yaxın istehkamçı var idi. İndi isə maşınlardan və xüsusi təlim keçmiş itlərdən istifadə edən 250-dən çox insan ərazidə işləyir", - deyə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı Xaliq Zülfüqarov deyib.

Reportajda pilotsuz uçuş aparatları vasitəsilə yerin səthinə yaxın və ya yerdə olan partlayıcı qurğuların aşkarlandığı bildirilir, minatəmizləmə prosesinin isə illər çəkəcəyi qeyd olunur. Həmçinin vurğulanır ki, 2020-ci ildən indiyədək Qarabağda mina və partlayıcı qurğular nəticəsində həlak olanlar arasında hərbi qulluqçularla yanaşı, mülki şəxslər də var.

*"Xalq qəzeti"*

## "Ulduz" jurnalının yeni sayı

**Azərbaycan Yazıçılar Birliyinin orqanı olan "Ulduz" jurnalının iyul-avqust nömrəsi çapdan çıxıb.**




Oxucular dərgidə ilk olaraq Nigar Arifin özü ilə söhbətini və şeirlərini oxuyacaqlar. "Nəsr" rubrikasında Alpay Azər, Məmməd Məmmədli, Könül Məmmədova, Murad Köhnəqala, Mahir Rəsuloğlu, Vüsal Bağırlının hekayələri, Ayna Əhmədli və Arzu Muradın silsilə esseləri təqdim olunur. Bu rubrikada, həmçinin Mir Cəlal Paşayevin anadan olmasının 115 illiyinə həsr edilmiş hekayə müsabiqəsi qaliblərinin ədəbi nümunələri də yer alıb.

Nəsrin "Şeir vaxtı", "Yazı masası", "Gənc yazarlar üçün nəzəriyyə dərsi", "Sələf-xələf" rubrikalarında maraqlı materiallar verilib.

"Dərgidə kitab"da Əvəz Qurbanlının şeirləri, "Dərgidə sərgi"də isə qrafik-rəssam Mayis Həsənlinin əsərləri təqdim olunub.

*"Xalq qəzeti"*

Teatrın yubiley töhfəsi

**C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı "Heydər Əliyev İli" münasibətilə respublika miqyaslı qastrol səfərləri həyata keçirib. Şəhər və rayonlarda keçirilən görüşlərdə kollektiv Ulu öndərin zəngin və mənalı həyatına, onun siyasi fəaliyyətinə, azərbaycançılıq və dövlətçilik məfkurəsinin gerçəkləşməsi uğrunda mübarizəsinə həsr olunmuş "Nurlu ömrün anları" tamaşası nümayiş etdirilib. Səhnə əsərinin müəllifi Əməkdar mədəniyyət işçisi, şair-dramaturq İftixar Piriyevdir.**

# "Nurlu ömrün anları" ölkəni dolaşır



İftixar Piriyevin yaradıcılığı çoxşaxəlidir. O özünü bir şair, dramaturq və publisist kimi də təsdiqləyib. İstedadlı qələm sahibi "Yaşadığım bu ömür" və "Nə qəribə yuxuymuş" şeirlər toplusunun, Ümummilli liderə həsr olunmuş "Böyük Turanın himni" və "Müstəqil vətənin memarı" poemalarının, eləcə də "Dan yeri söküləndə", "Körpü", "Məngənə və ya kor aşığın işığı", "Eşqin tikan dairəsi", "Qarışqalar yuvanı dəyişmir", "Arı yuvası", "İşıqlı, nurlu sabah" və digər pyeslərin müəllifidir.

İftixar Piriyevlə İrəvan Dövlət Azərbaycan Dram Teatrının qarşısında görüşdük. Tikilini göstərib "Axır ki, bizim teatrın da öz binası olacaq"- dedi. Binada hələ təmamlama işləri aparıldığından yaxınlıqdakı ofislərində söhbət etdik.

**– İftixar müəllim, bədii yaradıcılığınızla yanaşı, siz teatra rəhbərlik edir, həm də aktyorluq edirsiniz. Bu nədən qaynaqlanır, necə çatdırırsınız?**

– Hələ uşaq yaşlarımdan, orta məktəbdə oxuduğum illərdən incəsənətə marağım var idi, hekayələr yazırdım, rəsmlər çəkirdim. Bir çox natürmotlarım var idi. Çəkdiyim rəsmlər məktəbin divar qəzetinə yerləşdirilirdi. Sonra incəsənət təhsili aldım, aktyorluq fəaliyyətim başladı. Bundan da əvvəl bir təsadüf öz sözünü demişdi. Mən Gürcüstanda anadan olmuşam. Gürcülər hər il müxtəlif bölgələrdə dostluq konsertləri keçirirdilər. Bir dəfə də bu konsertlər kəndimizdə keçirilirdi. Teatr heyəti qaravəllilər hazırlayırdı. Mən rəqs qrupunda idim. Öz məşqlərimiz bitdikdən sonra aktyorların məşqlərini də maraqla izləyirdim. Konsert günü elə oldu ki, rollardan birinin ifaçısı gəlmədi. Heyət təəssüf hissi keçirirdi və artıq tamaşanın baş tutmayacağı ilə barışmışdı.

Mən hadisədən xəbər tutduqda aktyorlarla danışıb rolu oynaya biləcəyimi dedim. Onlar məşq etmədiyimi, buna görə də rolu oynaya bilməyəcəyimi dedilər. Mən isə bütün məşqlərə baxdığımı və rolu bildiyimi deyib onları razı saldım. Beləliklə aktyorluq sahəsində ilk addımımı atdım, çox da uğurlu alındı. Sonralar bu həyətlə bir neçə tamaşada səhnəyə çıxdım.

**– Teatr tariximizdə ilk dəfə Heydər Əliyev obrazını siz canlandırmısınız. Bu məsuliyyətli işin öhdəsindən necə gəldiniz?**

– Dahi rəhbərin obrazını yaratmaq hər bir aktyordan böyük məsuliyyət tələb edir. Bu ali missiya daşıyıcısı, dolğun imkanlara malik olan obraz üzərində yaradıcılıq prosesi həm bir insan, həm də bir sənətçi kimi mənəvi dünyamı zənginləşdirir. Düşünürəm ki, mən bu prosesdə üzərimə düşən məsuliyyətin ciddiliyini çox yaxşı dərk etdim və bu işin öhdəsindən layiqincə gəlməyə çalışdım. Heydər Əliyev obrazını canlandırdığıma görə Gürcüstanın prezidenti, Ulu öndərin dostu Eduard Şevardnadze xoş sözlər demişdi. Bizim Tbilisidəki tamaşalarımızdan birini o da izləmişdi. Tamaşadan sonra bizimlə görüşüb tamaşa haqqında yüksək rəyini bildirdi. Bizi evinə qonaq da dəvət etdi. Orada Ulu öndər haqqında dəyərli fikirlər səsləndirdi, vurğuladı ki, Heydər Əliyev təkcə Azərbaycanın yox, bütövlükdə Qafqazın lideridir.

**– Builki qastrol səfərləriniz necə keçdi?**

– Bu il Heydər Əliyevin 100 illiyi münasibətilə biz Mədəniyyət Nazirliyinin xətti ilə rayonlara qastrol səfərləri təşkil etmişik. İlk olaraq 18, daha sonra 16 rayonda "Nurlu ömrün anları"nı oynadıq. Çıxışlarımız tamaşaçılar tərəfindən çox möhtəşəm qarşılandı. Bu qastrol çərçivəsində tamaşaçıların dahi şəxsiyyətə olan sevgisinin hüdudsuzluğunun şahidi oldum. Tamaşa Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsinə gəldiyi ildən 2003-cü ilə qədər olan dövrü əhatə edir. Sonda hadisələr ikinci mərhələyə keçir, – estafet möhtərəm Prezident İlham Əliyevə ötürülür. Bu hissədə "Ucal" marşı bütün iştirakçıların ifasında xor şəklində oxunur. Bu zaman bütün salon ayağa qalxır, alqışlarla sona qədər marşı müşayiət edir. Bu hadisə bir qayda olaraq bütün tamaşalarımızda təkrarlanır. Həmin mənzərənin yaratdığı ruh yüksəkliyi kollektivimizin ən böyük mükafatıdır.

**– Rəhbərlik etdiyiniz İrəvan Dövlət Azərbaycan Dram Teatrının mövcudluğunu uğurla davam etdirməsi, əslində Qərbi Azərbaycana qayıdış missiyasına layiqli töhfədir, soydaşlarımızda böyük ümidlər yaradır.**

– Bizim teatr daim dövlətimizin diqqət mərkəzində olub. Hələ sovet dövründə teatrın İrəvan şəhərində fəaliyyət göstərdiyi vaxtlarda Heydər Əliyev öz qayğısını kollektivdən əsirgəməyib. İlk dəfə 1928-ci ildə dövlət statusu alan teatr 1951-ci ildə bağlanmışdı, 1967-ci ildə öz fəaliyyətini bərpa etdi. Mənfur qonşularımız həmişə bu incəsənət ocağının fəaliyyətinə mane olmağa çalışırdılar. 1978-ci ildə bu sənət ocağının dövlət statusu almasının 50 illik yubileyi qeyd edilməli idi. Ermənilər bunun əleyhinə çıxır və yubileyi keçirməkdən imtina edirdilər.

Bunu bilən ulu öndər Heydər Əliyev teatrın 50 illik yubileyinin Azərbaycanda qeyd edilməsinə qərar verib və teatrı bir aylıq Bakıya dəvət edib. Yalnız bundan sonra ermənilər faktın yuxarı instansiyalara çatdığını anlayıb geri addım atdılar. Beləliklə, 50 illik yubiley həm İrəvanda, həm də Bakıda keçirilib. Burada teatrın o vaxtkı rəhbəri Hidayət Orucovun da çox böyük zəhməti var.

Bu hadisədən sonra teatrın bir çox əməkdaşına fəxri adlar verildi. 1980-ci illərin sonlarında məlum hadisələrdən sonra İrəvan Teatrı da Ermənistandan deportasiya edildi. Bundan sonra teatr Akademik Milli Dram Teatrının tərkibində fəaliyyətini davam etdirdi. Ulu öndər hakimiyyətə gəldikdən sonra 1994-cü ildə kollektivə müstəqil Azərbaycanın dövlət teatrı statusu verildi.

Bu gün də dövlətimiz bu teatra hərtərəfli qayğı göstərir. Təkliflərimiz qəbul olunur, səfərlərimizin xərcləri qarşılanır, tamaşalarımıza vəsait ayrılır. Yeni binaya köçməyimiz nəzərdə tutulub, hazırda orada son tamamlama işləri gedir. Bununla da uzun illərdən sonra teatrımız öz binasında fəaliyyətə başlayacaq. Yeganə problemimiz bu idi, o da həll olunur. İnanırıq ki, fəaliyyətimizi bir gün İrəvanda davam etdirəcəyik.

**– Maraqlı söhbətə görə sağ olun!**

**Rüfət MƏHƏRRƏMOV**



Baxış bucağı

# İqlim dəyişmələri bəşəriyyəti təhdid edir

**Qlobal iqlim dəyişmələri bugünümüzün reallığıdır və onun ağır fəsadları artıq planetimizin çox yerində insanların həyatını təhdid edir. Demək olar ki, elə bir gün olmur ki, KİV-də Yer kürəsinin hansısa bir guşəsində insanları heyrətə, bəzən də vahiməyə salan ağır təbiət hadisələri barədə xəbərlər yer almasın.**

Bir vaxtlar bu problemin mövcudluğuna şübhə ilə yanaşanların çoxu hazırda vəziyyətin ciddi olduğunun fərqindədir. Təkcə son iki gündə baş verən iki təbiət kataklizmini xatırlatmaq yerinə düşər. Dünən "Doxuri" tropik qasırğası Filippini cənginə alıb və burada ölənlərin sayı artıq 25-ə çatıb, daha 20 nəfər itkin düşüb.

Qeyd edək ki, Filippində daha əvvəl 13 nəfərin öldüyü barədə məlumat yayılmışdı. Fırtına, əsasən, arxipelaqın ən böyük adasına - Luzona təsir edib. Güclü qasırğa elektrik xətlərinə ziyan vurub və torpaq sürüşməsinə səbəb olub.

Filippin rəsmiləri qasırğa ilə bağlı 260 mindən çox insanın evlərini tərk etdiyini, bəzilərinin təxliyə mərkəzlərində olduğunu bildirib. Təxminən 36 evə ziyan dəyib və ya dağılıb. Fırtına nəticəsində ölkənin hava limanlarında 85 reys təxirə salınıb.

İki gün əvvəl isə Yaponiyada Kanun qasırğasının ölkənin cənub bölgələrinə yaxınlaşması ilə əlaqədar ən azı 264 aviareys təxirə salınıb. Meteoroloqların proqnozlarına görə, bu bölgədə güclü yağış da gözlənilir. Yaxın günlərdə 100 mm-dən çox yağıntı düşə bilər. Məlumdur ki, "Gündoğar ölkə" təbiətin şıltaqlıqlarından ən çox əziyyət çəkən məkanlardan biridir.

Planetimizdə baş verən anomal proseslərlə bağlı vəziyyət o yerə çatıb ki, ABŞ Dövlət katibi Entoni Blinken iqlim dəyişmələrini nüvə müharibəsi ilə müqayisə edib. Amerikalı diplomat bugünlərdə sözügedən məsələ ilə bağlı jurnalistlərin suallarına cavab verərkən bildirib ki, nüvə müharibəsi təhlükəsi heç də dünyada iqlim dəyişikliyi problemlərindən daha təhlükəli deyil. "Mənə elə gəlir ki, hansısa iyerarxiyadan danışmaq mümkün deyil. Potensial münaqişə də daxil olmaqla diqqət mərkəzində olan bəzi şeylər var. Lakin şübhəsiz ki, iqlim dəyişikliyi hamımız üçün ekzistensial problem yaradır", - deyə E.Blinken qeyd edib.



Bəli, bu gün hər birimizi narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. Mütəxəssislərin hesablamalarına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Şimal qütbündə və Antarktidada nəhəng buzlaqların sürətlə əriməsinin əsas səbəbi məhz budur. Temperaturun artması isə, əsasən, antropogen amillərlə bağlıdır.

Antropogen amillərin əsasını istilik effekti yaradan qazlar: karbon, metan, azot oksidi, azot bir oksid və xlor-fülor birləşmələr təşkil edir. Son bir əsrdə kosmik Yer kürəsində sel, daşqın hadisələrinin sayı kəskin artıb. Okeanın səthi əvvəllər min metr dərinliyə qədər qızırdısa, artıq qızma iki min metr dərinliyə qədər çatır. Bu da isti axınların daha da qızmasına səbəb olur. Yəni, bütün bu təbii fəlakətlərin artımında əsas amil iqlim dəyişmələridir.

Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Hesablamalara görə, son bir əsrdə ölkəmizin ərazisində orta illik temperaturlar 0,4-1,3C-yə qədər artmışdır. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son onilliklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artmışdır.

Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulmuş və Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiq edilmişdir. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin ikinci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmiş və ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanmışdır.

**P.S.** Qəzetimiz çapa hazırlanarkən məlum oldu ki, Çin hökuməti paytaxtda yağan aramsız leysan yağışların səbəb ola biləcəyi daşqın təhlükəsi ilə bağlı təcili tədbirlər görür. Pekinin təhlükəli ərazilərindən 31 mindən çox insan təxliyə edilib.

Yerli meteorologiya xidmətinin məlumatına görə, sutka ərzində paytaxtın Fanşan rayonuna 350 millimetr yağıntı düşüb. Əlverişsiz hava şəraiti ilə əlaqədar Pekinin Şoudu beynəlxalq hava limanında 92 aviareys ləğv olunub.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Ekspert rəyi

**Səid SƏFƏROV,**
**AMEA-nın Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru**



– Həqiqətən, qlobal istiləşmə və onunla əlaqədar müasir iqlim dəyişmələri yaşadığımız dövrdə bəşəriyyəti narahat edən ən əsas problemlərdən biridir.

Alimlər bu qənaətdədirlər ki, sənayeləşmə dövründən başlayaraq yanacağa (neft, daş kömür, təbii qaz və s.) olan tələbatın durmadan yüksəlməsi ilə əlaqədar atmosferə atılan karbon qazının miqdarı kəskin artaraq son dövrlərdə təhlükəli həddə çatmışdır. Bunun nəticəsində Yerin şüalandırdığı uzundalğalı enerjinin getdikcə daha böyük hissəsi atmosferdəki karbon qazı və digər istilik effekti yaradan qazlardan geriyə əks olunur ki, bu da Yerin istilik balansını pozaraq qlobal istiləşməyə səbəb olur.

Məlumat üçün bildirək ki, BMT-nin İqlim dəyişmələri üzrə hökumətlərarası ekspertlər qrupunun 2022-il avqustun 9-da Cenevrədə yaydığı sonuncu 6-cı hesabatına əsasən, 1850-1900-cu illərlə müqayisədə Yer kürəsinin orta illik qlobal temperaturu 1,1-1,2 dərəcə artıb. Müasir iqlim ssenarilərinə əsasən, yaxın onilliklərdə qlobal temperatur artımının 1,5, hətta 2 dərəcəyə çatacağı gözlənilir. Temperaturun artması ilə planetin bütün iqlim şəraiti də dəyişir – ekstremal təhlükəli hadisələrin təkrarlanması artır, təbii zonaların yerdəyişməsi baş verdiyindən bitki və heyvanlar məhv olur.

Qlobal istiləşməni məhdudlaşdırmağın yeganə yolu dünyanın enerji balansında bərpaolunan enerjinin (külək, günəş və s.) xüsusi çəkisini kəskin artırmaqla, atmosferə atılan karbon qazı və digər istixana qazlarının miqdarının azaldılmasıdır. Bununla yanaşı, qlobal temperaturun dəyişməsinə dünya okeanında baş verən irimiqyaslı proseslər də nəzərəçarpacaq təsir göstərir. Bunlardan biri Sakit okeanın ekvatorial ərazilərində vaxtaşırı müşahidə olunan "La Nino" və onun əksi olan "El Nino" hadisələridir.

"La Nino" baş verdiyi zaman Sakit okeanının tropik və xüsusilə də ekvatorial hissəsində nisbətən isti səth axınları şərqdən qərbə doğru hərəkət edərək Cənubi Amerikanın qərb sahillərində (Peru və Ekvador) "apvelling" hadisəsinə, yəni nisbətən soyuq dərinlik sularının səthə qalxmasına səbəb olur. Suyun temperaturunun kəskin artması buradakı canlılar üçün əlverişsiz şərait yaratmaqla yanaşı, intensiv yağıntılara, qasırğalara və daşqınlara səbəb olur.

Son 3 ildə aktiv olan "La Nino" zəifləməkdə və öz yerini "El Nino"ya verməkdədir. Bununla əlaqədar dünya alimləri 2024-cü ildə qlobal temperaturun "El-Nino" səbəbindən daha 0,2 dərəcə artacağını, tropik və ekvatorial zonada yağıntıların azalmasını, quraqlığı və Avropanın şimalında qış aylarında şiddətli soyuqların olacağını proqnozlaşdırırlar.

Beynəlxalq həyat

# Hindistan güc dünyasında fayda axtarır

**Rusiyanın "Nezavisimaya gazeta" nəşrində Hindistanın xarici siyasətinə həsr olunmuş analitik material dərc olunub. Dehlinin son zamanlar Cənubi Qafqaz regionuna yönəlik siyasəti fonunda həmin materialın aktuallığını nəzərə alaraq məqalənin tərcüməsini diqqətinizə çatdırırıq.**



Dehli yeni mürəkkəb çoxşaxəli geosiyasi xətt axtarır və qalib gəlməyə çalışır.

Bu gün tamamilə aydındır ki, dünyada Rusiya–Ukrayna münaqişəsi kontekstində qüvvələr balansının dəyişdirilməsi üçün güclü proses başlanıb.

Anti-Rusiya sanksiyalarının görünməmiş miqyası "qloballaşmış iqtisadiyyat" adlanan iqtisadiyyatın əhəmiyyətli transformasiyasına səbəb olub. Qloballaşmanın sürətlə parçalanması yeni mənfəət mərkəzlərini, ənənəvi iqtisadi, maliyyə və investisiya əlaqələrinin məhv edilməsinin yeni benefisiarlarını üzə çıxardı.

Bunun fonunda Hindistanın və onun baş naziri Narendra Modinin xarici siyasət/xarici iqtisadi sahədə fəaliyyəti diqqəti cəlb edir.

Bir tərəfdən, Modi Hindistanın Hind-Sakit okean regionunda yeni rolunu düzəltmək, digər tərəfdən isə, indiyə qədər BRİKS formatında qlobal Cənub üçün mayaklardan birinə çevrilmək istəyir. Modi son bir ay ərzində ABŞ (20-23 iyun), Misir (24-25 iyun) və Fransaya (13-15 iyul) səfər edib.

Vaşinqtonda Modini ən yüksək səviyyədə qarşıladılar. Cozef Bayden texnoloji inkişaf və müdafiə sahələrində görünməmiş səviyyədə tərəfdaşlıq vəd etdi. Görüşün üzərində Çinin kölgəsi dolandı. Amerikalılar aydın mövqeyə haqq qazandırmaq istəyirdilər: Pekin bu sahələrdə Dehlinin tərəfdaşına çevrilməməlidir. Yalnız Vaşinqton olmalıdır.

Danışıqların əsas mövzusu ABŞ–Hindistan ikitərəfli münasibətlərinin "21-ci əsrə ümid, ambisiya və inamla baxan demokratik dövlətlərin tərəfdaşlığı" ideyası olub. Bayden Modiyə əsas mesajı çatdırmağa çalışıb: ABŞ üçün Hindistan Çin iqtisadiyyatına əsas alternativdir. Vaşinqton təkcə Hindistanın iqtisadi artımına üstünlük vermir, həm də qlobal dəyər zəncirlərindəki strateji əlaqələri dost Asiya ölkəsinin ərazisinə köçürməyi planlaşdırır.

Modinin Qahirəyə səfəri qlobal Cənubun mövqelərini gücləndirmək üçün Misirlə siyasi əlaqələri gücləndirmək məqsədi daşıyıb. Dehli, təbii ki, Cənubu Pekinin hakimiyyətinə vermək istəmir. Məhz Çinin inkişaf etməkdə olan ölkələrə təsirini tarazlaşdırmaq üçün Modi Misir Prezidenti Əl-Sisiyə ölkənin BRİKS-ə qoşulmaq istəyinə dəstək zəmanəti verdi. Pakistan da BRİKS-ə tələsir ki, bu da Dehlidə ruh yüksəkliyi yaratmır.

Parisdə Modi və Makron Hind–Sakit okean regionunda strateji tərəfdaşlıq məsələlərini müzakirə ediblər. Ekspertlər qeyd edirlər ki, 2014-cü ildən Modi yeddinci dəfə Parisə səfər edir. Çox vaxt o, yalnız Vaşinqtonu ziyarət edirdi.

Fransa Hindistana Rusiyadan sonra ikinci ən böyük silah tədarükçüsüdür. Makron isə Hindistanın silah bazarındakı payını artırmaq istəyir.

Makronun Avropanın təkcə ABŞ-a güvənmədən öz təhlükəsizliyinin qayğısına qalması zərurəti ilə bağlı iddialı bəyanatlarını xatırlasaq, o zaman etiraf etmək lazımdır ki, Paris danışıqlarının məqsədlərindən biri də ABŞ–Çin qarşıdurmasının xüsusiyyətlərini nəzərə almadan Hind–Sakit okean regionunda "köhnə dünya"nın muxtar mövqelərini yaratmaq idi.

Hindistanın da maraqları aydındır. Fövqəldövlət statusuna doğru gedən Dehli Rusiyadan silah tədarükündən asılılığı azaltmağa çalışır. Modinin buna 2024-cü il seçkiləri ərəfəsində ehtiyacı var. Onlara Hind–Sakit okean regionunun hamılıqla tanınan super gücü kimi yanaşmaq Hindistan cəmiyyətinin Modi ətrafında konsolidasiyasında ən mühüm amildir.

Tamamilə aydındır ki, Hindistan indi Rusiya–Ukrayna münaqişəsinin nəticələrindən aşkar faydalalan ölkələrdən biridir. Eyni zamanda, Dehli, həm Hind–Sakit Okean regionunda (Çini ehtiva edir), həm də qlobal Şimal və qlobal Cənub arasında münasibətlərin yeni konfiqurasiyasında güc və münasibətlərin yeni balanslarını nəzərə alır.

Şübhəsiz ki, Hind–Sakit okean regionu gözlərimiz önündə təkcə qlobal iqtisadi, biznes və ticarət fəaliyyəti mərkəzinə deyil, həm də hərbi-strateji qarşıdurmanın həssas mərkəzinə çevrilir. NATO-nun Vilnüsdəki sonuncu sammitində Yaponiya, Cənubi Koreya, Yeni Zelandiya və Avstraliyanın baş nazirləri görkəmli və diqqətçəkən şəxsiyyətlər idi. Bundan əlavə, NATO-nun baş katibi Yens Stoltenberq Asiyadan olan tərəfdarları alyansın fəaliyyətinə cəlb etmək üçün səylər göstərir. Bu cür tədbirlərin məqsədi NATO-nun regionda məqsədlərinə uyğun etibarlı tərəfdaş konfiqurasiyaları yaratmaqdır. Çinə qarşı müxalifət ittifaqı Çin sərhədləri yaxınlığında mövcudluğunu artırmağa sövq edir. Son təşəbbüslərdən Yaponiyanın baş naziri Fumio Kişidanın Tokioda NATO ofisinin açılması təklifini qeyd etmək yerinə düşər. Təbii ki, Çin buna qarşıdır.

Hindistanın böyük siyasətinin bütün bu incəliklərində kiminsə milli maraqları üzərində büdrəməmək üçün təfərrüatları başa düşmək lazım gələcək. Dünyanın sürətlə dəyişən mənzərəsi özünün uzunmüddətli maraqlarına və faydalarına ayıq strateji baxış keçirmək qabiliyyətini nəzərdə tutur. Təbii ki, Vaşinqtonda "dənizlərdən ulduzlara qədər" uzanan strateji tərəfdaşlıq haqqında sözlər deyiləndə adamın başı gicəllənir. Strateji tərəfdaşlığın sektorlarının siyahısı isə təsiredicidir: yarımkeçiricilər, kvant hesablamaları, süni intellekt, müdafiə sənayesi, təmiz enerji. Hamısı gələcəyə yönəlib. Və bildiyiniz kimi, gələcəyə ümumi baxış ümumi keçmişdən, bəzən mifikdən qat-qat güclü birləşir. İnsanın təbiəti belədir. Müasir insanın təbiəti.

Qüvvələr, vasitələr, ideyalar və imkanların qlobal şəkildə yenidən balanslaşdırılması kontekstində Hindistan nümunəsi maraqlı və ibrətamizdir. Və diqqətli öyrənmə tələb edir.

***Hazırladı:***
***S.ELAY, "Xalq qəzeti"***

Şahidlər

# Soyadı səhvən şəhid olanların siyahısına düşmüşdü…

**Ramiq Raqif oğlu Əsgərov ehtiyatda olan leytenant kimi sentyabrın 28-dən təlimlərə qatıldı, sonra Talış–Suqovuşan istiqamətindəki döyüşlərdə özünü bacarıqlı zabit kimi göstərdi, erməni postlarının alınmasında, onların müdafiəsində iştirak etdi. Soyadı səhvən şəhid olanların siyahısına düşdü, lakin sağ qalmağı bacardı və dekabrın 28-də baş leytenant kimi sağ-salamat evinə qayıtdı.**



***"Cəsur, vətənsevər, peşəkar zabitin rəhbərliyi altında xidmət etmişəm".***

Ramiq Əsgərov 2011-ci ilin iyununda hərbi xidmətə çağırılıb. Beyləqanda xidmətdə olan vaxt "Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət edib. Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasının qərarına əsasən, hərbi xidmətə yararlı hesab edilərək qəbul imtahanlarına buraxılıb. "Ehtiyat zabit hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vurduqdan sonra ona leytenant hərbi rütbəsi verilib: "Artıq 2011-ci ilin oktyabr ayından leytenant rütbəsində Daşkəsəndə "N" saylı hərbi hissədə xidmət edirdim. Həmin vaxt hərbi hissənin komandiri Polad Həşimov idi. Fəxr edirəm ki, onun kimi cəsur, vətənsevər, peşəkar zabitin rəhbərliyi altında xidmət etmişəm. Mərd zabit idi, hərbi hissədə böyük hörməti vardı, ədaləti və tələbkarlığı ilə seçilirdi, nizam-intizama önəm verirdi. 2013-cü ilin aprel ayında ehtiyata buraxıldım".

Daha sonra Ramiq Əsgərov Vətən müharibəsinə yollanmasından danışıb: "Sentyabrın 27-də Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Xətai Rayon İdarəsindən zəng edib bildirdilər ki, təlimlərə qatılmalıyam.

Anası Rahilə xanım söhbətə qoşulur: "Ramiqin 3 azyaşlı uşağı var. Düşünürdüm ki, onlara görə oğluma müəyyən güzəştlər – möhlət hüququ verilə bilər. Amma Ramiq güzəşt söhbətini heç eşitmək istəmirdi, söhbət düşəndə əsəbləşirdi, hökmən "müharibədə iştirak edəcəyəm"- deyirdi.

Oğlumu yola salmaq istədim:

– Heç olmasa səni özüm döyüş bölgəsinə yola salım!

Razı olmadı, evə qayıtdım. Əllərimi qaldırıb dua etdim, Allahdan sağ-salamat qayıtmasını dilədim. Bir də baxdım ki, 3 uşaq da əllərini qaldırıb mənimlə birlikdə dua edir.

…Ramiq Əsgərov bir neçə gün Ağcakənd və Bərdədə olur. Mingəçevirdə təlimlərə qatılır, sonra Tərtər rayonunun Evoğlu kəndində könüllülərin döyüş hazırlığında iştirak edir.

"Oktyabrın 12-dən döyüşlərdə iştirak etdim. İlk dövrlərdə düşməndən azad olunan postlarda yerləşir, onları əks-hücumlardan qoruyurduq. Döyüşlərdən birini heç unuda bilmirəm, 23 şəhid və yaralı bu gün də gözümün qabağındadır, bəzən yuxuma da girir. "Tülkü dərəsi" adlanan yer var. Orada ermənilərin irili-xırdalı bir neçə postu yerləşirdi. Döyüş tapşırığına əsasən "Tülkü dərəsi" düşməndən təmizlənməli və biz orada möhkəmlənməli, sonrakı əmri gözləməli idik. Ermənilər bizim mövqeyi top və minaatanlarla atəşə tutdu. Və mərmilərdən biri əsgərlərin topa halda olduğu yerə düşdü. Partlayış nəticəsində bədənlərin paramparça olmuş müxtəlif hissələri ətrafa səpələnmişdi. Onları bir yerə yığmalı olduq. Bunun üçün buşlatımı çıxarıb yerə sərdim və bədən hissələrini torpağın üstündən yığıb Bərdə hərbi hospitalına göndərdik", – Ramiq Əsgərov deyir.

Bərdə hospitalında isə buşlatın sahibinin də həlak olduğunu düşünüb, onun üzərindəki soyadı şəhid olanların siyahısına salırlar.

"Həmin vaxt hospitalda xalam qızı Sevilin həyat yoldaşı Rəşad Guvalov könüllü həkim kimi xidmət edirdi. Səhər şəhid olanların siyahısına baxarkən tanış soyada rast gəlir, ilk əvvəl buna o qədər də fikir vermir, siyahı olan lövhədən bir neçə addım uzaqlaşır. Sonradan yenidən geri qayıdıb dəqiqləşdirmə aparır. Siyahıda şəhid olanların arasında Ramiq Əsgərov ad və soyadının olması şübhələrinə son qoyur və həyat yoldaşına zəng edir.

– Alo, Sevil, de görüm, Ağdərə istiqamətində döyüşlərdə iştirak edən qohumunun ad, soyadı Ramiq Əsgərovdur?

– Hə! Niyə soruşursan?

– Şəhidlərin siyahısında rast gəlmişəm.

Sevil Guvalova deyir: "Ramiqin adını eşidəndə necə çığırıb özümdən getmişəmsə, xəbərim olmayıb. Oyananda ətrafımda iş yoldaşlarımın toplaşdığını gördüm. Rəşad yenidən zəng edib əhvalımı soruşdu və Ramiqin telefon nömrəsini istədi.

– Ramiqin telefon nömrəsini göndər. Zəng edib, hadisənin necə baş verdiyini dəqiqləşdirim.

Telefon nömrəsini mesajla göndərdim və səbirsizliklə cavabını gözləməyə başladım. Hər dəqiqə mənim üçün əzabla, narahatlıqla keçdi".

Rəşad Guvalov hadisə ilə bağlı məlumat almaq məqsədilə həmin telefon nömrəsinə zəng edir:

– Kiminlə danışıram?

– Sizinlə danışan Ramiqdir.

– Ramiq, salam! Şükür Allaha, sağ-salamatsan, çox narahat olduq. Sənin adın divara vurulmuş şəhidlər siyahısına necə düşüb?

– Siyahıda mənim də adım var? Bu necə olur? .... Hə, yadıma düşdü, hərbçilərimizin yanına mərmi düşmüşdü, şəhid olanlar vardı, mənim buşlatıma bədən hissələri yığılmışdı və o halda da hərbi hospitala göndərilmişdi. Görünür, buşlata görə mənim də şəhid olduğum qənaətinə gəliblər.

Bundan sonra Rəşad Guvalov həyat yoldaşına zəng edib Ramiqin sağ-salamat olduğu xəbərini verir. Bu hadisədən isə Ramiqin valideynlərinin xəbəri olmur, onlara bu haqda sonradan, oğulları evə, ailəsinə sağ-salamat qayıtdıqdan sonra məlumat verilir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# Cəlilabadın baş memarı və bələdiyyə sədri saxlanıldı

**Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Cəlilabad Rayon İcra Hakimiyyətində əməliyyat keçirir.**

Əməliyyat nəticəsində Cəlilabad Şəhər Bələdiyyəsinin sədri və rayonun baş memarı Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanılıb.

Baş Prokurorluqdan bildirilib ki, əlavə məlumat veriləcək.

**"Xalq qəzeti"**

# FHN-in Cənub Regional Mərkəzində təlim

**Fövqəladə Hallar Nazirliyi Cənub Regional Mərkəzinin təşkilatçılığı ilə Lənkəran şəhərinin Xəzər dənizi sahilində "Su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması" mövzusunda təlim keçirilib.**




Təlimin keçirilməsində əsas məqsəd xilasedicilərin suda boğulma halları ilə bağlı xilasetmə əməliyyatları, habelə ilkin yardımın göstərilməsi üzrə praktiki vərdişlərinin daha da təkmilləşdirilməsi olub.

Təlimdə FHN-in Cənub Regional Mərkəzi və Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasediciləri iştirak ediblər.

Şərti olaraq baş vermiş suda boğulma hadisəsi zamanı xilasedicilər zərərçəkmişləri "xilas edərək" ilkin yardım göstərib, habelə "suda boğulmuş şəxsin cəsədi çıxarılaraq aidiyyəti üzrə təhvil verilib".

***Səadət RZAYEVA,***
***"Xalq qəzeti"***

Sosial xəbərlər

# Ekoloji problemlər və uşaqların sağlamlığı



**BMT Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə ölkəmizdə ətraf mühit amillərinin uşaqların sağlamlığına təsirinə dair vəziyyətin təhlilinə həsr olunmuş dəyirmi masa keçirilib.**

UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Haykens vurğulayıb ki, iqlim dəyişikliyi, bunun uşaqlara təsiri və ətraf mühit sağlamlığına aid məsələlər təmsil etdiyi təşkilatın fəaliyyətinin prioritet sahələrindən biridir. Onun sözlərinə görə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin dəstəyi ilə 2023-cü ilin mart–iyun aylarında bir qrup milli ekspert tərəfindən ölkəmizdə uşaqların ətraf mühit amilləri ilə bağlı sağlamlıq məsələlərinə dair çevik qiymətləndirmə aparılıb: "Nəticələri, o cümlədən müvafiq problemlərin potensial həlli yollarını müzakirə etmək üçün dəyirmi masa təşkil olunub".

Tədbirdə çıxış edən səhiyyə nazirinin müavini İlqar Qasımov dəyirmi masanın əhəmiyyətli mövzuya həsr edildiyini vurğulayıb. Bildirib ki, Səhiyyə Nazirliyi vətəndaşların sağlamlığına yanaşmada praktiki mövqeyin tərəfdarı və təşviqatçısıdır. Əhalinin sağlamlığının qiymətləndirilməsi ictimai səhiyyənin əsas istiqamətlərindən biridir. Bundan başqa, o, ekoloji təhlükələrin nəinki uşaqlara, ümumiyyətlə, insan sağlamlığına birbaşa və dolayı təsirlərindən də bəhs edib.

Dəyirmi masada Azərbaycan Tibb Universitetinin uşaq - yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri Şəhla Balayeva, nazirliyin mütəxəssis-eksperti, Azərbaycan Pediatriya Cəmiyyətinin sədri Erkin Rəhimov, ATU-nun I daxili xəstəliklər kafedrasının dosenti, Azərbaycan Toksikoloqlar Dərnəyinin sədri İsmayıl Əfəndiyev və digərləri çıxış ediblər. Aparılmış təhlillərin nəticələri – əsas ekoloji problemlər, səhiyyə sisteminin təhlili, uşaqların ətraf mühit təhlükələrinə məruz qalması, havanın çirklənməsi və digər amillərlə bağlı təqdimatlar edilib və müzakirələr aparılıb.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# Diabetli yeniyetmələr İsrailə göndərilib

**Səhiyyə Nazirliyində İsraildə təşkil olunan yay düşərgəsinə yollanacaq şəkərli diabetdən əziyyət çəkən yeniyetmələrlə görüş keçirilib. Tədbirdə İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik iştirak edib.**

Səmimi şəraitdə keçən söhbətdə səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, İsrail nümayəndələri ilə davamlı görüşlər ölkələrimiz arasında əlaqələrin və dostluq münasibətlərinin getdikcə möhkəmlənməsinə töhfələr verəcək. Nazir şəkərli diabet xəstəsi olan uşaq və yeniyetmələr üçün İsraildə yay düşərgəsinin təşkil olunmasını humanizm prinsiplərinə əsaslanan bir addım kimi yüksək qiymətləndirib. T. Musayev Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın uşaqların və yeniyetmələrin sağlamlığının qorunmasına hər zaman xüsusi qayğı ilə yanaşdıqlarını diqqətə çatdırıb. Bildirib ki, bu qayğının nəticəsi olaraq son illərdə uşaqların yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi istiqamətində mühüm addımlar atılır.

Yay düşərgəsinə yollanan yeniyetmələrə yaxşı yol arzulayan Teymur Musayev bu səfərin onların yaddaşlarında xoş xatirə kimi qalacağını, eyni zamanda, sağlamlıqlarının bərpasında vacib rol oynayacağını bildirib.

Öz növbəsində İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik Azərbaycanda uşaqlara dövlət tərəfindən göstərilən əhatəli qayğını yüksək qiymətləndirib. O, qeyd edib ki, beynəlxalq müstəvidə həyata keçirilən bu layihədə iştirak etmək üçün ilk olaraq azərbaycanlı uşaq və yeniyetmələr seçilib.

Səmimi qəbula görə minnətdarlığını bildirən yeniyetmələr dövlətin qayğısını daim hiss etdiklərini vurğulayıblar.



Bildirilib ki, yay düşərgəsi uşaqların səhhətlərinin bərpasına kömək edəcək.

*Z.HÜSEYNOVA,*
*"Xalq qəzeti"*

# Dövlət Məşğulluq Agentliyində

## Azad olunmuş ərazilərdə məşğulluq



Böyük Qayıdış proqramına uyğun olaraq işğaldan azad olunmuş ərazilərə köçürülən sakinlərin aktiv məşğulluğu istiqamətində işlər davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bununla bağlı bildiriblər ki, Dövlət Məşğulluq Agentliyi həmin sakinlərin məşğulluq imkanlarının qiymətləndirilməsi məqsədilə həftə ərzində Laçın rayonu və Ağalı kəndinə köçürüləcək daha 45 ailə ilə görüş keçirib.

Qeyd edilib ki, görülən işlərin davamı olaraq artıq Laçına köçürülmüş sakinlərlə də görüşlər davam etdirilib. Agentliyin nümayəndələri Laçına köçürülmüş daha 14 ailə ilə söhbət aparıb. Görüşlər zamanı həmin ailələrin üzvləri ilə məşğulluq imkanlarının müəyyənləşdirilməsi istiqamətində ilkin söhbətlər aparılıb. Onların hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyənləşdirilib.

Doğma yurdlarına köçürülən sakinlərin münasib vakansiyalar üzrə işlə təminatı, özünüməşğulluq proqramına cəlb olunmaları, eləcə də sakinlərdən bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə peşə hazırlığı kurslarının təşkili üzrə tədbirlər davam etdirilir.

## Zaqatalada fərdi təsərrüfatlara baxış

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə özünüməşğulluq proqramı çərçivəsində rayon sakinləri Qocayeva Gülşən Rəcəb qızı və Məmmədov Abdulla İsa oğlunun kiçik təsərrüfatlarına baxış keçiriblər.

Bildirilib ki, bir müddət əvvəl Gülşən Qocayeva və Abdulla Məmmədov Dövlət Məşğulluq Agentliyinə şəxsi bizneslərini qurmaq arzusunda olduqlarını bildiriblər. Agentliyin nümayəndələri ilə görüşlər zamanı onların hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyənləşdirilib. Bundan sonra Gülşən Qocayeva "kiçik dərzi sexi", Abdulla Məmmədov isə "kiçik dəmirçi sexi" biznes ideyaları üzrə özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin ediliblər.



Nazirlə görüş zamanı hər iki proqram iştirakçısı qayğı ilə əhatə olunduqlarına, kiçik biznes sahələri yaratmaları üçün göstərilən dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində bu ilin ötən dövründə 171 min 600 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub, o cümlədən 6 min 800 nəfər özünüməşğulluq proqramına cəlb edilib.

## 6 ayda 6 mindən çox işsiz peşə öyrənib

Dövlət Məşğulluq Agentliyi yanvar–iyun aylarında 6 min 113 şəxsi əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kurslarına cəlb edib.

Onlardan 3 min 518 nəfəri üçün Agentliyin Bakı, Gəncə, Göyçay və Naxçıvan peşə hazırlığı mərkəzlərində, 2 min 595 nəfəri üçün isə özəl tədris müəssisələrində peşə kursları təşkil olunub.

Verilən məlumata görə, kurslarda iştirakçılara müxtəlif peşələr üzrə nəzəri və praktiki biliklər tədris olunub.

Agentlikdən, bildiriblər ki, hazırlıq kurslarını uğurla bitirən müdavimlərdən 2 min 311 nəfəri müvafiq sahələr üzrə işlə təmin olunub.

*Z.BAYRAM,*
*"Xalq qəzeti"*




# Olimpiya festivalında böyük uğur

**Cüdo üzrə Azərbaycan milli komandası 2023-cü il Avropa Gənclər Olimpiya Festivalında (EYOF) böyük uğurla çıxış edərək ümumi hesabda bütün ölkələri qabaqlayaraq birinci yeri tutub. Yığmamız fərdi yarışlarda 3-ü qızıl olmaqla 9 medal qazanıb. Əvvəlki Olimpiya festivalları ilə müqayisə etsək, komandamız medal əyarına görə son 15 ilin ən yaxşı nəticəsini əldə edib. 2022-ci ildə onlar 1 qızıl, 4 gümüş və 2 bürünc olmaqla, ümumilikdə, 7 medal qazanıblar. İdmançılarımız builki çıxışları ilə medal sayını 9-a yüksəldə biliblər.**



Qızlardan ibarət komandamızın çıxışını xüsusi vurğulamalıyıq. 2 qızıl medal qazanan yığmamız ölkələrin sıralamasında birinci yeri tutdu. Yeniyetmə qızlardan ibarət yığmanın baş məşqçisi Elnur İsmayılov "Xalq qəzeti"nə müsahibəsində festivalda qızıl medal qazanan hər iki cüdoçunun güclü potensiala malik olduğunu bildirdi: "Vüsalə Hacıyeva bu il Avropa birinciliyində çempion adını qazanıb. Avropa kuboku yarışlarının qalibi və mükafatçısıdır. Xədicə Qədaşova da beynəlxalq arenalarda keçirilən nüfuzlu yarışlarda parlaq nailiyyətlər əldə edib. Onların hər ikisinə böyük ümidlərimiz var. Eyni zamanda, komandamızın digər yeniyetmə cüdoçularını da vurğulamaq istəyirəm. Sevindirici haldır ki, Azərbaycanı Olimpiya Oyunlarında layiqincə təmsil edəcək yeni nəsil yetişir. Cüdoçu qızlarımızdan daha böyük nailiyyətlər gözləyirik".

E.İsmayılov komandanın dünya çempionatına hazırlığından da danışdı. O qeyd etdi ki, əsas hədəf dünya çempionatıdır: "Ümid edirik ki, cüdoçu qızlarımız onlara bəslənilən ümidləri doğruldacaqlar".



Vüsalə Hacıyeva (48 kq) bu nüfuzlu yarışda Azərbaycanı layiqincə təmsil etdiyinə görə çox sevindiyini dedi: "Qızıl medal qazanacağımı qarşıma məqsəd qoymuşdum. Turnirə yaxşı hazırlaşmışdıq. Rəqiblərimlə döyüş o qədər də çətin keçmədi. Yarımfinalda nisbətən güclü rəqiblə görüşdüm və onu da üstələdim. Azərbaycanı layiqincə təmsil etdiyimə görə xoşbəxtəm".

Komandamıza daha bir qızıl medal qazandıran Xədicə Qədaşova (63 kq) bu il Odivelasda keçirilən Avropa çempionatında 3-cü yeri tutmuşdu. Cari ildə, həmçinin Göygöl və Bielsko Bialada keçirilmiş Avropa kuboku yarışlarında gümüş medal qazanmışdı. X.Qədaşova Olimpiya festivalında potensialından maksimum istifadə etdiyini bildirdi: "Yarışda potensialımdan maksimum istifadə etdim. Komandamızla qürur duyuram. Azərbaycanın Dövlət himnini səsləndirdik, bayrağını yüksəklərdə dalğalandırdıq. Bu nəticə ilə kifayətlənməməliyik. Öz üzərimizdə daha çox çalışmalıyıq".

Cüdo üzrə oğlanlardan ibarət Azərbaycan yığması festivalda 1 qızıl, 2 gümüş və 4 bürünc medala sahib olub. Yeniyetmə oğlanlardan ibarət yığma komandamızın baş məşqçisi Rüstəm Alimli Olimpiya festivalı ərəfəsində müsahibəsində komandadan yüksək nəticə gözlədiyini qeyd etmişdi. Cüdoçularımızın həm fərdi, həm də qarışıq komanda yarışlarında medala iddialı olduqlarını vurğulamışdı. Məşqçi festivalda komandanın çıxışına münasibət bildirərkən nəticədən razı qaldığını dedi: "Olimpiya Festivalına ikinci heyətlə yollanmışdıq. Oğlanlardan ibarət yığmamızda 8 cüdoçudan 7-nin medal qazanması çox yaxşı nəticədir. Qarşıda yığmamızı Zaqreb şəhərində keçiriləcək dünya çempionatı gözləyir. Yarışda birinci heyətlə çıxış edəcəyik. Ümid edirəm ki, Zaqrebdə də cüdoçularımız onlara bəslənilən etimadı doğruldacaq".

Qarışıq komanda yarışlarında Azərbaycanın Xorvatiya, Ukrayna və Gürcüstan komandalarını üstələməsi bir daha göstərdi ki, yığmamız geniş imkanlara malikdir. Finalda inamla mübarizə aparan qarışıq komandamız az fərqlə həlledici mərhələdə məğlub olaraq ikinci yerdə qərarlaşdı.



Qeyd edək ki, Azərbaycan komandası ötən ay Portuqaliyada keçirilən Avropa çempionatında da parlaq nailiyyət qazanmışdı. Belə ki, tatami ustalarımız ümumi nəticəyə görə medal sıralamasında ilk pilləyə yüksəlmişdilər. Builki yarışlarda komandamızın həm fərdi, həm də komanda turnirlərində nailiyyətləri onların qarşıdan gələn turnirlər, o cümlədən MDB Oyunlarında, eləcə də dünya çempionatında uğurlu nəticələri üçün əsas yaradır.

Beləliklə, Maribor tatamisini fəth edən Azərbaycan cüdoçularını qarşıda daha böyük uğurlar gözləyir. Əsas hədəf isə avqustun 23-27-də keçiriləcək dünya çempionatıdır.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti qulluğa qəbulla bağlı növbəti

MÜSABİQƏ ELAN EDİR

Penitensiar xidmətin kiçik rəis heyəti vəzifələri üzrə vakant ştat vahidlərinin zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi məqsədilə müsabiqə komissiyası tərəfindən müsahibə elan edilir.

Müsahibədə iştirak etmək istəyən, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq şəxsi keyfiyyətlərinə, fiziki və peşə hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə xidmətdə qulluğa yararlı, əvvəllər məhkum edilməmiş, məhkəmə, prokurorluq, digər hüquq-mühafizə orqanları və ya başqa dövlət orqanlarında yol verdiyi nöqsanlara görə işdən xaric edilməmiş, həqiqi hərbi xidmətini tam başa çatdırmış, yaşı 20-dən aşağı və 30-dan yuxarı olmayan Azərbaycan Respublikasının vətəndaşları cari il avqustun 7-dən sentyabrın 7-dək ərizə ilə penitensiar xidmətə müraciət edə bilərlər. Ərizələri xidmətin elektron poçtu (info@penitensiar.justice.gov.az), "Azərpoçt" və ya xidmətin Bakı şəhəri, Nizami küçəsi 114 nömrəli ünvanda yerləşən inzibati binasındakı poçt qutusu vasitəsilə təqdim etmək mümkündür.

Seçim zamanı ali təhsilli, kompüter və xarici dil biliklərinə sahib, boyu ən azı 175 sm olan, yaxın qohumları məhkum edilməmiş kişi namizədlərə, həmçinin Ədliyyə Nazirliyi sistemində həqiqi hərbi xidmət keçmiş şəxslərə üstünlük veriləcəkdir.

Müsahibədə iştirak etmək istəyən şəxslər ərizə nümunəsi ilə penitensiar xidmətin internet səhifəsinin (http://penitensiar.justice.gov.az) "Xidmətə qəbul" bölməsində tanış ola bilərlər.

"Şirvan Yol Tikinti-3" ASC səhmdarlarının nəzərinə!

14 sentyabr 2023-cü il saat 17.00-da "Şirvan Yol Tikinti-3" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**
**1.** "Şirvan Yol Tikinti-3" ASC-nin ləğv edilməsi.
İclasda bütün səhmdarların iştirakı vacibdir.
Əlaqə telefonu–050-222-30-05.
Ünvan–Şirvan şəhəri, M.Füzuli küçəsi 19.

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 160 (30276) 1 avqust 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Avropa birinciliyində daha bir medal



***Rumıniyanın paytaxtı Buxarestdə keçirilən yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyində Füqan Əliyev yaşı 23-ə qədər olan atletlər arasında 81 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb. Atletimiz təkanla qaldırma hərəkətində 179 kiloqramı başının üzərinə qaldırmaqla ikinci yeri tutub.***

Qeyd edək ki, bundan əvvəl komandamızın digər üzvü Ömər Cavadov qitə birinciliyinin qalibi olub.

## Yekaterina Sarıyevanın Almaniya qızılı



***Azərbaycan atleti Yekaterina Sarıyeva Dünya Kontinental Turu çərçivəsində 30-cu "Midsommar - Charlottenburger-Mittsommernacht" yarışında uğurla çıxış edib.***

Almaniyada təşkil olunan yarışda təmsilçimiz üç təkanla tullanma üzrə 13.33 metr nəticə göstərib. Bu nəticə ilə Y.Sarıyeva qızıl medala sahib olub.

## Universiadada gimnastımızın böyük uğuru

**Çinin Çendu şəhərində keçirilən XXXI Ümumdünya Yay Universiadasında komandamızın çıxışı davam edir.**



Universiadada növbəti medalları komandamızın aktivinə bədii gimnastımız Zöhrə Ağamirova yazdırıb. İstedadlı gimnastımız halqa (31.800 xal) və gürzlərlə (30.850 xal) hərəkətlərin icrasında gümüş, lentlə (29.150 xal) hərəkətlərdə isə bürünc medal qazanıb.

Qeyd edək ki, bundan əvvəl cüdoçularımız Rəşid Məmmədəliyev (73 kq), gümüş, Yaşar Nəcəfov (66 kq), Leyla Əliyeva (48 kq) bürünc medala sahib olublar.

Universiadada Azərbaycanı 20 ali təhsil müəssisəsindən 18-27 yaş aralığında 87 atlet 16 idman növündə təmsil edir.

## MMA döyüşçülərimiz Yaponiyada qalib olublar



***"Qəbələ" İdman Klubunun MMA döyüşçüləri "Bellator" və "Rizin"in birlikdə təşkil etdiyi "Super Rizin 2" turnirində kəmər döyüşünə çıxıblar. Yaponiyada keçirilən turnirdə Tofiq Musayev yerli idmançı Akira Okada ilə üz-üzə gəlib. O, döyüşün ikinci raundunda rəqibini nokauta salıb.***

Vüqar Kərəmov isə yaponiyalı Mikuri Asakura ilə qarşılaşıb. Döyüşçü 1-ci raundda boğucu fəndlə rəqibinə qalib gəlib.

*L.SABİRQIZI,"Xalq qəzeti"*

## NASA "Dragon"u kosmosa göndərəcək



**NASA-nın "SpaceX Crew-7" missiyası tədqiqat və texniki işləri yerinə yetirmək üçün Beynəlxalq Kosmik Stansiyaya müxtəlif təyinatlı astronavtlardan ibarət komanda göndərməyə hazırlaşır.**

"ScitechDaily" saytı istinadla xəbər verir ki, komanda üzvləri kosmik gəmilərin gəlişini izləyəcək, kritik tədqiqatlar aparacaq, missiya başa çatdıqdan sonra isə "SpaceX" gəmisi tərəfindən götürülərək Florida sahillərinə geri qayıdacaqlar. NASA bu əməliyyatı yerinə yetirmək üçün kosmik stansiyadan dörd nəfər astronavt təyin edib.

NASA qeyd edir ki, astronavtlar 3-cü və 5-ci missiyalarda istifadə olunmuş, dayanıqlı "SpaceX Dragon" gəmisindən istifadə edəcəklər. Hazırda NASA mühəndisləri kosmik gəmi üçün gücləndirici rolunu oynayacaq "Falcon 9" mühərrikini hazırlayırlar.

*M.HACIXANLI, "Xalq qəzeti"*

## 2 min illik gəmi

**İtaliyada qədim Roma gəmisinin qalıqları tapılıb. Bu barədə İtaliyanın mədəni irsinin qorunması ilə məşğul olan "Carabinieri Art Squad" adlı polis bölməsi məlumat yayıb.**



Bildirilir ki, 2 min ildən əvvəl batdığı güman edilən gəmi Romanın şimal-qərbindəki liman şəhəri olan Civitavecchia sahillərində aşkar edilib. Eramızdan əvvəl birinci və ya ikinci əsrlərə aid olan gəmidə, həmçinin yüzlərlə amfora tipli qablar da var. Təxminən 65 fut uzunluğunada olduğu təxmin edilən bu qablar gəminin dibində yerləşdirilib.

Qeyd edək ki, mütəxəssislər gəminin tapılmasında patrul gəmisi, sonar və dərinlik ölçən cihaz olan uzaqdan idarə olunan avtomobil sistemindən istifadə ediblər.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Maraq dünyamız

## Atakama səhrası planetin ən günəşli yeridir



**Alimlər Yerin Günəş tərəfindən ən intensiv işıqlandırıldığı ərazini müəyyən ediblər. Bu yer hətta Venera planetinə bənzəyir.**

Araşdırmalara görə, Yer kürəsinin ən günəşli nöqtəsi Çilinin şimalındakı Atakama səhrasında yerləşən Çinantor yaylasıdır. Dəniz səviyyəsindən 4800 metr yüksəklikdə yerləşdiyinə görə buludlar və yağışlar çox azdır. Venera Günəşə ən yaxın planetdir. Çinantorun Veneraya bənzədilməsinin səbəbi burada da ultrabənövşəyi radiasiyanın həddən artıq olmasıdır. Yaylada orta hesabla Günəş radiasiyası hər kvadratmetrə təxminən 308 vatt düşür ki, bu da Yer üçün rekord göstəricidir.

Qeyd edək ki, Atakama səhrası dünyanın ən sıx məskunlaşdığı səhralardan biridir. Burada insanlar mədənlərdə işləyir və mis çıxarırlar. Günəşin Yeri bu qədər işıqlandırması isə orada yaşayan insanlarda dəri xərçəngi kimi xəstəliklərə səbəb ola bilər.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

## "Deepfake" insanlarda saxta xatirələr yaradır

**Alimlər "deepfake" texnologiyası (mövcud təsvirin süni neyron şəbəkələrindən istifadə edilərək başqası ilə əvəz edilməsi) ilə insanlarda saxta xatirələrin yaradılmasına nail olublar. Belə ki, araşdırma nəticəsində insanların qavrayışlarına və yaddaşlarına kompleks təsir göstərmək mümkün olub.**



Təcrübədə iştirak edən 436 nəfər könüllüyə məşhur filmlərin saxta videoları izlədilib və onlardan mətnləri oxumaq tələb olunub. Nəticədə, respondentlərin təxminən 50 faizi filmlərin saxta versiyalarını xatırlayıb. Üstəlik, iştirakçıların çoxu bu versiyaların orijinallardan daha yaxşı olduğunu bildirib.

Tədqiqatın müəllifi G. Murfi qeyd edib ki, hazırda "deepfake" texnologiyası çox böyük təhlükə olmasa da, insanların xatirələrini dəyişdirməklə bağlı narahatlıqlar yaradır. Həmçinin media "deepfake"in real hadisələr deyil, uydurma əsərlər kimi tanınmasını təmin etməlidir.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

Sənət inciləri

## "Nədimələr"

***Dieqo Velaskes 1599-cu ildə İspaniyanın Sevilya şəhərində mülkədar ailəsində dünyaya gəlib. O, Barokko dövrünün ən məşhur rəssamlarından idi. Onun əsərlərində reallıq və təbiilik hər zaman ön planda olub. Saray rəssamı olduğu üçün kral və kraliçanı, saray məişət həyatını daha çox təsvir edib. Onun belə əsərlərindən biri də "Nədimələr" adlanır.***



Bu əsər portretdən çox məişət janrına yaxındır. Əsərin kompozisiyasında rəssamın emalatxanasında Velaskesin özünü, kral və kraliçanı, 6 yaşlı şahzadə İnfanta Marqaritanı, onun köməkçilərini, balacaboy təlxəyi, saray işçilərini, iti və digərlərini görürük.

Rəsm əsəri dəzgah rəngkarlığında yağlı boya texnikası ilə işlənib. Əsərin sujeti ilə bağlı fərziyyələrə gəldikdə isə, belə bir fikir irəli sürülür ki, şahzadənin köməkçiləri onu kral və kraliçanın hüzuruna çıxmaq üçün hazırlayırlar. Fon tünd rəngdə olduğundan açıq rəngli geyimlərdə təsvir edilmiş fiqurlar daha çox ön plana çıxır.

## "Qarqantura"

***Fransız qrafik, boyakar və heykəltəraş, XIX əsrin ən böyük siyasi karikatura ustalarından olan Onore Viktoryen Domye 1808-ci ildə Marsel şəhərində anadan olub. Domyenin siyasi karikatura ustası kimi formalaşmasında 1830-cu il inqilabının böyük təsiri olub. Və o, yüzlərlə sənət əsəri hazırlamışdır. Ərsəyə gətirdiyi dünyaca məşhur əsərlərindən biri də "Qarqantura" satirik tablosudur..***



Əsərdə monoton–ağ və qara rənglərdən böyük ustalıqla istifadə olunub. Kompozisiya isə aydınlığı ilə fərqlənir.Rəssamın həbsinə səbəb olan bu karikaturada Fransa kralı Lui Filippin acgöz və bədheybət biri kimi təsvir edildiyinin şahidi oluruq. Tanınmış karikaturaçı və nəzəriyyəçisi Boris Yefimovun sözlərinə görə, rəssam öz yaradıcılığı ilə humanizm, tərəqqi və demokratiya uğrunda durmadan mübarizə aparıb. Onun əsərləri bu gün də mübarizdir və bizimlədir.

*Leyla HADI, tələbə-jurnalist*

Sağlamlıq

## Soğanın qabığı da faydalıdır

***Elmi araşdırmalara görə, quru qabıqların faydaları soğanın özündən daha çoxdur. Həkim – fitoterapevt Lyudmila Volkovanın sözlərinə görə, hətta əks göstərişlərə görə soğandan istifadə edə bilməyənlər, qabığından hazırlanan çayları içə və faydasını görə bilərlər.***



Həkim deyib ki, quru soğan qabığının tərkibində kversetin maddəsi var. Bu, xərçəng hüceyrələrinin düşmənidir və şişlərin yaranmasının qarşısını alır. Kversetin preparatları döş, ağciyər, qan, kolon və prostat xərçənginin müalicəsində terapiyanın bir hissəsi kimi istifadə olunur.

Qabıqda, həm də tokoferol var. Bu antioksidant sərbəst radikalları bağlayır və hüceyrə səviyyəsində patoloji proseslərin inkişafına mane olur.

Sübut edilib ki, soğan qabığında olan maddələr kompleksi ürək-damar və sinir sistemlərinin fəaliyyətini yaxşılaşdırmağa kömək edir, böyrək və qaraciyərə faydalı təsir göstərir, orqanizmi gücləndirir.

Soğan qabığından çay belə hazırlanır: Termosa 1 litr qaynar suya 2 qaşıq soğan qabığı tökülür və gecə qalır. Səhər soğan qabığından hazırlanan çay içilir.

Xüsusi dadına görə mütəxəssislər gündə, ən azı, yarım stəkan bu dəmləmədən içməyi məsləhət görürlər. Kursun müddəti 2–4 həftədir.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz



## Hava yağmursuz keçəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən avqustun 1-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütununu, nisbi rütubət gecə 60-65 , gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı,şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 19-24° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

**✓ 1995-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Bayramov Zakir Novruz oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranının vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN

Suraxanı rayonundan Əziz Əzizov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova qardaşı

**AZƏR QARAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4841
SİFARİŞ 1940
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00